**Cild: 17 Say: 1** **ISSN 2218 – 0346**
**2014**

# AZƏRBAYCAN ARXEOLOGİYASI

**Təsisçi**
Hamlet İsaxanlı

**BaşRedaktor**
Qüdrət İsmayılzadə

**Redaktor müavinləri**
Roza Arazova
Tarix Dostiyev
Bəhlul İbrahimli

**Məsul katib**
Sevda Hüseynova

**İşçi heyəti**
Xaqani Həbibov
Ləman Babaşlı

**Redaksiya heyəti**

Yüksel Sayan (Türkiyə)
İsmayıl Hacıyev (Azərbaycan)
Bertyill Lyonnet (Fransa)
Rauf Munçayev (Rusiya)
Mehmet Ösdoğan (Türkiyə)
Vəli Baxşəliyev (Azərbaycan)
Otar Caparidze (Gürcüstan)
Ayman Dosimbayeva (Qazaxıstan)
Maya Rəhimova (Azərbaycan)
Mehmet İşıqlı (Türkiyə)
Lauren Listven (ABŞ)
Andreas Şaxner (Almaniya)
Murtuzəli Hacıyev (Rusiya)

**Volume: 17 Number: 1** **ISSN 2218-0346**
**2014**

# AZERBAIJAN ARCHAEOLOGY

**Founder**
Hamlet Isaxanli

**Editor in Chief**
Qudrat Ismayilzadeh

**Editorial Assistants**
Roza Arazova
Tarikh Dostiyev
Bahlul Ibrahimli

**Deputy Editors**
Sevda Huseynova

**Staff members**
Khaqani Habibov
Laman Babashlı

**Editorial Board**

Yuksel Sayan (Turkey)
İsmail Haciyev (Azerbaijan)
Bertille Lyonnet (France)
Rauf Munchayev (Russia)
Mehmet Ozdoghan (Turkey)
Vali Baxshaliyev (Azerbaijan)
Otar Japaridzeh (Georgian)
Ayman Dosimbayeva (Kazakhstan)
Maya Rahimova (Azerbaijan)
Mehmet Ishikli (Turkey)
Lauren Listvest (USA)
Andreas Schachner (Germany)
Murtuzali Hacıyev (Russia)

© COPYRIGHT©1999 BY KHAZAR UNIVERSITY PRESS
ALL RIGHTS RESERVED

AZ1096 Azərbaycan Respublikası
Bakı şəhəri, Məhsəti küçəsi, 41
Xəzər Universitəsi

Khazar University 41 Mehseti str.,
Baku AZ1096 Republic of
Azerbaijan

Üz qabığında:
***Azıx mağarası- Azərbaycan***

Cover page depicts:
***Azykh cave- Azerbaijan***

На обложке:
***Пещера Азых-Азербайджан***

Telefon: (99412) 4217927 (219)
Faks: (99412) 4989379
E-mail: contact@khazar.org
jaa@khazar.org
website: http://www.khazar.org
www.azerbaijanarcheology.com

KHAZAR UNIVERSITY PRESS



***Alim yenə qucaq-qucaq yığır qədim saxsıları,***
***Yer altdakı hər kərpicin üstündəki yazıları.***
***Səməd Vurğun***

***Picking up ceramics the scientist enjoys,***
***Undergraund writings on bricks he knows***
***Samad Vurgun***

***Ученый роется в земле....***
***Он собирает черепки, осколки утвари простой.***
***Самед Вургун***

## İÇİNDƏKİLƏR

**TƏDQİQATLAR**
Yaqub Məmmədov - Dmanisi alt paleolit düşərgəsi. ...............................................9
Şəlalə Bağırova - Azərbaycanda erkən əkinçilik ...................................................19
Cəfərqulu Rüstəmov, Firuzə Muradova - Daşsalahlı kurqanları. ...........................25
Gülnaz Abdullayeva - Azərbaycanın orta tunc dövrü Qaraköpəktəpə abidəsi kontekstində ..........................................................................................38
Elnur İmanov - Gəmiqaya və Kəlbəcər qayaüstü təsvirlərində Azərbaycanın dağlıq bölgələrinin heyvanat aləmi. ...........................................................50
Nəsibə Mustafayeva - Azərbaycan ərazisində ilk və orta tunc dövrü abidələrində aşkar olunmuş ox və nizə ucluqlarının analitik tədqiqi ...........57
Elgün Aslanov - IV-XIII əsrlərdə Quruçay və Köndələnçay hövzəsində əkinçilik mədənıyyəti haqqında ..................................................................67
Müşfiq Bayramov - Kürqırağı orta əsr kənd tipli yaşayış yeri. ..............................77

**ELM TARİXİ**
Hicran Mahmudova, Xumar Vahidova - Albanşünas alim Rəhim Vahidov ..........85

**TƏLƏBƏLƏRƏ KÖMƏK**
Əsgər Əhməd - Səfəvilər dövründə Azərbaycanda ovçuluq .................................90
Anar Əzizsoy, Rahim Həsənov, Elşən Abdurahmanov - Şəki şəhəri və ətraf kəndlərdə pirlər və ziyarətgahlar ..................................................................99

**XRONİKA, RƏYLƏR, MƏLUMATLAR .......................................................108**

## CONTENTS

**RESEARCHES**

Mammadov Yagub - The lower paleolithic site of Dmanisi ....................................9
Baghirova Shalala - Early agriculture in Azerbaijan ..............................................19
Jafarqulu Rustamov, Firuza Muradova - Dashsalakhli mounds ............................25
Gulnaz Abdullayeva - Middle bronze period in context of Garapekektepe monument ..........................................................................................38
Elnur Imanov - Fauna of the high mountainous areas of Azerbaijan in petroglyhps of Gemigaya and Kalbajar ........................................................50
Nasiba Mustafayeva - Analitical studies of arrowheads and spearheads of historical sites of early and middle bronze ages of Azerbaijan ....................57
Elgun Aslanov - The farming culture of Guruchay and Kondalanchay (IV-XIII centuries) ............................................................................................67
Mushfig Bayramov - Medieval rural settlement Kurgiragi ...................................77

**SCİENTİFİC HİSTORY**

Hijran Mahmudova, Khumar Vahidova– The scientist-albanologists Rahim Vahidov ..........................................................................................85

**FOR STUDENTS**

Askar Ahmad - Hunting in the period of Safavids in Azerbaijan ...........................90
Anar Azizsoy, Rahim Hasanov, Elshen Abdurahmanov - Monuments and shrınes in Shakı cıty and surroundıng vıllages .............................................99

**CHIRONİCLES, REWIEWS, INFORMATINS............................................108**

## СОДЕРЖАНИЕ

### ИССЛЕДОВАНИЯ

Ягуб Мамедов - Нижнепалеолитическая стоянка Дманиси ..............................9
Шалала Багирова - Древнейшее земледелие в Азербайджане. ........................19
Джафаргулу Рустамов, Фируза Мурадова - Курганы Дашсалахлы. ...............25
Гюльназ Абдуллаева - Среднебронзовый период в контексте памятника Гаракепектепе. .........................................................................................38
Эльнур Иманов- Животный мир высокогорных зон Азербайджана в наскальных изображениях Гемигая и Кельбаджара. ..............................50
Насиба Мустафаева - Аналитическое исследование наконечников
стрел и копий из памятников раннего и среднебронзового периода на территории Азербайджана. ......................................................................57
Элгюн Асланов - О земледельческой культуре в бассейнах Гуручай и Кенделенчай в IV – XIII веках. ...........................................................67
Мушфиг Байрамов - Средневековое поселение сельского типа Кюргыраги. ....................................................................................................................77

### ИСТОРИЯ НАУКИ

Хиджран Махмудова, Хумар Ваидова – Ученый-албановед Рагим Ваидов ........................................................................................................85

### ПОМОЩЬ СТУДЕНТАМ

Аскер Ахмед - Охота в Азербайджане во времена Сефевидов ........................90
Анар Азизсой, Рагим Гасанов, Эльшан Абдурахманов - Пиры и святилища города Шеки и окрестностей .................................................99

**ХРОНИКА, РЕЦЕНЗИИ, СООБЩЕНИЯ ...................................................108**

TƏDQİQATLAR
RESARCHES
ИССЛЕДОВАНИЯ

# DMANİSİ ALT PALEOLİT DÜŞƏRGƏSİ

**Yaqub Məmmədov**
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)
yaqub_amea@mail.ru

**Açar sözlər: Alt Paleolit, Cənubi Qafqaz, Dmanisi, Homo erectus.**

İnsan növünün mənşəyinə dair bu zamana qədər aparılan tədqiqatlar tam qənaətbəxş deyil. Belə ki, Homoya münasibətdə "nə" xüsusunda razılaşılsada, "necə" və "nə zaman" məsələlərində ümumi razılıq yoxdur. Son dövrlərə qədər əksər paleoantropoloqlar hesab edirdilər ki, "hara" sualının cavabı birmənalı Afrikadır. Lakin son bir neçə on illik ərzində Afrikadan kənarda iki məskənin – Gürcüstanda Dmanisi və Flores adasında Liang Buanın aşkar edilməsi, bu məsləyə də yenidən baxmağın zərurətini yaratdı.

Dmanisi alt paleolit məskəni Cənubi Qafqazda (41˚20'10"Ş və 44˚20'38"Ş), Gürcüstanın cənub – şərqində (Tiflis şəhərindən 85 km – cənub – qərbdə), Dmanisi vulkanik yaylasında, dəniz səviyyəsindən 881 m yüksəklikdə Masavera (Xram) və Pinesauri çayının qovuşması ilə yaranan burunda yerləşir (1 – 10432).

Dmanisidə 1930 – cu illərdən (1936 – cı ildən başlayaraq) aparılan qazıntılar əsasən abidənin tunc dövrü və orta əsrlər arxeologiyası ilə bağlı olmuşdur (L. Muskleşvili, V. Çaparidze)(2). Lakin 1983 – 1987 – ci illərdə orta əsr şəhər hissəsində aparılan qazıntılar zamanı erkən pleystosen dövrü heyvan qalıqları (1983 – cü ildə aşkar olunan heyvan sümükləri arasında Prof. A. Vekua erkən pleystosen dövrü üçün xarakterik olan Dicerorhinus etruscus kərkədanının dişinin olduğunu müəyyən etmiş (3)) və arxeoloji materialların (1984 – cü ildə isə buradan dövr üçün xarakterik olan ilk daş alətlər aşkar olunmuşdur (3)) aşkarlanması ilə nəticələndi. Nəhayət burada 1991 – ci ildə Gürcüstan Milli Elmlər Akademiyası Arxeoloji Tədqiqat Mərkəzi və Alman Mərkəzi Muzeyinin birləşmiş ekspediyasının apardığı qazıntı zamanı çox yaxşı saxlanılmış hominid qalığı, D211 çənə aşkar olunmuşdur (4 – 509).

Bütövlükdə 1990 – 2008 – ci illərdə aparılan qazıntılar nəticəsində əldə olunan insan qalıqları Dmanisini ən zəngin Homo erectus məskənlərindən biri olduğunu təsdiq etmişdir.

Dmanisidə aparılan müasir tədqiqatlar Surix Universitetinin Antropologiya İnstitutu və Gürcüstan Milli Muzeyi arasında davam edən əməkdaşlığa əsaslanır və Dmanisi layihəsi SNSF (İsveç Milli Elm Fondu) və SDF (İsveç İnkifaf və Əməkdaşlıq Agentliyi) tərəfindən yaradılan SCOPES (Şəqi Avropa və İsveçrə arasında Elmi Əməkdaşlıq) tədqiqat proqramı ilə maliyələşdirilir (5).

Dmanisidə tarixdən əvvəlki dövr qazıntıları əsasən burunun mərkəzi hissəsində mərkəzləşmişdir. Təxminən 1,85 milyon il əvvəl bazalt lavasının Masavera çayı vadisinə tökülməsi ilə yaranan təbii bənd, keçmiş Pinazaure axını boyu müvəqqəti gölün qalxmasına səbəb olmuşdur. Daha sonra iki çay dərələr və müasir burun yaratmışdılar. Bununla belə, geomorfoloji çöküntü və geokimyəvi tarixlər Dmanisi çöküntülərinin qətiyyən göl mənşəli olmadığını və müvəqqəti gölün Dmanisi erkən pleystosen yaşayış yerindən təxminən 25 metr aşağıda mövcud olduğunu göstərdi (3).

Dmanisidə Masavera bazaltının üzərində yerləşən çöküntülər arqon/arqon ilə 1,85 milyon il əvvələ aid olunur. Dmanisinin çöküntü straqrafiyası iki əsas hissəyə – A və B ayrılır. Onların özü də bir neçə yarımhissədən ibarətdir. Masavera bazalt üzərində yerləşən A təbəqəsi (A1 – A4 yarımhissələri) B təbəqəsindən (B1 – B5 yarımhissələri) cüzi, qeyri müvafiq çöküntü ilə ayrılır. A təbəqəsinin A1 – A2 çöküntüləri 1.81 milyon il əvvələ aid olunur. Son Olduvay A təbəqəsi üzərində yerləşən erkən Matuyama B təbəqəsini təşkil edən suxurlar maqnit – biomaqnit və korrelyativ arqon – arqon ilə 1,77 milyon il əvvələ aid olduğu müəyyən olunmuşdur (5 – 10375).

Məskənin stratiqrafik öyrənilməsi göstərir ki, bütün insan qalıqları B təbəqəsindən əldə olunmuşdur (6; 7). Masavera bazalt üzərində yerləşən A təbəqəsindən son dövrlərə qədər heç bir artefakt və ya insan qalığı aşkar olunmamışdır. Yalnız Dmanisinin M5 hissəsində sınaqların tamamlanması ilə daha qədim A təbəqəsində saxlanılan artefaktlar və heyvan sümük qalıqlarının aşkar olunması, Dmanisinin məskunlaşma tarixinin yuxarı Olduvay subkronuna aparıb çıxardır. M5 də aparılan qazıntılar nəticəsində ümumilikdə 122 daş artefakt aşkar olunmuşdur (49 – ədədi B təbəqəsindən, 73 – ədədi A təbəqəsindən) (1– 10432).

M5 ölçü vahidi Sahə 1 qazıntılarında 85 m qərbdə yerləşir. Dar geoloji xəndəyin (2m$^2$) – sınaq vahidinin nəticələrinə görə Masavera bazaltı üzərində yerləşən çöküntülərin qalınlığı 6.2 m təşkil edir. Bu qalın çöküntü A1 – dən B5 – ə qədər adlandırılan doqquz stratiqrafik vahidə bölünür. Əsas qazıntı ərazisində olduğu kimi, M5 – də A təbəqəsi çöküntülərinin normal geomagnetik ziddiyyəti müşahidə olunur və yuxarı Olduvay subkronu, B tə-

bəqəsi çöküntüləri isə erkən Yuxarı Matyuama kronu ilə əlaqə təşkil edir (1 – 10433).

Yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olur ki, ərazi son Olduvay subkronu zamanı məskunlaşmışdır (1.85 – 1.78 milyon il əvvəl). B təbəqəsi çöküntüləri tapıntıları Dmanisi məskunlaşma sahəsinin 1.77 milyon il əvvələ (Zemo Orozmani məskəni ilə stratiqrafik əlaqələrinə əsasən ən azı 1.76 milyon il əvvələ (7) çatır (1 – 10433).

Qədim Dmanisinin paleoenvironmental bərpası paleoantoloji və paleobotanik tarixə əsaslanır. Paleobotanik tarix orada iki rütubətlilik dövründə iki fərqli paleoenvironmentalın olduğunu göstərir. 1,77 milyon ildən əvvəlki dövr nəm və subtropik vəziyyətlə xarakterizə olunsa da bundan sonrakı daha qurudur (3).

Dmanisidə aşkar olunan heyvan qalıqları IV dövrün çox əvvəli üçün xarakterikdir və son Viallafrans fauna toplusu kimi ifadə olunur (təxminən 1.8 – 1.7 milyon il əvvələ aid olunur). Burada biomüxtəliflik çox yüksək olmuş, 45 onurğalı növü müəyyən olunmuşdur (3 sürünən, 3 quş və 38 məməli). Onların arasında maral və at xüsusilə çoxdur. Yırtıcılar nəzərəçarpaçaq dərəcədə müxtəlifdir (14 növ), eləcə də otyeyənlər – bir qrup antiloplar, keçilər, qoyun və iri buynuzlu mal qara (7 növ) var. Dmanisi fauna siyahısında 2.1 – 2.5 milyon il əvvəl Gürcüstanın digər ərazilərində yaşamış heyvanların inkişaf etmiş formalarını da görmək olar (22).

Insan təkamül tarixində 2.5 – 2 milyon il əvvəl vacib mərhələdir. Bu dövrdə insanlar ilk daş alətlər düzəltməyə və ondan istifadə etməyə başlamışlar. Bu zamana qədər Dmanisidə bütün geoloji təbəqələrədən 8 mindən çox daş artefaktlar aşkar olunmuşdur (22).

Daş alətlər 40 müxtəlif materialdan düzəldilmişdir. Onların petroqrafik təhlili insanların Masavera və Pinezauri çaylarının vadilərindən olan çay daşı və çınqıllardan və eləcə də təbaşir qayaları qırıqları hissələrindən istifadə etdiklərini göstərir. (Şək. 1)

Dmanisi daş alətləri Olduvay məskənindən və Avrasiyadan aşkar olunmuş artefaktlarla bənzərdir. Lakin öz materiallarından istifadənin çoxluğu onun özünəməxsusluğudur və bu xüsusiyyət onu digər məskəndən



Şəkil 1. Dmanisidən əldə olunmuş daş alətlər

tamamilə fərqləndirir.

Daş materiallarının öyrənilməsi onların burada yaşayan əhali tərəfindən toplandığını və gətirildiyini göstərir.

Dmanisi dişlərinin mikro örtüyünün təhlili qeyd etməyə imkan verir ki, onların qidası Homo habilisdən daha zəngin olmuşdur və Homo erectus növünə xasdır (23).

Dmanisidə insan sümükləri ilə bərabər eyni dövrə aid müxtəlif iri (nəhəng ot yeyən) və xırda heyvanların sümüklərinin aşkar olunması artıq onların yaxşı ov etməyi bacardıqlarını və eyni zamanda nəhəng canlılardan müdafiə olunmaq qabiliyyətlərini göstərir.

1991–ci ildə Dmanisi alt paleolit düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunan çənə sümüyü (D211) stratiqrafik paleomaqnit tədqiqatlarla və qazıntı faunanın öyrənilməsi əsasında, təxminən 1 milyon 770 min il əvvələ aid olunmuşdur. Bu həmin dövrə qədər burada aşkar olunan ilk insan qalığı olsa da, hal–hazırda Dmanisidə ən azı beş fərdə məxsus 60–dan çox kəllə və postkranial sümük aşkar olunmuşdur (3).

Dmanisidə aparılan qazıntılar zamanı D211 çənədən əlavə 1999 cu ildə yaşlı bir insanın kəllə qutusu (D2280), orta yaşlı natamam kəllə (D2282/D211), kiçik gənc kəlləsi (D2700/D2735), 200 ci ildə dişsiz yaşlı kişiyə məxsus kəllə (D3444/D3900), nəhayət 2005–ci ildə sonuncu ən bütöv kəllə (D4500/D2600) aşkar olunmuşdur.

Ümümilikdə 1991–2005 ci illərdə Dmanisi məskənindən iki yeniyetmə və üç yaşlı olmaqla beş kəllə aşkar olunmuşdur (üç kişi, iki qadın). Kəllə həcmi 545 $sm^3$–775 $sm^3$ arası dəyişir. Kəllələr Homo erectus kimi təsvir olunmuşdur (8; 9; 10; 11; 12; 13; 14). Bununla belə, böyük D2600 çənə və kiçik D4500 kəllə yeni növ Homo georgicus kimi təqdim olundu (15; 16; 17). Daha sonra bəzi alimlər tərəfindən kəllələrdən üçü Homo georgicusa aid olunmuşdur (18; 19). Qeyd etmək lazımdır ki, Homo georgicus homo erectusun lokal növlərindən və ya Homo habilis və Homo ergaster arasında keçid forması hesab olunur.

Bu zamana qədər qəbul olunmuş ümumi fikirlərə görə, bəzi Dmanisi kəllələri ayrı–ayrı növlərdən gəlmişdilər. Bununla belə, D. Lorkipanidzeyə görə Dmanisidən olan insan qalıqları tək qrupa məxsusdur, ola bilsin ki, hər hansı təbii hadisə nəticəsində məhv olmuşdurlar (20). Bu mümkündür amma, tarixi müəyyənləşdirmə üsullarının xətalılığına görə çətindir.

Müasir üç–ölçülü kompyuter proqramından istifadə, beş qədim Dmanisi kəllələri arasında "forma" müxtəlifliyinin beş yaşayan insan və ya şimpanze arasında aydın müşahidə olunandan çox olmadığını təsdiq edir (20).

Kəllələrin anatomik xüsusiyyətləri öyrənilən zaman müəyyən olunmuşdur ki, Dmanisi nümunəsi multipli növdən ibarətdir. Bu zamana qədər aşkar olunmuş kiçik və ibtidai xüsusiyyətləri ilə diqqət çəkən beş kəllə və

postkranial sümüklərdə yaş və cinsi dimorfizmlə bağlı müxtəliflik olsa da eyni paleodemanın nümunələridirlər. Bütün beş Dmanisi kəlləsi vahid erkən Homo növünə aiddir. Dmanisi kəllələrinin çənələrinin morfoloji quruluşundakı fərq diş sistemi quruluşundan irəli gəlir (şək. 2).

Dmanisi qalıqlarının aşkar olunması Afrikadan kənarda ilk insanın yayılması haqqında müzakirələrin açılmasına zəmin yaratdı və insanın inkişaf tarixinə yenidən baxmaq üçün əsas verdi. Dmanisidə Homo erectusun erkən pleystosendə tədricən məskunlaşması mühüm biocoğrafi hadisə olmaqla bərabər, əsas bir təkamül nöqtəsi olmuşdur. Dmanisi insanlarının Homo erectus daxilində yaranması və yayılması vəziyyəti geniş müzakirələrə yol açmışdır.

Uzun müddət ümumi qəbul olunmuş fikrə görə Afrikanı tərk edən ilk insanlar Australopithecuslardan morfoloji cəhətdən tamamilə fərqlənirdilər. Onlar daha çox müasir tropik adamına bənzəyən bədən formasına malik olmuşdurlar (hündürboylu, böyük–beyinləri olmuş) və yaxşı düzəldilmiş daş alətlərə malik idilər (artıq iki artefakt forması düzəldə bilirdilər), əks halda onlar Afrikadan kənara gedə bilməzdilər. Lakin Dmanisi erkən Pliostoesen məskənin aşkar olunması və öyrənilməsi bu yanaşmanın tamamilə doğru olmadığını ortaya qoydu.

Dmanisinin zəngin insan qalıqları toplusu ən erkən üst Matuyama kronuna aid olunan (1.77 milyon il əvvəl) insanların sadə skelet cizgiləri ilə kiçik beyinləri olduğunu aşkar etdi. Dmanisi adamının beyninin həcmi 545 – 775sm $^3$, boyu 145 – 166 sm, çəkisi 40– 50 kq olmuşdur.

Dmanisidən olan dəlillər Qafqazda insanların ilk yaranma tarixini (FAD – first appearance date) müəyyən etməyə imkan verirdi. Bu isə Afrikadan kənarda insanların ən azı 1,85 milyon il əvvəl olduğunu göstərir. Dmanisi qalıqları aşkarlanmazdan əvvəl insanların Afrikadan yayılmasının bundan 1 milyon il əvvəl olduğu qeyd olunurdu. Bu material alimlərə insanların əcdadlarının Afrikadan kənara hərəkət etmələrinə və şimala doğru dünyanın digər hissələrinə yayılmalarına dair ən erkən dəlil vermişdir.



Şəkil 2. Dmanisi kəllələrinin kompyuter rekanstruksyası

Bu tapıntılar qədim insanların yayılma yoluna dair rəqabət aparan iki nəzəriyyədən birini – koldan daha çox ağac kimi şaxələnməni dəstəkləyir.

Qeyd etmək lazımdır ki, uzun illər boyu bəzi alimlər insanların daha çox bir gövdədən çıxan ağac budaqlarına bənzər bir və ya iki növdən yayılmasını, digərləri isə prosesin daha çox müxtəlif zoğlu kola bənzədiyini və heç yerə yayılmadığı qənaətində olmuşdurlar. Hətta ikinci qrup alimlər Dmanisi tapıntılarına Cənubi Qafqaz regionunda təxminən iki milyon yaşı olan ayrıca növ kimi baxırlar və eyni nəticənin Afrika kimi başqa ərazilərdən tapılan sümüklərlə bağlı olacağı ilə razılaşmırdılar.

Sadə kraniomandibulyar (kəllə – çənə) morfologiya, kiçik kəllə həcmi, orta bədən ölçüləri və postkranial xüsusiyyətlərin ibtidai mozaikliyi Dmanisi məskənini Afrikadan olan geniş qazıntı qalıqlarına bağlayır. Lakin Kəllə qübbəsinin və əsasının xüsusiyyətlərinin müxtəlifliyi onların Şərqi Asiyadan olan Homo erectusa yaxınlığını göstərir (24 – 326).

Ümumən qəbul olunmuşdur ki, Şərqi Afrikadan aşkar olunan qədim Homo erectus, Avroasiyaya yayılmazdan əvvəl orada yaranmışdır (çox güman ki, Homo hablisdən). Bu prespektivdən, Dmanisi insanları ən erkən miqrasiyanı təmsil edir və onların ibtidai xüsusiyyətləri yaşlarını və eləcə də onların yerli şəraitə uyğunlaşmasını əks edirir (25).

Bununla belə, Afrikada ən erkən Homo erectus – Koobi Foradan olan KNM – ER 3733 kəllənin geoloji yaşı 1,78 miyon, KNM – ER 2998 isə 1,87 milyon ildir (26 – 10376). Beləliklə, Dmanisidən olan tapıntılar göstərir ki, Homo erektusun Afrika daxilində və xaricdə ilk yaranma dövrü eynidir.

Bu isə göstərir ki, Cənubi Qafqazda Dmanisi insanlarından qabaq məskunlaşılmışdı. Dmanisidə ilk məskunlaşmanın dəqiq müəyyən olunmuş yaşı qeyd etməyə imkan verir ki, Avrasiya böyük ehtimal ki, Şərqi Afrika Homo erectus meydana çıxmamışdan əvvəl məskunlaşılmışdır (1 – 10432).

Digər fərziyyəyə görə, qalıqların morfoloji müqayisəsi və geoxronoloji tapıntılar Homo erectus Asiyada inkişaf etmiş və daha sonra bu növün nümayəndələri qərbi Asiyadan Afrikaya və şərqə – Yava və Çinə doğru yayılmışdır, eləcədə Afrikaya (geriyə) yayılmışdırlar (1; 6; 27; 28). Bu mülahizə zamanı düşünülür ki, Afrikadan Avrasiyaya yayılan ən erkən insan, Dmanisinin sadə xüsusiyyətləri və yaxın qədimliyinə uyğundur. Bununla belə, erkən Pliostoesendə insanların yayılması və məskunlaşması qərarını gücləndirmək üçün Afrika və Avropanın qədim çöküntülərindən əlavə nümunələrə ehtiyacı var.

Beləliklə, Yuxarıda deyilənlərdən bu qənaətə gəlmək olar ki, “Homo erectus” 2 milyon il əvvəl Afrikada yaranmış, daha sonra buradan 1,85 milyon il əvvəl Levante dəhlizindən (Afrikanı Avropaya birləşdirən nisbətən dar zolaq – dəhliz) Qafqaza gəlmiş və daha sonra Dmanisi kimi yerlərdən

keçməklə 1,7 milyon il əvvəl Asiyanın cənubuna və Uzaq Şərqə qədər – Çinə və Yavaya qədər yayılmışdılar, bu əvvəl düşünüldüyündən daha tez baş vermişdir və bu “Homo erectus”u insan təkamülündə birinci “global oyunçuya” çevirir.

Beləliklə, Dmanisi insanları bu günə qədər aşkar olunmuş Homo erektus növünün ən qədim növləri arasındadır, Afrikadan olan ən qədim insanlarının müasiridir və Avropa ərazisində məskunlaşan ən qədim Homo növü forması hesab olunur.

Liang Buadan aşkar olunan qalıqlar aşkar olunduqları adanın adına müvafiq olaraq Homo floresiensis adlandırılmışdır. Buradan olan doqquz fərdə məxsus skelet hissələri (bir skelet tam olmaqla) bərpa olunmuşdur. Onun boyunun hündürlyü 1,1 m, bədənin çəkisi 25 – 30 kq, beyninin həcmi 417 $sm^3$ olmuşdur (29).

## Ədəbiyyat


1. Ferring R., Oms O., Agust J. et all. Earliest human occupations at Dmanisi (Georgian Caucasus) dated to 1.85 – 1.78 Ma // Proceedings of the National Academy of Sciences, 2011, v.108, p. 10432–10436.
2. Bernard W. Did early Homo migrate “out of” or “in to” Africa? // Proceedings of the National Academy of Sciences, 2013. v. 108, No 26, p. 10375–10376.
3. http://www.dmanisi.ge/page?id=1&lang=en
4. Gabunia L., Vekua A., A Plio – Pleistocene hominid from Dmanisi, East Georgia, Caucasus // Nature, 1995, v.373, p. 509–512.
5. http://www.mediadesk.uzh.ch/articles/2013/schaedelfund-dmanisi_en.html
6. Lordkipanidze D., Jashashvili T., Vekua A. et all. Postcranial evidence from early Homo from Dmanisi, Georgia // Natur, 2007, v.449, p. 305–310.
7. Gabunia L., Vekua A., Lordkipanidze D. et all. Early Pleistocene Hominid Cranial Remains from Dmanisi, Republic of Georgia: Taxonomy,Geological Setting and Age // Science, 2000, v.288, p.p. 1019–1025.
8. Rightmire G. P., Lordkipanidze D. Fossil Skulls from Dmanisi: Paleodeme Representing Earliest homo in Eurasia. / Vertebrate Paleobiology and Paleoanthropology Series, Out of Africa I, The first colonisation of Eurasia, Editors: Grine F., Fleagle J.G., Baden A.L., Leakey R. E., Springer, 2010. p. 225–245.
9. Gabunia L., Vekua A., Lordkipanidze D. et all. Current research on Hominid Site Dmanisi / Early Humans at the gates of Europe, Editors: Lordkipanidze D., Bar – Yosef O., Otte M., Liege, Eraulle, 2000, v.92, p. 6–23.
10. Vekua A., Lordkipanidze D., Rightmire G. P. et all., A new skull of early Homo from Dmanisi, Georgia // Science, 2002. v.297(5578) p. 85–89.
11. Vekua A., Lordkipanidze D., Rightmire et all. The first edentulous hominin skull // Nature, 2005, v.434, p. 717–718.
12. Lordkipanidze D., Vekua A., Ferring R. et all., The earliest toothless hominin skull // Nature, 2005, v.434 (7034), p. 717–718.

13. Rightmire G. P., Lordkipanidze D., Vekua A. Anatomical descriptions, comparative studies and evolutionary significance of the hominin skulls from Dmanisi, Republic of Georgia // Journal of Human Evolution, 2006, v.50(2), p. 115-141
14. Lordkipanidze D., Vekua A., Ferring R. et all. Fourth hominin skull from Dmanisi, Georgia. / The Anatomical Record Part A: Discoveries in Molecular, Cellular, and Evolutionary Biology, 2006. 288A(11), p. 1146–1157.
15. http://www.theconversation.com/of-heads-and-headlines-can-a-skull-doom-14-human-species-19227
16. http://www.japantimes.co.jp/news/2013/10/18/world/science-health-world/1-8-million-year-old-kull-from-georgia-gives-glimpse-of-our-evolution/#.VG22CGTSm94
17. http://www.telegraph.co.uk/science/evolution/6159294/Georgian-fossils-indicate-humans-lived-in-Europe-thousands-of-years-earlier.html
18. de Lumley M.A., Lordkipanidze D., L'Homme de Dmanissi (Homo georgicus), il y a 1.810.000 ans. / In: C.R.Palevol, 2006. 5(1-2), p. 273 – 281.
19. de Lumley M. A., Gabounia L., Vekua A., Lordkipanidze D., Les restes humains du Pliocene final et du debut du Pleistocene inferieur de Dmanissi, Georgie (1991 – 2000). I – Les cranes, D 2280, D 2282, D 2700. 2006, L'Anthropologie, 110(1), p. 1 – 110.
20. http:// www.donsmaps.com/dmanisi.html
21. http://www.theconversation.com/of-heads-and-headlines-can-a-skull-doom-14-human-species-19227
22. http://www.dmanisi.ge
23. Pontzer H., Scott J., Lordkipanidze D., Ungar P. Dental microwear texture analysis and diet in the Dmanisi hominins // Journal of Human Evolution, 2011. V.61, Issue: 6, p. 683 – 687.
24. Lordkipanidze D., Ponce de Leon M., S., Margvelashvili A.. et all. Complete skull from Dmanisi, Georgia, reveals evolutionary biology of early Homo // Science Magazine, 2013, Vol 342, p. 326 – 331.
25. Anton S.C. Natural history of Homo erectus // American Jurnal of Physical Antrophology. 2003. S37, p. 126 – 70.
26. http://www.mediadesk.uzh.ch/articles/2013/schaedelfund-dmanisi_en.html
27. Lordkipanidze D., Vekua A., Rightmire G. P. Margvelashvili A.. Hominid fossils from Dmanisi and their place among the Early Hominids // Bulletin of the Georgian National academy of Sciences, 2007, v.175, p. 104 – 111.
28. Martinon – Torres M., Bermudez de Castro J.M., Gomez – Robles A.. et all Dental evidence on the hominin dispersals during the Pleistocene. Proceedings of the National Academy of Sciences, 2007, v.104(33), p. 13279 – 13282.
29. http://www.phschool.com/science/science_news/articles/evolutionary_back_story.html

# THE LOWER PALEOLITHIC SITE OF DMANISI

**Yagub Mammadov**

## Summary

**Key words: Lower Paleolithic, Southern Caucasus, Dmansi, Homo Erectus**

The Article is about the archaeological and paleoanthropological studies of the Lower Paleolithic site of Dmanisi.

The settlement is located in the territory of the Republic of Georgia, Southern Caucasus, is considered to be a settlement where the most ancient Homo Erectus samples outside Africa had been discovered. Remains discovered here showed that, beyond Africa, people had been spread about 1,8 million years ago. Dmanisi remains can also be considered to be an early proves and fact until today, which showed the spread of the human ancestors to the north of the different parts of the world and people move outside Africa.

Five skulls (three male and two female) and more than 60 different other fossils were discovered there. As a result of archaeological and paleoanthropological remains enable us to have much more information about morphological structure and the way of life of the people resided the site.

Gradual ocupation of Homo Erectus at Dmanisi settlement is considered to be an important biogeographical event and also, had been the main evolution point. Emergence and the spread of Dmanisi people inside of Homo erectus, had become the reason for important discussions.

Hypothesis about the genetic development of the Homo Erectus and the Homo Habilis had been broadened by the fossils found from the Dmanisi settlement. Meanwhile, according to their size (545 – 600 $cm^3$) and condition of the postcranial bones, skulls from Dmanisi were more characteristic to Homo Habilis. From this point of view, Dmanisi fossils discovered in 1999 – 2001, had firstly been presented as subspecies in the Homo and named due to the region where they were found: "Homo Georgicus" ("Georgia man"). Homo Georgicus had actually been presented as a generation of Africa Homo Habilis and an ancestor of Homo Erectus.

But recent anthropological investigations showed that, H. habilis, H. Rudolfensis, H. ergaster and H. erectus of the early Homo species existed as sympatric for several hundred thousand years in the lake shore of Turkana and also their cladogenetic of the emergence and distribution of the species. As a result, H. georgicus is considered to be one early subspecies of H. erectus and was called as "Homo erectus georgicu". Nowadays, investigations are being carried out on the ancestors of the H. erectus species.

So, discovery of the Homin of the Dmanisi Early Pleistocene and its investigation had brought a light on the several points of the emergence and distribution of Homon.

## НИЖНЕПАЛЕОЛИТИЧЕСКАЯ СТОЯНКА ДМАНИСИ

**Ягуб Мамедов**

### Резюме

**Ключевые слова: нижний палеолит, Южный Кавказ, Дманиси, Homo erectus**

Статья посвящается результатам изучения останков Homo erectus найденных в Дманиси, раннеплейстоценовом поселении.

Поселение Дманиси, находящееся на территории Республика Грузия, считается самым древним представителем вида Homo erectus, обнаруженном за пределами Африки и отражает распространение древных людей минимум 1,8 млн. лет тому назад, а также распространение их на север, в другие части света.

В результате проведённых в Дманиси археологических и палеоантропологических изысканий было найдено 5 черепов (3 женских, 2 мужских), а также более 60 других костей, позволяющих получить богатую информацию об образе жизни, морфологической структуре живших здесь людей.

Расселение Homo erectus на поселении Дманиси явилось не только биогеографическим событием, но и оказалось важной точкой эволюции. Предположения об анагенетическои развитии вида Homo erectus от Homo habilis еще больше усилились из-за обнаружения фоссил из поселения Дманиси. Так как черепа из Дманиси из-за своего малого объема (545 – 600 см$^3$) и по состоянию посткраниальных костей больше похож на Homo habilis нежели на Homo erectus. Исходя из этого, приобретённые в 1999-2001 гг. фоссили из Дманиси первично были представлены как отдельный подвид внутри вида Homo и названо, учитывая страну в котором обнаружено,“Homo georgicus” (“Человек Грузии”**).** Homo georgicus был представлен как род вида Afrika Homo habilis и предок вида Asiya Homo erectus.

Однако, в последние годы в результате исследований проведённых в этой сфере было определено, что ранние виды (Homo habilis, Homo rudolfensis, Homo ergaster, Homo erectus) на берегах озера Туркан несколько сотен тысяч лет назад жили симптоматично, появились и распространились кладогенетически. Это показало, что Homo georgicus не отдельный вид, а один из самых ранних подвидов Homo erectusua и было названо“Homo erectus georgicus”.

Таким образом, были прояснены многие вопросы о происхождении и распространении Homo с изучением и открытием Дманисского поселения.

# AZƏRBAYCANDA ERKƏN ƏKİNÇİLİK

**Şəlalə Bağırova**
(Azərbaycan Dillər Universiteti)
salala_@mail.ru

**Açar sözlər: ilkin istehsal, əkinçilik, neolit inqilabı, sivilizasiya, arxeoloji kompleks**.

İbtidai icma quruluşu tarixində əkinçilik və maldarlığın meydana çıxması çox mühüm bir hadisə hesab olunur. Yeni təsərrüfat iqtisadiyyatına keçid qədim insanları təbiətin asılılığından birdəfəlik olaraq çıxarmış, onlara həyat üçün zəruri olan sabit qida məhsullarının istehsalına zəmin yaratmışdı (1).

Əkinçilik qədim istehsal təsərrüfatının mühüm sahəsidir. Qeyd etmək lazımdır ki, istehsal təsərrüfatının inkişafı-insanların özlərinin qida əldə etmələri və bunun sonrakı inkişafı izafi məhsulun yaranmasına və onun böyük nəsil və ailələrin əlində cəmlənməsinə, əmlak bərabərsizliyinin meydana çıxmasına və son nəticədə isə nəsli quruluşun dağılmasına səbəb olmuşdur. Nəsli quruluş daxilindəki ictimai quruluş strukturunun mürəkkəbləşməsi və bununla əlaqədar əvvəlki ibtidai münasibətlərin dağılması qanunauyğun şəkildə yeni bir ictimai-siyasi institutun-dövlətin yaranmasına gətirib çıxarmış və erkən sivilizasiyaları yaratmışdı. Məhz buna görə də elmi ədəbiyyatda ilkin istehsal təsərrüfatının kəşfi ingilis alimi Qordon Çayld tərəfindən “Neolit inqilabı” kimi adlandırılmışdır (2). “Neolit inqilabı” Avropadakı XVIII-XIX əsrlərin sənaye inqilabları kimi iqtisadiyyatda keyfiyyət dəyişiklikləri ilə səciyyələnmiş, bəşəriyyətin gələcək inkişaf yolunu müəyyənləşdirmişdi.

Arxeoloji qazıntılar zamanı əldə edilən tapıntıların müəyyən hissəsi istehsal təsərrüfatına keçid dövründə intellektual və bədii yaradıcılıq sahələrində böyük nailiyyətlərin qazanıldığını əks etdirir. Tətbiqi sənət sahəsindəki uğurlar öz əksini bariz şəkildə sümük və daşdan yonulmuş, gildən düzəldilmiş kiçik ölçülü heykəllərdə, gil qabların bəzəklərində, qayaüstü rəsmlərdə və digər maddi-mədəniyyət nümunələrində tapmışdır. Bəzək və təsvirlərin çoxunda kosmoqonik təsəvvürlərlə bağlı mifoloji süjetlərin əks olunması yeni iqtisadiyyatın təşəkkülü dövründə daha zəngin və rəngarəng mənəvi dəyərlərin meydana çıxmasından və geniş yayılmasından xəbər verir. Onu da qeyd etmək lazımdır ki, erkən əkinçi-maldar cəmiyyətlərində istehsal təsərrüfatının daim artmaqda olan tələbatı insan fəaliyyətinin əhatə dairəsini genişləndirməklə yanaşı, onun yeni istiqamətlərini müəyyən etmiş, mədəni mərkəzlər arasındakı əlaqələrin genişlənməsinə və möhkəmlənməsinə, əhalinin artmasına zəmin yaratmışdı. Yeni əkin sahələrinin mənimsənilməsi məqsədilə əkinçi tayfaların hətta əsas mərkəzlərdən uzaq ərazilərə axını başlamışdı.

Artıq sübut edilmişdir ki, əkinçiliyin və maldarlığın inkişafı nəticəsində Yer kürəsinin əhalisi 16 dəfə artmış, 80 milyon nəfəri keçmişdi (3). Ön Asiyanın əlverişli torpaq iqlim şəraitinə, zəruri iqtisadi, ictimai və mədəni inkişafa malik regionlarında, Cənubi Qafqazda və digər yerlərdə, o cümlədən, tarixi Azərbaycan ərazisində çoxlu sayda yaşayış yerləri salınmış, daha yüksək həyat tərzi başlamışdı (4).

Məlumdur ki, XX əsrin görkəmli alimi N.İ.Vavilov tərəfindən müxtəlif yabanı dənli bitkilərə və əhliləşdirilməsi mümkün olan zəngin heyvanat aləminə malik olan Yaxın Şərq ölkələri, Cənubi Qafqaz və tarixi Azərbaycan əraziləri ən qədim istehsal, o cümlədən, əkinçilik mərkəzləri sırasına daxil edilmişdi. N.İ.Vavilov 20 il müddət ərzində Ön Asiyada, İranda, Əfqanıstanda, Koreyada, Yaponiyada, Qərbi və Cənubi Amerikada və digər ölkələrdə tədqiqat işləri apararaq mədəni bitkilərin mənşəyi və coğrafiyası haqqında xüsusi təlim yaratmış, ilkin əkinçilik mədəniyyətlərinin 7 mühüm mərkəzini, o cümlədən, Qafqazın və Azərbaycanın da daxil olduğu cənub-qərbi müstəqil mərkəzini müəyyən etmişdi. Görkəmli alim Qafqaz, həmçinin Azərbaycan ərazisini burada geniş yayılmış yabanı buğda və çovdar bitkilərinin rəngarəng və orjinal növlərinə görə dünyanın mühüm mərkəzlərindən biri kimi qiymətləndirilmişdir (5).

Mühüm cəhətlərdən biri də ondan ibarətdir ki, sovetlər məkanının görkəmli seleksiyaçı alimi İ.D.Mustafayev XX əsrin 50-60-cı illərində Azərbaycanın ayrı-ayrı bölgələrində bir sıra mədəni dənli bitkilərin indiyədək qalmaqda olan yabanı formalarını üzə çıxarmış, onların tarixi köklərini müəyyən etmişdi (6).

İkinci Dünya müharibəsindən sonra tarixi Azərbaycan torpaqlarında üzə çıxarılan və öyrənilən ən qədim istehsal kompleksləri bu ərazinin Ön Asiyanın mədəni-təsərrüfat sistemində xüsusi yer tutduğunu göstərmişdir. Urmiya gölü hövzəsində Göytəpə və Naxçıvan şəhəri yaxınlığındakı Kültəpə çoxtəbəqəli abidələrində aparılan tədqiqatlar zamanı aşkara çıxarılan tikinti qalıqlarında tapılmış ibtidai əkinçilik alətlərində və zəngin dulusçuluq nümunələrində Ön Asiya ənənələrilə sıx bağlı olan oxşar xüsusiyyətlər qeydə alınmışdır. Sonrakı tədqiqatlar zamanı üzə çıxarılan yeni abidələr ən qədim istehsal formalarına aid komplekslərin coğrafiyasını daha da genişləndirmiş, problemlə bağlı arxeoloji materialların bazasını daha da zənginləşdirmiş, yeni tədqiqat və araşdırmalar zərurəti doğurmuşdur (7).

Arxeoloji qazıntılar zamanı məlum olmuşdur ki, qədim dövrlərdən Yaxın Şərqlə iqtisadi-mədəni təmasda olan tarixi Azərbaycan torpaqları da ilkin istehsal sahələrinin və erkən əkinçilik mədəniyyətlərinin meydana çıxması ilə bağlı o zamankı bəşəri proseslərdən kənarda qalmamışdı. Ötən əsrin 40-70-ci illər arasındakı zaman kəsiyində istər Quzey, istərsə də Güney Azərbaycanda aparılan arxeoloji axtarışlar və qazıntılar, əldə edilən yüksək

elmi dəyərli maddi-mədəniyyət nümunələri əlverişli torpaq iqlim şəraitinə malik olan ümumi Azərbaycan ərazisinin də müstəqil əkinçilik ocaqlarından biri olduğunu və Yaxın Şərqin qədim əkinçilik mədəniyyətləri sistemində mühüm yer tutduğunu göstərmişdir.

Urmiya gölü ətrafındakı Göytəpə, Yanıqtəpə, Hacı Firuz, Dəlmətəpə, Pidəlitəpə, Naxçıvan ərazisindəki Kültəpə, Ovçulartəpə, Damlama, Gəncə-Qazax bölgəsindəki Şomutəpə, Baba-Dərviş, Töyrətəpə, Qarfalartəpə, Göytəpə, Böyük Kəsik, Poylu, Mil-Qarabağ və Muğan düzlərindəki İlanlıtəpə, Leylatəpə, Qaraköpəktəpə, Günəştəpə, Xantəpə, Əliköməktəpə kimi onlarla qədim məişət-təsərrüfat və dəfn kompleksləri bilavasitə bu qəbildən olmaqla, ilkin istehsal təsərrüfatı haqqında təsəvvürləri əsaslı şəkildə genişləndirmişdi (8). Əhəmiyyətlidir ki, Naxçıvan ərazisindəki qalın təbəqəli Kültəpə qədim yaşayış yeri təkcə Azərbaycan üçün yox, bütün Qafqaz üçün etalon abidə olmuş, erkən əkinçilik dövrünü qədim yerli cəmiyyətlərin iqtisadi, ictimai və mədəni həyatında mühüm dəyişikliklərlə seçilən xüsusi bir tarixi mərhələ kimi qiymətləndirməyə imkan vermişdi. Bundan başqa, bu arxeoloji komplekslərin üzə çıxarılması qədim istehsal təsərrüfatının təkcə yaranma tarixini yox, həm də onun ardıcıl inkişaf mərhələlərini, səciyyəvi xüsusiyyətlərini və lokal qruplarını öyrənməyə əsas vermiş, mövcud təsəvvürləri xeyli dəyişmişdir.

Oturaq həyata keçid və ixtisaslaşdırılmış istehsalın təşəkkülü və geniş yayılması ilə əhalinin məişət şəraiti və rifahı xeyli yaxşılaşmışdı. Əkinçilik və maldarlığı iqtisadiyyatın əsas sahəsinə çevirən yerli tayfalar müxtəlif növ dənli bitkilər istehsal etmiş, xırda və iribuynuzlu ev heyvanları saxlamışlar. Qədim yaşayış yerlərindən tapılan bitki qalıqları əsasında müəyyən edilmişdir ki, öz yüksək məhsuldarlığı ilə seçilən yumşaq və bərk buğda, çoxcərgəli arpa və digər növlər erkən əkinçi tayfalar tərəfindən ən çox becərilən dənli bitkilər olmuşdu. Ümumilikdə, taxıl istehsalı əkinçiliyin əsas sahəsini təşkil etmişdi. İlk vaxtlar o qədər də geniş olmayan əkin sahələri daş, sümük və buynuzdan hazırlanmış ibtidai toxalar vasitəsilə işlənmişdi. Arxeoloji qazıntılar zamanı belə bəsit şum alətlərinə qədim yaşayış yerlərinin çoxunda təsadüf olunmuşdur (9).

Qədim yaşayış yerlərindən tapılan əmək alətlərinin böyük hissəsi taxılçılıqla bağlı olmaqla bu qədim təsərrüfat məşğuliyyətinin bütün ardıcıl pillələrini əks etdirir. Onların içərisində toxalarla yanaşı, ibtidai biçin alətləri-dişləri çaxmaq və dəvəgözü daşından, əsası sümük və ağacdan olan quraşdırma oraqlar, taxıl məhsulları emalı üçün dən daşları, sürtkəclər, daş həvənglər və digər nümunələr vardır. Bilavasitə daş, sümük və buynuzdan hazırlanmış bütün bu nümunələr ən qədim əkinçilik alətləri hesab oluna bilərlər (10).

İbtidai rifah qədim yaşayış yerlərindən tapılan dulus məmulatında da əks olunmuşdur. Saman və ya qum qatışıqlı gildən əldə hazırlanmış hər bir dulus məmulatı ilk növbədə öz yeknəsəq bəsit forması və bəzəyi, keyfiyyətsiz bişirilmə üzündən kövrəkliyi və digər xüsusiyyətlərilə seçilir. Ayrı-ayrı qabların üzərində təsadüf olunan bəzəklər qabarıq çıxıntı və düyməcikdən ibarətdir. Bununla belə, bəzi abidələrdə üzəri qırmızı və ya qəhvəyi rənglə naxışlanmış qablara da təsadüf olunmuşdur. Güman edilir ki, bunlar vaxtilə Ön Asiyada istehsal olunmuş və qarşılıqlı iqtisadi-mədəni əlaqələr nəticəsində Azərbaycan ərazisinə gətirilmişdir (10).

Ayrı-ayrı abidələrdən əldə edilən müəyyən tapıntılar – sümük daş və gildən düzəldilmiş kiçik ölçülü qadın heykəlləri, ev heyvanlarının fiqurları yerli tayfaların əkinçilik və maldarlıqla bağlı dini dünyagörüşlərini əks etdirməklə, ilkin əkinçilik mədəniyyətlərinin zəngin mənəvi dəyərlərindən də xəbər verir (11).

Hər bir yaşayış yeri üçün “çiy kərpic memarlığı” səciyyəvi olmuş, məişət və təsərrüfat binaları, əsasən, möhrədən və gün altında qurudulmuş saman qarışıqlı gil kərpiclərdən tikilmişdi. Planda dairəvi və ya düzbucaq şəklində olan yaşayış evlərinin, eləcə də başqa tikililərin divarları və döşəmələri, bir qayda olaraq, gil palçıqla suvanmış, müəyyən hallarda ağardılmış, bəzən isə qırmızı boya ilə rənglənmişdi. Tək-tək hallarda həndəsi naxış divar rəsmlərinə də təsadüf olunmuşdur. Nəzərə çatdırmaq lazımdır ki, Yaxın Şərq abidələrində geniş yayılmış dairəvi formalı qədim tikililər Azərbaycanla yanaşı, bütün Cənubi Qafqaz üçün də aparıcı inşaat ənənəsi olmuş və geniş yayılmışdı. Qədim yaşayış komplekslərinin əksəriyyətində qalın mədəni təbəqənin və bir neçə tikinti layının olması uzun müddətli oturaq həyat tərzini əks etdirməklə yanaşı, vahid tikinti ənənələrinin mövcudluğunu və geniş yayıldığını göstərmişdir. Bununla belə, ayrı-ayrı bölgələrin qədim yaşayış komplekslərində bir sıra fərdi xüsusiyyətlər də izlənilmişdir. Belə xüsusiyyətlər öz təzahürünü daha çox məişət-təsərrüfat tikililərinin formasında, inşaat üslubunda, istifadə olunan materialda və s. tapmışdır.

Məlumdur ki, Azərbaycanda, eləcə də Cənubi Qafqazın digər bölgələrində üzə çıxarılan erkən əkinçilik kompleksləri son vaxtlaradək ənənəvi şəkildə eneolit dövrünə, xronoloji cəhətdən isə eramızdan əvvəlki V-IV minilliklərə aid edilmişdir. Belə bir müddəa həmin komplekslərin bir qismindən müəmmalı görünən “mis əşyaların” tapılması fikrinə əsaslanmışdı. Lakin yaddan çıxarmaq lazım deyil ki, tədqiq olunan arxeoloji komplekslərin bir qismində arxaik xüsusiyyətlər izlənildiyi halda, digər qismində nisbətən tərəqqi və inkişaf əlamətləri nəzərə çarpır. Azərbaycan ərazisinin özündə belə xüsusiyyət daha qabarıq şəkildə izlənilmişdir. Belə ki, şimal bölgələrindəki komplekslərdə arxaik əlamətlər bir sıra sahələrdə özünü büruzə verdiyi halda, cənub bölgələrdəki abidələrdə erkən əkinçilik istehsal forması daha yet-

kin şəkildə və onun Ön Asiyanın qədim əkinçilik sistemləri ilə qarşılıqlı əlaqədə inkişaf etməsi əks olunmuşdur (12).

**Ədəbiyyat**

1. Azərbaycan tarixi (yeddi cilddə), I c., Bakı, 2007, s. 86-90.
2. Древние цивилизации. Москва, 1989, с 3-25
3. Мелларт Дж. Древнейшие цивилизации Ближнего Востока. Москва, 1982, с. 4-5.
4. Дадашев А. Н. Земледельческое производство эпохи палеометалла на территории Азербайджана. Баку, 1981, с. 14-35.
5. Вавилов Н. И. Пять континентов, Москва. 1985, с. 21-23.
6. Mustafayev İ. Azərbaycanda buğda bitkisinin seleksiyası. Bakı, 1958, s. 5-10.
7. Həbibullayev O. H. Kültəpədə arxeoloji qazıntılar. Вакı, 1959, s. 3-8.
8. Azərbaycanın erkən əkinçilik mədəniyyətləri dövrü abidələri (Məqalələr toplusu). Bakı, Elm nəşriyyatı, 2012; s. 8-16; Ахундов Т.И. У истоков Кавказской цивилизации. Неолит Азербайджана. Баку, изд. Элм, 2013.
9. İsmayılzadə Q. S. Qururçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Вакы, 1981, s. 16-20.
10. Bünyatov T. Ə. Azərbaycanda əkinçiliyin inkşaf tarixina dair. Bakı, 1964, s. 36-42.
11. Исмаилзаде Г.С. Археологическое исследование древнего поселения Баба-Дервиш, Баку, 1978, с. 56-63.

## EARLY AGRICULTURE IN AZERBAIJAN

**Shalala Baghirova**

### Summary

**Key words: early production, agriculture, neolithic revolution, civilazation, archeaological complex**

The article is dedicated to agriculture of ancient periods in Azerbaijan. During archaeological excavations in the 2nd half of XX century in the territory of Azerbaijan, several series of complexes were revealed which covers economy as well as agriculture. It should be noted that, high agricultural system such as Shoumutepe, Kultepe and Leylatepe had been formed in the territory of Azerbaijan in the VI-V centuries B.C. which is consisted a part of South-West Asia culture system.

# ДРЕВНЕЙШЕЕ ЗЕМЛЕДЕЛИЕ В АЗЕРБАЙДЖАНЕ

**Шалала Багирова**

## Резюме

**Ключевые слова: производящее хозяйство, земледелие, неолитическая революция, цивилизация, археологический комплекс.**

Данная статья посвящена древнейшему периоду земледельческой экономики Азербайджана. Археологическими раскопками второй половины XX века на территории Азербайджана была выявлена целая серия памятников отражающая процесс становления и развития производящего хозяйства, в частности, земледелия. Установлено, что в VI-V тыс. до. н, э, на территории Азербайджана формировались такие высокие земледельческие культуры как Шомутепинская, Кюльтепинская и Лейлатепинская культуры, составляющие неотъемлемую часть Переднеазиатской культурной системы.

# DAŞSALAHLI KURQANLARI

**Cəfərqulu Rüstəmov Firuzə Muradova,**
(AMEAArxeologiya və Etnoqrafiya İnstitutu)
firuzemuradova@mail.ru

**Açar sözlər: Qazax, Daşsalahlı, kurqan, keramika, mədəniyyət.**

Azərbaycan Elmlər Akademiyasının Qazax arxeoloji ekspedisiyası tərəfindən 1961-ci ildə Avey dağının şimal-şərq ətəyində, «Bərkün ağzı» adlanan yerdə, Daşsalahlı kəndi ilə Əlibayramlı kəndləri arasında tunc dövrünə aid yaşayış yeri və kurqanlar qeydə alınmış, göstərilən yaşayış yerində yoxlama qazıntısı aparılmış və bir kurqan öyrənilmişdir (4).

Uzun fasilədən sonra - 1989-1990-cı illərdə bərpa edilən Qazax arxeoloji ekspedisiyası Daşsalahlı kəndinin qərb qurtaracağında yeni yaşayış yeri, qəbiristanlıq və kurqanlar qeydə almış, 4 ədəd kurqan tədqiq edilmişdir. Bu kurqanlar yuxarıda qeyd etdiyimiz abidələr kompleksindən xeyli aralıda Daşsalahlı – Əlibayramlı kəndləri arasındakı torpaq yolun şərqində, üzümlük sahəsinin içərisində yerləşirdilər.

Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə burada "Daşlı çökək" və "Yovşanlı təpə" adlanan yaşayış yerləri və kurqanlar olmuş, lakin üzümlük salındığı zaman təpələr və kurqanların üst örtüyü dağıdılmışdır. Deyilənləri üzümlüyün ərazisində tez-tez təsadüf olunan istifadə edilmiş irili-xırdalı daş qalıqlarının, qara, boz, cilalı və cilasız qabların çox xırda qırıqlarına, daşdan əmək alətlərinə - dən daşı qırığına, sürtgəc, həvəng və dəstək, ən çox dəvəgözü qəlpələrinə (1tab., şək. 12) və s. təsaduf olunması təsdiq edirdi.

Örtüyü dağılmış kurqanlar elm aləmi üçün itirilmiş olsa da, burada geniş yerüstü sahəyə malik bəzi kurqan örtüklərinin mərkəz hissəsindəki iri daşlar qalmaqda idi. Həmin illərdə Avey dağının şərqindəki torpaqların kəndlilərə əkin yeri üçün paylanması onların dağılmasını sürətləndirəcəkdi və qalan abidələrin də tamam məhv edilməsi təhlükəsi vardı. Bunları nəzərə alaraq 1988-1989-cu illərdə Qazax ekspedisiyası 4 kurqan tədqiq etmişdi. Bunlardan ikisi Daşlıçökək, digər ikisi isə Yovşanlı təpə ərazisində yerləşmişdilər.

**Daşlı çökək kurqanları. 1 saylı kurqan.** Diametri 8-10 m, hündürlüyü isə 0,6-0,7 m olan kurqan örtüyünün mərkəz hissəsində daşlar iri və sıx, ətraflarda isə seyrək olmuşdur. Vaxtilə, su arxı çəkilərkən onun şərq tərəfi 1-1,5 m-ə qədər kəsilmişdir. Örtük qalığı təmizlənəndən sonra təxminən kurqanın mərkəz hissəsində 0,75 m dərinlikdə 1,6x1 m ölçüdə düzbucaqlı qəbrin konturları izləndi. Daşla dolu qəbir çalasının dərinliyi 1,5 m idi. Burada bir nəfər bükülü vəziyyətdə, sağ böyrü üstə, əlləri üzünün qarşısında, başı şimal-qərb, istiqamətində dəfn edilmişdi. Daşların çökməsi nəticəsində

skeletin sümükləri güclü dağıntıya məruz qalmışdır. Qəbrin qərb küncündə, ölünün üzünün qarşısında 8 ədəd gil qab, bel hissəsinin yanında tunc xəncər, ayağının altında isə qoyun sümükləri aşkar edilmişdir.

**Keramika.**1. Açıq qırmızı rəngdə, uzunsov qabarıq gövdəyə malik, boğazsız, ağzı nisbətən içəri yığılmış, kənarı zəif yana əyilən, düz oturacaqlı küpə. Qabın çiyin hissəsi xeyli qabarıqdır. Ölçüləri: h-11,5; $d_a$-9; $d_{ot}$-6 sm-dir (I tab., şək. 7).

2. Qırmızı-sarımtıl rəngdə,düz oturacaqlı geniş ağızlı, qabarıq gövdəli, yastı gen oturacağa malik küpə. Görkəmcə kobuddur. Ölçüləri: h-10, $d_a$-9,5; $d_{ot}$-8,5 sm-dir (II tab., şək. 2).

3. Qırmızımtıl rəngdə, qabarıq gövdəli, geniş ağzı yana açılan, ağzının üstü üfüqi vəziyyətdə kəsilmiş, gen, yastı oturacağa malik küpə. Keyfiyyətli gildən hazırlanmış, lazımınca bişirilmiş, üstü cilalanmışdır. Boğazının hər iki yanında dairəvi (1 sm) batıq mövcuddur. Gövdədə zəif qırmızı rəng izlənir (II tab., şək.6).

4. Boz rəngdə, qabarıq gövdəli, qısa boğazlı, ağzının kənarı yana açılan, yastı oturacaqlı küpə. İri qum qarışıqlı gildən hazırlanıb, yaxşı bişirilib, üstü zəif cilalıdır (II tab., şək. 5).

5. Boz rəngdə, qabarıq gövdəli, qısa boğazlı, ağzı yana açılan, yastı geniş oturacaqlı küpə. Üzəri yaxşı hamarlanmışdır. Çiynini 3 kəsmə xətt əhatə edir. Üstdəki 2 xəttin arası çəpinə cızma xətlərlə doldurulmuşdur. Cızma xətlərin əmələ gətirdiyi sınıq xətlə, sonuncu, üçüncü kəsmə xətdən altda gövdəni cızma xətlərdən ibarət, başı aşağı çəkilmiş üçbucaqlar əhatə edir. Ölçüləri: h-17,5, $d_a$-11,5; $d_{ot}$-8 sm (II tab., şək. 4).

6. Boz rəngdə qabarıq gövdəli, yastı oturacaqlı, qısa boğazlı, ağzı azca yana açılan küpə. Onun çiynini içinə sünbülvari zərif kəsmə naxış çəkilmiş kəmər, kəmərin altını içinə kəsmə xətlər çəkilmiş sınıq xətlər bəzəyir.(II tab., şək.3)

7. Boz rəngdə, qabarıq gövdəli, ağzının kənarı azca yana açılan yastı, oturacaqlı təkqulp qab. Keyfiyyətli gildən hazırlanıb, yaxşı bişirilib, üstü cilalıdır. Çiyində gövdəyə birləşən qulp (təhrif olunmuş Kür-Araz qulpu), onun hər iki yanında dairəvi qabarıq yapma qulpun üstündə şaquli kəsik xətt vardır. Qulpun əks tərəfində, gövdənin üst hissəsində dalğavari bəzək yerləşir. Ölçüləri: h-9; $d_a$-9; $d_{ot}$-7,5 sm (II tab., şək.9).

Sarımtıl rəngdə, güldan formalı, yastı oturacaqlı, gövdəsi yuxarı qalxdıqca genişlənən, düz ağızlı qab. Ağzının altını tor kəmər, onun altına isə içinə kəsmə xətlər çəkilmiş zolaq vardır. Narın qum qarışıqlı gildən hazırlanıb, yaxşı bişirilmişdir. Üstü cilalıdır ( II tab., şək 1).

Tunc xəncər. Uzunsov üçbucaq formalı tiyəyə, düzbucaq formalı kiçik çıxıntılı saplağa malikdir. Hər iki üzü boyunca 3 ədəd nazik qabarıq zolaq

yerləşir. Saplaqda tiyəni dəstəyə birləşdirmək üçün alt-alta 2 deşik vardır. Tiyənin uzunluğu-24 sm, saplağın ölçüləri 5x5 sm-dir (II tab. şək. 15).

**2 saylı kurqan**. Üst və şərq tərəfi dağılmış kurqanın salamat qalmış diametri 12-14 m, hündürlüyü 1 m-ə yaxındır. I saylı kurqandan 30-40 m şərqdə yerləşir. Örtüyün qalmış hissəsi irili-xırdalı daşlardan ibarətdir. Daşların altında 4x2,2 m ölçülü, içi qalın oxra qatı ilə örtülmüş xəndək - qəbir kamerası açıldı.

Kameranın mərkəzində ətrafına xırda daşlar düzülmüş 1x2 m ölçülü çökəkdə insan skeleti aşkar edilmişdir. Bükülü vəziyyətdə, sol böyrü üstə, başı qərbə tərəf dəfn edilmişdi. Üzünə tərəf qaldırılmış sağ əlinin yanında qara cilalı, çox zərif tək qulp qab, çiyin hissəsinə qaldırılmış sol əlinin yanında mərmərdən əsa başlığı var idi. Kəllə sümüyü qəbrə tökülmüş daşların ağırlığından dağılmışdı. Kameranın cənub divarından içəriyə doğru uzanmış bir daşın üstündə bir-birindən təxminən 20-30 sm aralı yerləşmiş 2 qaramal kəlləsi qoyulmuşdu.

Skeletin qərb tərəfində başının arxasında dəvəgözü daşından 10 ədəd gəzli və 1 ədəd tunc ox ucluğu aşkar edildi ( II tab., şək. 10,11). Ucluqların toplam şəkildə tapılması onların vaxtı ilə müəyyən bir əşyanın içində olduğunu göstərir. Bunlarla yanaşı nazik tunc təbəqəsindən hazırlanmış yarpaq formalı yastı tiyəli, kiçik çıxıntıvari saplaqlı mızraq, qəbrin şimal-qərb küncündə, bir ədəd, şərq hissədə isə 3 ədəd nisbətən iri ölçülü küpə qoyulmuşdur. Digər 2 ədəd qab kameraya tökülmüş daşların altından və arasından tapılmışdır.

**Keramika.** 1. Üstü qara cilalı, içi sarımtıl rəngdə, qısa silindrvarı boğaza malik, ağız kənarı düz, təkqulp küpə. Gövdəsi çiyin hissədə qabarıqdır, düz oturacaqlıdır. Qulpu səviyyəsində çiynində düyməvari qabarıq bəzəklər vardır. Ölçüləri h-20; h-3, $d_b$-14,5; $d_o$-10 sm-dir (III tab., şək. 4).

2. Qara cilalı, şar gövdəli, düz oturacaqla tamamlanan küpə. Kür-Araz mədəniyyəti qulpuna bənzər qulpu vardır. Astarı sarımtıldır. Qabın çiynini içi paralel xətlərdən ibarət əhatə edir.ona aşğıdan bitişik yarpağa oxşar cızma bəzəyi vardır. Ölçüləri h-24; boğazın h-4,5, da-14,5; dot-10 sm-dir (III tab., şək. 1).

3. Qara cilalı, kiçik düz oturacaqlı, bilavasitə gövdənin davamı olub, azca yana açılan düz ağız kənarına malik küpə. Gövdənin qabarıq hissəsində ilgəkvarı kəsikdə dairəvi kiçik qulpu vardır. Boğazının altını çox zərif kəsmə xətlər əhatə edir. Ölçüləri: h-23; hb3; da-12; dot-10 sm-dir (III tab., şək. 6). Onun altını içinə şaquli kəsmə xətlər çəkilmiş kəmər bəzəyir.

4. Qara cilalı, kiçik düz oturacaqlı, qabarıq gövdəli, silindrvarı boğaza malik qulplu küpə. Ağız kənarı azca genəlir, çiynində qulpun gövdəyə birləşən hissələri ortaya nisbətən enlidir. Bu naxışların arasında batıq şaquli zolaqlar çəkilmişdir. Boğazın altını içinə cızma xətlər çəkilmiş başı yuxarıya

tərəf çevrilmiş üçbucaqlar bəzəyir. Ölçüləri: h-13,5; hb-2; da-9; dot-6 sm-dir (III tab., şək. 3).

5. Narın qum qarışıqlı gildən hazırlanmış, keyfiyyətli bişirilmiş, çox yaraşıqlı zərif qara cilalı qab. Astarı sarımtıl rəngdədir. O, qıf formalı ağız, qabarıq gövdə, kiçik düz oturacağa malikdir. Gövdəsinin divarı çox nazikdir (0,2-0,3 sm). Gövdənin qabarıq hissəsinin üstü zərif, batıq xətlər çəkilmişdir. Qabın çiynində dairəvi qulp yerləşir. Ölçüsü: h-12; hb-2; da-8,5; dot-6 sm-dir (III tab., şək. 2).

6. Qabarıq gövdəli, kiçik düz oturacaqlı, qısa silindrvarı boğaza malik qara cilalı qab. Gövdənin ortasını bir-birindən müəyyən məsafədə yerləşən zərif, şaquli, batıq topa xətlər əhatə edir. Çiynində kəsikdə dairəvi halqavari qulp yerləşir. Ölçüləri: h-9; hb-2; db-8,5; dot-6 sm-dir (III tab., şək. 5).

**Daş ox ucluqları.** Bozumtul rəngdə dəvəgözündən düzəldilmiş 10 ədəd gəzli ox ucluqları. Hər iki üzdə xırda qəlpələrdən qopardılması ilə işlənilmişlər (II tab., şək. 10).

**Əsa başlığı.** İçərisində ağ ləkələr olan bozumtul rəngdə mərmər cinsli daşdan düzəldilmişdir. Forması armudvariyə yaxındır. Ortasında şaquli deşik açılmışdır. Ölçüləri: h - 5,5; d - 6,5 sm-dir (II tab., ş. 13)

Mızraq. Nazik tunc təbəqəsindən yarpaq formasında düzəldilmişdir. Kiçik çıxıntıvari saplağa malikdir. H - 9,5 sm-dir (II tab.,ş.14).

**Tunc ox ucluqu** - dörd tilli piramida formasında olub nazik, çıxıntıvari saplağa malikdir. H-5,5 sm-dir (I tab., ş.11).

**Yovşanlı təpə kurqanları.** Daşlı çökək kurqanlarından təxminən 150-200 m şərqdə, uzunluğu 100-150 m, hündürlüyü 70-80 sm-dən hündür olmayan "Yovşanlı təpənin" üstündə yerləşmişlər. Təpənin şərq-qərb uzunu boyu 6 kurqan qeydə alınmışdır. Kurqanların cənub tərəfindən enli və dərin yarğan keçir. Burada iki kurqan tədqiq edilmişdir.

**1 saylı kurqan.** Təpənin şərq hissəsində yerləşən, diametri 6 m və hündürlüyü 0,6 m olan daş örtüklü kurqanın çökəyə düşmüş cənub-şərq hissəsinin daşları sürüşərək yerlərini dəyişdirmiş və dağılmışdır. Kurqan örtüyündən şimal-qərbdə, dərinliyi 1,1 m olan qəbir kamerası aşkar edilmişdir. Bu hissədə bir dənə də olsun daş parçasına rast gəlinməmişdir. Mərhum başı şimal-şərq istiqamətində olmaqla sağ böyrü üstdə, bükülü vəziyyətdə dəfn olunmuşdur. Üzünün qarşısında 1 cərgədə 4 ədəd qab qoyulmuşdu. Pis saxlanmış skeletin cənub tərəfində, xəncər tiyəsi var idi. Qəbrin üst hissəsi, qablar səviyyəsinə qədər aşılanaraq dağılmışdı.

**Keramika.** 1. Üzəri boz iç tərəfi sarımtıl rəngli nisbətən böyük qab. Çiyninə çox xırda çərtmə xətlərin əmələ gətirdiyi sünbülvarı naxışlı kəmər, onun altını isə cızma xətlərin əmələ gətirdiyi başı gövdənin altına çevrilmiş, üçbucaqlar bəzəyir. Boğazın altında, çiyinin hər iki yanında düzbucaq for-

malı, çıxıntıvari qulaqcıq düzəldilmişdir. Hazırda onlardan birinin yeri, digərinin isə yarısı saxlanmışdır (I tab., şək. 12).

2. Üzəri boz, iç tərəfi sarımtıl rəngli geniş ağızlı. Qabın gövdədən aşağı hissəsi ovulub töküldüyündən onu yerdən qaldırmaq mümkün olmamışdır. Onun çiynini iri çərtmə naxışlı kəmər bəzəyir. Bu kəmər 4 yerdə qoşa qabarıq düyməcik vasitəsilə bərabər hissələrə ayrılır. Onun altını çərtmə sınıq xətt, sonuncunun altını isə başı gövdənin altına tərəf çevrilmiş çərtmə xətlərin əmələ gətirdiyi üçbucaqlar bəzəyir (I tab., şək. 1).

3. Üzəri qara cilalı, daxili iri çəhrayı rəngli küpə. Çiynini bir-birindən müəyyən məsafədə yerləşən 4 konusvari qabarıq düyməcik çıxıntı bəzəyir. Bu çıxıntılar vasitəsilə qabın çiyni dörd bərabər hissəyə bölünmüşdür (I tab ıı şək. 13).

4. Üzəri qara cilalı, daxili çəhrayı rəngli küpə. Hər iki çiynində yapma aypara bəzəyi vardır (I tab., şək. 14).

**Tunc xəncər.** Uzunsov üçbucaq formalıdır. Hər iki üzünün ortası boyunca qabarıq, zolaq keçir. O, tiyəni dəstəyə bərkitmək üçün kiçik düzbucaq formalı dəstəyə malikdir. Dəstəkdə alt-alta iki deşik açılmışdır (I tab. şək.11).

**2 saylı kurqan.** 1 N-li kurqandan təxminən 35-40 m şimal-qərbdə yerləşirdi. Diametri 4,5 m-dir. Daş örtüklü idi. Şərq və mərkəz hissədə daş yığımı daha sıx olmuşdur. Örtük daşlarının altında dairəvi daş düzümündən ibarət kromlexin olduğu müəyyənləşdirlimişdir. Mərkəzdən 0,9 m qərbdə, şimal-şərq və cənub-qərb istiqamətdə, ölçüləri 1,2x0,85 m olan daş qutu qəbrin qalıqları aşkar olunmuşdur. Qutunun örtük daşı yox idi. Şimal və qərb tərəfi sal daş, şərq və cənub tərəfi isə xırda daşlardan qurulmuşdu. İçində 0,85 sm dərinlikdə bir ədəd yastı daş aşkar edilmişdir. Qutudan təxminən 1 m aralıda ölçüsü 0,95x0,45x0,3 olan örtük daşlarından biri aşkar edilmişdir. Qəbirdən heç nə tapılmadı. Qutunun alt səviyyəsində, torpaqdan digər tədqiq etdiyimiz kurqanların saxsı məmulatına bənzər xırda saxsı qırıqlar aşkar edildi.

Gördüyümüz kimi tədqiq edilmiş kurqanlardan əldə edilmiş maddi-mədəniyyət nümunələrinin əsasını gil qablar təşkil edir ki, bunlar da kurqanların dövrünü təyin etmək üçün əsas mənbədir.

Yuxarıda təsviri verilmiş qabların Kür-Araz mədəniyyətinin son mərhələsinə aid gil qab nümunələri ilə, bəzək növləri ilə orta tunc dövrünün ilk mərhələsinə aid gil qablarla yaxın oxşarlıqların olduğu aydın görünür. Ümumiyyətlə məlumdur ki, erkən tunc dövrü ilə müqayisədə, orta tunc dövrünün ilk mərhələsində qabların formasında əhəmiyyətli dəyişiklik baş verir. Tədricən əvvəlki dövr qabları üçün səciyyəvi olan hündür slindirvari boğaz, yarımşar formalı qulplar və dar oturacaq dəyişikliyə uğrayır. Cilalı qablar itir.

Orta tunc dövrünün nisbətən gec mərhələsində sarı, boz, qırmızımtıl rəngdə müxtəlif quruluşlu qab nümunələri meydana çıxır. Lakin qulpa tək-tək təsadüf olunur. Silindr boğaz alçalır və genəlir, bəzən zəif yana açılan ağız kənarı ilə əvəz olunur.

Yuxarıda təsnifatı verilən Daşlı çökək və Yovşanlı təpə kurqanlarının saxsı məmulatında ilk tunc dövrünün III mərhələsinə aid qablarda təsadüf olunan naxış növlərinin demək olar ki, hamısına rast gəlirik. Onların arasında kəsmə xətlərlə vurulmuş naxış aparıcı yer tutur. Bu cür kəsmə naxışla bəzədilmiş qab nümunələrinə Azərbaycanda orta tunc dövrünə aid Üzərliktəpə yaşayış yerinin I təbəqəsinin II qrup qablarında, (17, şək 17-19), Xankəndi kurqanlarının bəzi gil qab nümunələrində (11, ş. 8, 15 b), 1 №-li Xaçbulaq kurqanının örtüyündəki qablarda (13, tab. 3, 5, 6), yenə Qarabağda Qaraköpəktəpədə, Günəştəpə, Kültəpə, Qarabulaq abidələrindən (5, s. 97), Göytəpə, Cinartəpə abidələrindən (1, tab. XXI, X, 7-9, 24; tab. XXXI 5-6; tab XXXII 5,7, 17-18; 25, 34, 35), Naxçıvanda orta tunc dövrünün ilk mərhələsini əks etdirən abidələrdən –II Kültəpədə, Əznəburd kurqanından, Qızılvəng və Şaxtaxtı qəbiristanlığından, Qarabağlardan, Yaycıdan, Qıvraq abidələrindən məlumdur (5, s. 97).

Bu növ naxış Qobustanda orta tunc dövrünün ilk mərhələsinə aid “Böyükdaş” yaşayış yeri (3, V tab., 11), Şəkidəki 6 №-li Daşüz, 13-14 №-li Küdürlü kurqanlarının gil qablarında (7, tab. XXXIV, 79 XLI 2,5), Gürcüstanda Trialeti kurqanlarında (10, tab. XXV) və Bedeni kurqanlarında (9, ş. XXVII, 40), Dağıstanda Qinçi qəbiristanlığı qablarında başlıca naxış növüdür (8).

Daşlı çökək I saylı kurqanın qablarından bəziləri qırmızımtıl rəngdə, kobud naxışsız mətbəx nümunələridir. Onların üstündə ocaqda istifadə olunma əlaməti – his izləri vardır. Bu cür nisbətən kobud qab nümunələrinə Üzərliktəpənin I təbəqəsinə aid I qrup qabları (16, s. 397; 1965, ş. 2,7), Babadərviş torpaq qəbrinin qabları (2, tab, II 4-5, 7-8), Xankəndi kurqanlarının qabları arasında (11, s. 18, ş.XVIII, 11-13) təsadüf olunmuşdur.

Qırmızımtıl rəngdə qablardan birinin üstü zəif cilalanmış, qırmızı rənglə boyanmışdır. Qırmızı boya ilə qabların boyanması eneolit dövrü dulusçuluğunda meydana çıxmış qədim üsulun ənənəvi davamıdır. Həmin qabdakı qulp təhrif olunmuş Kür-Araz qulpuna bənzəyir.

Bu kurqandakı qablardan bir qismi yeni meydana gəlmiş qab tipləridir, ona görə də onların yaxın oxşarlarını tapmaqda hələlik çətinlik çəkirik. Lakin, kurqanların dövrünün müəyyən edilməsində əsasən kəsmə naxış, batıq dairələr və qabarıq düyməciklərdən ibarət olan naxış növləri bizə kömək edir.

2 №-li Daşlı çökək kurqanının qablarının hamısı qara cilalıdır. Onlardan beşinin nisbətən alçaq silindr boğazı saxlanılır. Gövdəsinin yuxarı his-

səsi çox qabarıq, oturacağı yastı və gendir. Bütün qabların çiynində qulp yerləşir. Qulplar kəsikdə dairəvi-halqavari və təhrif olunmuş Kür-Araz mədəniyyəti qulpları formasındadır. Hər iki qulp nümunəsinə Şəkidəki VI Daşüz kurqanı (7, ş. XVIV, 1; ş. XL, 1-2; 4), Gürcüstanda Bedeni kurqanları qablarında (9, ş. 23-26, 14, 23, 16-18), Trialetidə (10, tab. XŞŞŞ, 7, 10) rast gəlinir.

I №-li Yovşanlı təpə kurqanında aşkar olunmuş qablardan ikisi boz rəngdə, ikisi isə qara cilalıdır. Boz qablar sarımtıl astarlı kəsmə naxışlıdır. Onlardan birinin boğazının hər iki yanında düzbucaq formalı çıxıntı qulaqcıq düzəldilmişdir. Bunlar bu cür qulaqcıqların ilk yaranan nümunələridir.

Qeyd etdiyimiz kimi kurqanların qablarında, ümumiyyətlə Kür-Araz mədəniyyəti qablarına xas olan bir sıra əlamətlərin necə davam etdiyi qorunub saxlandığı qabarıq nəzərə çarpır. 2 saylı Daşlı çökək kurqanının qablarında bu əlamət daha çox saxlanmışdır, bu da onların ilk tunc Kür-Araz mədəniyyətinin bilavasitə davamı olduğunu göstərir.

Tədqiq etdiyimiz kurqanlardan əldə edilmiş gil qablarla yanaşı tunc və daş əşyalar da onların dövrünü təyin etməyə kömək edir.

Daşlı çökək kurqanından əldə etdiyimiz ox uclarının oxşarı orta tunc dövrünün bir çox abidələrində, o cümlədən Şəkidə Küdurlu, Gürcüstanda Bedeni kurqanlarından məlumdur ( 9; 7 ).

2 saylı Daşlıçökək kurqanından tapılmış daş əsa başına analogiyalara hələ eneolit dövrü abidələrdə rast gəlinsə də onların ən yaxın analoqlarına yenə də e.ə. III minilliyin sonuna aid abidələrdə təsadüf olunur. Bunlar daha çox 1 N-li Xaçbulaq kurqanından (13, tab. I, 8 ); 119-125 N-li Xankəndi kurqanlarından, 2 saylı və 4 saylı Xaçınçay kurqanlarından (11, s. 19-2, ş.8, 9, 10;17, s. 168-169, ş.1-2 ); Qobustan kurqanlarından və "Dairə yaşayış yerindən" (3, tab. IX, 10) və Şəkidən (7, tab. V, 1, tab. XXXIV, 5) məlumdur.

Beləliklə, yuxarıda təqdim edilən materialların təsnifatı və müqayisəli təhlilinə əsaslanaraq Qazax rayonunun Daşlı çökək və Yovşanlı təpədə tədqiq etdiyimiz kurqanları orta tunc dövrünün əvvəllərinə, yəni b.e.ə II minilliyin əvvəllərinə - e.ə XVIII-XVII əsrlərə, bəlkə də bir qədər gec dövrə aid edə bilərik.

Tədqiq etdiyimiz kurqanlardan əldə edilmiş gil qablarla yanaşı tunc və daş əşyalar da onların dövrünün təyin edilməsində istifadə olunan yardımçı vasitələrdən biridir.

1 saylı Daşlı çökək xəncərinin yaxın oxşarı Trialetinin e.ə. XVIII-XVII əsrlərə aid edilən XVII kurqanından tapılmışdır (12, c. 132; 10, таб. XXIV 4, таб. 1,33).

2 saylı Daşlı çökək kurqanından əldə edilmiş mizraqın yaxın oxşarı 125 saylı və 119 saylı Xankəndi kurqanlarından tapılmışdır (11, c. 1-2; c.20). Lakin 119 saylı kurqanın xəncər tiyəsinin dəstəyində tiyəni dəstəyə

bərkitmək üçün deşik açılmışdır. Bu cür mizraq Xaçbulaqda 1 saylı kurqanın örtüyündəki orta tunc dövrünün ilk mərhələsinə aid birinci qəbirdən tapılmışdır (13, с. 29, таб 1, 1). İ.N.Cəfərov 119 N-li kurqanın mizraqının e.ə. III minilliyinin əvvəlinə aid etmiş və onun Xaçınçay-Borsunlu kurqanlarından əvvələ aid olduğunu göstərmişdir (1, s. 41). Lakin 119 saylı kurqanın qablarında orta tunc dövrünün ilk mərhələsi üçün səciyyəvi olan kəsmə naxışının təsadüf edilməsi və bu kurqan mizraqının oxşarının orta tunc dövrünün ilk mərhələsinə aid edilən 1 saylı Xaçbulaq kurqanındakı tapıntısı ilə yaxınlığı bu kurqanı da orta tunc dövrünün əvvəlinə e.ə. III minilliyin sonlarına aid edirik (14, с. 22).

1 saylı Yovşanlı təpə kurqanı xəncərini, onunla bir yerdə tapılmış qabların Kür-Araz mədəniyyətinin son mərhələsinin davamı olduğunu nəzərə alaraq e.ə. III minilliyin sonuna aid edirik. Bu cür yastı tiyəli xəncərlər Trialetinin orta tunc dövrünün ilk mərhələsinə aid XL saylı kurqandan (15, с. 101; 10, таб 1, 2); Beden kurqanlarından (9, таб, X, 4,6) tapılmışdır.

Bəzi tədqiqatçıların ehtimalına görə Daşsalahlı kurqanlarından tapılmış metal məmulatları Gədəbəyin Bitdibulaq yatağının mis-mışyak tərkibli filizindən hazırlanmışdır (18).

Daşsalahlı kurqanlarının metal məmulatının kimyəvi analazi Azərbaycanın Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji-texnoloji bölməsində, bölmənin rəhbəri professor İ.R. Salimxanovun rəhbərliyi ilə aparılmışdır.

## Ədəbiyyat

1. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı – I minilliyin əvvəllərində. Bakı, Elm, 2000.
2. İsmayılov Q.S., ƏliyevV.H. Babadərviş qədim yaşayışyerində qəbir abidləri. Azərb. SSR EA Xəbərləri, 1972.
3. Muradova F.M. Qobustan tunc dövründə. Bakı, Elm, 1979,118 s.
4. Rüstəmov C.N., Nərimanovİ.H. Aveydağında qədim yaşayış yeri və kurqan qəbirləri. AMM VIc., Bakı, 1965, s. 44-49.
5. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, Элм, 1991.
6. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку, Изд.-во АН Азерб.ССР, 1959.
7. Ахундов Т.И.Северо-западный Азербайджан в эпоху энеолита и бронзы. Баку, 2001.
8. Гаджиев М.Г. Из истории культуры Дагестана в эпоху бронзы. Махачкала, 1969.
9. Гобеджишвили Г.Ф. Бедени-культура курганных погребений. Тбилиси, 1980.

10. Гогадзе Э.М. Периодизация и генезис курганной культуры Триалети. Тбилиси, 1972.
11. Гуммель Я.И. Некоторые памятники раннебронзовой эпохи Азербайджана. КСИИМК, 1948.
12. Джапаридзе О.М. Археологические раскопки в Триалети. Тбилиси, 1969.
13. Джафарзаде И.М. Хачбулагская археологическая экспедиция 1960 года. МИА VIII, Баку, Элм, 1976.
14. Кесаманлы Г.П. Археологические памятники эпохи бронзы и раннего железа Дашкесанского района. Баку, 1999.
15. Куфтин Б.А. Археологические раскопки в Триалети. Тбилиси, Изд.во АН Груз. ССР, 1941.
16. Кушнарева К.Х, Поселение эпохи бронзы на холме Узерликтепе. // МИА СССР, № 67, Москва-Ленинград, Изд.во АН Азерб. ССР, 1959.
17. Кушнарева К.Х. Новые данные о поселении Узерликтепе около Агдама. МИА СССР №125, Москва-Ленинград, Из.во АН Азерб. ССР, Ленинград, 1965.
18. Гасанова А.М. Историко-аналитическая характеристика металлических изделий из погребальных памятников эпохи средней бронзы Казахского района. Доклады АН Азербайджана, Том LXV, N6

## DASHSALAKHLI MOUNDS

**Jafarqulu Rustamov, Firuza Muradova**

### Summary

**Key Words: mound, bronze century, settlement, earthenware work, carved ornament, punching ornament.**

Gazakh district of Azerbaijan has plenty of archaeological sites of Paleolithic metal; considerable part of it Dashsalakhli is located on the north-west slope of Aveidag. Archaeological excavations for the first time were carried out by researchers in 60s of XX century. There had been exploratory excavations close to the settlement of “Berkimagzi” where archaeologists unearthed amound. Archaeological expedition leading by the authors of the article in 1988-1989 years, expanded excavation work in this site. Aftermaths there were also unearthed IV mounds in the settlements of Dashlichokek, Yovshanlitepe. In the article there are scientific explanations of excavations and comparative analyze of materials. The mounds date back to the middle bronze age.

# КУРГАНЫ ДАШСАЛАХЛЫ

**Джафаргулу Рустамов, Фируза Мурадова**

## Резюме

**Ключевые слова: курган, бронзовый век, поселение, глиняные изделия, оружие, резное украшение, штамповое украшение**

Территория Казахского района богата археологическими комплексами эпохи палеометалла. Значительная часть их сосредоточена вблизи селения Дашсалахлы, на северо-западных склонах Авейдага. Археологическое изучение данной зоны Азербайджана впервые было начато в начале 60-х годов прошлого столетия. Были проведены разведовательные работы на поселении «Берким агзы» и раскопан один курган. В 1988-1989 гг. экспедицией, возглавляемой авторами настоящей статьи, были значительно расширены раскопочные работы в указанной местности. В итоге были раскопаны 4 кургана в местности Дашлычокек и Йовшанлытепе. В представленной статье дана научная интерпретация указанных раскопок и проведен сопоставительный анализ выявленных материалов. Указанные курганы отнесены к среднебронзовой эпохе и датированы началом III тыс. до н.э.

Tablo 1



Tablo 2



Tablo 3



# AZƏRBAYCANIN ORTA TUNC DÖVRÜ QARAKÖPƏKTƏPƏ ABİDƏSİ KONTEKSTİNDƏ

**Gülnaz Abdullayeva**
**(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)**
**gulya-gulya142@rambler.ru**

**Açar sözlər: tunc dövrü, orta tunc, şəhər mədəniyyəti, boyalı qablar, həndəsi naxışlar**

Azərbaycanın qədim tarixinin mühüm dövrlərindən biri tunc dövrüdür. Təbiətdə olmayan mükəmməl bir metalın kəşfi, iqtisadi, ictimai və mədəni həyatda böyük yeniliklərlə səciyyələnən tunc dövrü özünün mədəni-tarixi inkişafında bir neçə mərhələdən keçmişdir. Diqqətəlayiq haldır ki, hər mərhələdə Azərbaycan ərazisində oturaq tayfalara məxsus yüksək mədəniyyətlər təşəkkül tapmış və inkişaf etmişdi. Bunlar elmi ədəbiyyata Erkən (Kür-Araz), Orta (Kızıl-Vəng və Üzərliktəpə) və Son (Xocalı-Gədəbəy və Talış-Muğan) tunc dövrü mədəniyyətləri adı ilə daxil olmaqla eramızdan əvvəl IV minilliyin sonlarından I minilliyin başlanığıcına qədər uzun bir dövrü əhatə etmişdi.

Belə uzun zaman kəsiyində «Orta tunc dövrü» adlandırılan tarixi mərhələ də mövcud qədim cəmiyyətlərin iqtisadi və ictimai quruluşundakı dəyişikliklər xüsusilə böyük olmuşdu. Arxeoloji qazıntı və araşdırmalarla müəyyən olunmuşdur ki, bu dövrdə Azərbaycan ərazisində metallurgiya və metalişləmə müstəqil istehsal sahəsinə çevrilmiş, ağlasığmaz izafi gəlir gətirən maldarlıq iqtisadiyyatı ön sıraya keçmiş, daxili və xarici mübadilənin hüdudları genişlənmiş, iqtisadi və ictimai cəhətdən güclü tayfa birlikləri yaranmışdı.

Azərbaycanda Orta tunc dövrünə aid ilk arxeoloji kompleks XIX əsrin sonlarında Naxçıvan ərazisində - Qızıl Vəng (indiki Qızıl Burun) adlı yerdə aşkara çıxarılmışdır. Əldə edilən və xüsusiyyətləri ilə diqqəti cəlb edən yeni və nadir tapıntılarla tunc dövrünə aid zəngin bir mədəniyyətin ilk izləri üzə çıxarılmışdır (1).

XX əsrin 20-30-cu illərində görkəmli arxeoloq Ələsgər Kazım oğlu Ələkbərov tərəfindən eyni qəbildən olan arxeoloji abidələr Naxçıvanın artıq bir çox bölgələrində qeydə alınmış və öyrənilmişdi (2). Əhəmiyyətlidir ki, istedadlı alim aşkar etdiyi yeni abidələrdə qədim şəhər mədəniyyətinin təzahürünü görmüşdü. Şahtaxtı, Oğlanqala və Şortəpə kimi qədim mədəniyyət mərkəzlərinin kəşfi Orta tunc dövründəki yerli cəmiyyətlərin iqtisadi, ictimai və mədəni həyatındakı böyük tərəqqinin bariz göstəriciləri olmuşdu. Şahtaxtı nekropolunda aşkar olunan zəngin kurqanaltı qəbir dövrün mürəkkəb maddi mənəvi aləmindən xəbər vermişdi. Qeyd olunan qəbirdə at dəfni-

nin qalıqları, 30 ədəd müxtəlif ölçülü və biçimli gil qablar və atın yaraq əsləhəsinə aid qızıldan nəfis bəzək nümunəsi olmuşdu. Gil qablar içərisində olan bir ədəd polixrom naxışlı iri ölçülü gil qab xüsusilə maraqlı olmuşdu. Onun bütün səthi mifoloji təsvirlərlə bəzədilmişdi (3).

Keçən əsrin 50-ci illərində arxeoloq Osman Həbibulla oğlu Həbibullayev tərəfindən Naxçıvan şəhəri yaxınlığındakı çoxtəbəqəli Kültəpə abidəsindəki qazıntılar və onların dəyərli elmi dəlilləri təkcə Azərbaycan üçün yox, bütün Qafqaz arxeologiyası üçün əlamətdar hadisə olmuşdu (4). Elmə I Kültəpə abidəsi adı ilə daxil olan bu abidədə arxeoloji qazıntılar nəticəsində tunc dövrünün bütün ardıcıl mərhələlərinə, o cümlədən Orta tunc dövrünə aid 22 m. qalınlığında mədəni təbəqə aşkar edilmişdi. Orta tunc dövrünün mədəni təbəqəsindən yaşayış və təsərrüfat tikintilərinin qalıqları və müxtəlif əmək alətləri və digər maddi mədəniyyət nümunələri, eyni zamanda Naxçıvanın Orta tunc dövrü üçün səciyyəvi sayılan boyalı qablar, oturaq həyat tərzini əks etdirən silsilə tapıntılar üzə çıxarılmışdı.

Ötən yüzillikdə Naxçıvan ərazisində Orta tunc dövrünə aid aşkar edilən möhtəşəm abidələrdən biri də II Kültəpə qədim yaşayış yeridir. Abidə 1960-cı ildə O.Həbibullayev tərəfindən aşkar olunsa da əsaslı şəkildə arxeoloq Vəli Əliyev tərəfindən öyrənilmişdir (5).

II Kültəpə Naxçıvan şəhərindən şimalda, Cəhriçayla Naxçıvançayın qovuşduğu ərazidə yerləşmişdir. Onun tutduğu sahə 10 hektardan artıqdır. II Kültəpə abidəsində həm Erkən, həm də Orta tunc dövrünün mədəni təbəqələri üzə çıxarılmışdı. Diqqəti cəlb edən cəhət ondan ibarətdir ki, abidənin Orta tunc dövrünə aid mədəni təbəqəsində yaşayış evlərinin, məişət və təsərrüfat tikintilərinin qalıqları ilə yanaşı, bürclərə malik möhtəşəm müdafiə divarının böyük bir hissəsi üzə çıxarılmışdı. Əldə edilən maddi mədəniyyət nümunələri, boyalı naxışlı və boz-qara rəngli qablardan, istehsal alətlərindən və sənətkarlıq nümunələrindən ibarətdir. II Kültəpənin tədqiqatçısı olan Vəli Əliyev onu şəhər tipli yaşayış yeri olduğu kimi qiymətləndirmişdi. Eyni zamanda belə nəticəyə gəlinmişdir ki, Naxçıvan ərazisində boyalı qablar istehsalı qədim metal dövrünün bütün mərhələlərində - eləcə də orta tunc dövründə dulusçuluğun əsasını təşkil etmiş və bu sahədə mərkəz rolunu oynamışdı (6).

Orta tunc dövründə tayfalararası mübadilənin genişlənməsi yüksək keyfiyyətli zərif naxışlı boyalı qabların Azərbaycanın digər bölgələrində də yayılması ilə nəticələnmişdı. Təsadüfi deyildir ki, Azərbaycanın bir çox bölgələrində Naxçıvan istehsalı olan boyalı qablara təsadüf olunmuşdu. Bu cəhətdən Kiçik Qafqazın cənub-şərq ətəklərini əhatə edən Quruçay vadisi xüsusilə maraqlıdır. Belə ki, adı çəkilən vadidə boyalı qab nümunələrinə Orta tunc dövrünə aid bütün abidələrdə təsadüf olunmuşdu (7).

Onu da diqqətə çatdırmağı lazım bilirik ki, Naxçıvan ərazisindəki Orta tunc dövrü abidələri I və II Kültəpə abidələri ilə məhdudlaşmamışdı. Müxtəlif illərdə bu ərazidə Orta tunc dövrünə aid onlarla yeni arxeoloji komplekslər – yaşayış yerləri və dəfn abidələri üzə çıxarılmışdır. Onların içərisində Nəhəcir kompleksi çox maraqlıdır.

Geniş sahəli yaşayış yerindən və kurqanlı nekropoldan ibarət olan Nəhəcir kompleksi Culfa bölgəsinin eyni adlı kəndi ərazisində yerləşmişdir. 1966-cı ildə O.Həbibullayev və V.Əliyev tərəfindən qeydə alınan Nəhəğir abidəsində sonralar Vəli Baxşəliyev və Abbas Seyidov tərəfindən qazıntı yolu ilə tədqiqatlar aparılmışdır (8).

Nəhəcirdə 20-dən artıq müxtəlif ölçülü kurqan qeydə alınmışdır. Onların əksəriyyəti oturacaq hissədə kromlexlə əhatə olunmuşdu. Kurqanların altında müxtəlif avadanlığa malik olan torpaq qəbirlər üzə çıxarılmışdı. Bəzi qəbirlərdə az, bəzilərində isə çoxlu və müxtəlif avadanlığa təsadüf olunmuşdu. Əldə edilən tapıntıların əsas hissəsi boyalı gil qablarla təmsil olunmuşdu. Maraqlıdır ki, bir kurqanın altındakı qəbirdən 22 sayda müxtəlif ölçülü gil qablara təsadüf olunmuşdur (9). Təəccüblüdür ki, açılan qəbirlərin əksəriy-yətində insan skeletinə rast gəlinməmişdir. Məlumdur ki, belə vəziyyət vaxtilə Ə.Ələkbərovun Şaxtaxtı nekropolunda açdığı kurqanda da izlənilmişdir. Nəhəcir nekropolundan, eyni zamanda yaşayış yerindən tapılan dulus məmulatının böyük hissəsi boyalı qablardan ibarət olmuşdur.

Onu da qeyd etməliyik ki, son vaxtlarda çoxlu sayda gil qablarla müşaiyət olunan kurqana Qazax rayonu ərazisindəki Həsənsu adlanan yerdə də təsadüf olunmuşdu (10).

Azərbaycan ərazisində Orta Tunc dövrünə aid dəqiq öyrənilən abidələrdən biri də Üzərliktəpə yaşayış yeridir. Üzərliktəpə Ağdam şəhərinin yaxınlığındadır (tab. 1). 1954-cü ildə görkəmli rus–sovet arxeoloqu A.A.İessen tərəfindən üzə çıxarılmışdır (11). İri sahəli dairəvi təpədən olan, abidədə qazıntılar zamanı Orta tunc dövrünə aid 3–m qalınlığında mədəni təbəqə müəyyənləşdirilmişdir, həmin təbəqədə müxtəlif tikinti qalıqları eləcə də çiy kərpiclərdən inşa edilmiş müdafiə divarının bir hissəsi aşkar edilmiş, müxtəlif maddi mədəniyyət nümunələri tapılmışdır. Tapıntıların böyük hissəsi, əkinçilik və maldarlıq təssərüfatına məxsus əmək alətlərindən, tunc, daş və sümükdən hazırlanmış müxtəlif əşyalardan ibarət olmuşdu.

Üzərliktəpədən əldə edilən dulus məmulatının əsas hissəsi boz və qara rəngli, üzərləri cilalı və xüsusi naxışlı qablarla təmsil olunmuşdur. Abidədə Naxçıvan üçün səciyyəvi sayılan boyalı qablara nadir hallarda təsadüf olunmuşdur. Bununla, belə bir qənaətə qəlinmişdir ki, qara və boz rəngli gil qablar Orta tunc dövrünün lokal qrupunu təmsil etmiş və əsasən Mil - Qarabağ bölgələrində yayılmışdır. Əldə edilən belə qabların əksəriyyətinin səthi xüsusi alətlər vasitəsilə nöqtələr və cızıq xətlərlə həndəsi naxışlarla bəzədil-

mişdir. Onların içərisində kiçik ölçülü və nəfis biçimli, üzəri cilalı və zərif naxışlı nümunələr az olmamışdı (12).

Sonrakı illərin arxeoloji axtarışları Üzərliktəpə belə xüsusiyyətli dulus məmulatının Azərbaycanın bir çox bölgələrində o cümlədən adını çəkdiyimiz Mil-Qarabağ düzündə və Qarabağ dağ silsiləsinin Cənub-Şərq ətəklərini əhatə edən Quruçay, Köndələnçay hövzəsində daha geniş yayıldığı da müəyyən edilmişdir. Məlumdur ki, Q.İsmayılzadə tərəfindən Quruçay və Köndələnçay hövzəsində aşkar olunan qədim yaşayış yerlərində bol dulus məmulatına rast gəlinib. Bu cəhətdən həmin abidələr içərisində çoxtəbəqəli Qaraköpəktəpə abidəsi məxsusidir (13).

Qaraköpəktəpə Füzuli şəhərinin girəcəyində Köndələnçayın hündür sağ sahilində yüksələn möhtəşəm təpədən ibarətdir. Onun tutduğu sahə 6 hektara yaxın, hündürlüyü isə çay yatağından 50 metrdir. Konusvari formada olan Qaraköpəktəpə öz möhtəşəm görkəmi ilə hələ XIX əsrdə tədqiqatçıların diqqətini özünə cəlb etmişdir. Məlumdur ki, Şuşa şəhərinin alman dili müəllimi E.Resler 1895-ci ildə Qaraköpəktəpədə ilk axtarışlar aparmışdır. O, Qaraköpəktəpəni nəhəng kurqan hesab etmişdi (14). İri öçüləri və düzgün forması ilə seçilən təpə bir il sonra – 1896-cı ildə bu yerlərdə olmuş Rusiya İmperator Cəmiyyətinin üzvü A.A.İvanovskinin nəzər-diqqətindən yayınmamışdı. Tədqiqatçı təpənin üstündən və ətrafından maraqlı tapıntılar yığmış onun müfəssəl təsvirini vermişdi (15). Əhəmiyyətlidir ki, Qaraköpəktəpədən azca aşağıda Köndələnçayın sağ sahilindəki geniş ərazini tutan Qaabulaq kurqan çölü də A.A.İvanovskinin diqqətini özünə cəlb etmişdi. Tədqiqatçı burada 20-dən artıq müxtəlif ölçülü kurqan qeydə almış və onlardan 5-ni qazmışdı (16). Onun çap olunmuş hesabatına görə 2 kurqanın altındakı daş qutu qəbirlərində son tunc və ilk dəmir dövrlərinə aid maraqlı maddi mədəniyyət nümunələri üzə çıxarılmış, 2 kurqanaltı qəbirdə isə ölüyandırma mərasiminin əlamətləri izlənilmişdi. 5-ci kurqanda tayfa başçısına məxsus zəngin qəbir aşkar edilmişdi. Kurqanın altında aşkar edilən iri ölçülü qəbirdə 2 dəvə skeletinə və çoxlu sayda maddi mədəniyyət nümunələri tapılmışdır. Tayfa başçısına aid olan 5-ci kurqan Azərbaycanın Son tunc dövrü haqqında təsəvvürləri əsaslı şəkildə dəyişmişdi.

Qaraköpəktəpə abidəsinin özündə əsaslı axtarışlar və qazıntılar 1964-cü ildə başlanmış və 20 il müddətində – 80-ci illərin sonlarınadək uğurla davam etdirilmişdir. Qazıntılara arxeoloq Qüdrət İsmayılzadə başçılıq etmişdi (17). Uzunmüddətli və geniş qazıntılarla Qaraköpəktəpənin çoxtəbəqəli abidə olması müəyyən edilmişdi. Yerüstü axtarışlar və qazıntılarla abidədə mezolit dövründən son orta əsrlərədək uzun zaman kəsiyinin maddi mədəniyyət nümunələri aşkar olunmuşdu. Əhəmiyyətlidir ki, Qaraköpəktəpə paleometal dövrünün bütün tarixi mərhələlərini dəqiq ardıcıllıqla əks etdirən abidə olmuşdur. Erkən tunc dövrünə – Kür-Araz mədəniyyətinə aid qalın təbə-

qə üzərində orta tunc dövrünün 3 metr qalınlığında mədəni təbəqənin olması Azərbaycan arxeologiyası üçün mühüm hadisə kimi qiymətləndirilmişdi. Həmin təbəqənin varlığı Qaraköpəktəpədə Orta tunc dövrdə yaşayışın uzun müddət davam etdiyini göstərmişdi. Bu təbəqədə iri ölçülü qaya parçalarından, çay daşlarından və çiy kərpiclərdən tikilmiş möhtəşəm divarların böyük hissəsi üzə çıxarılmış, məişət və təsərrüfatla bağlı tikililərin qalıqları aşkar olunmuş, onun qədim sakinlərinin məişət və təsərrüfatı və mədəniyyəti ilə bağlı arxeoloji tapıntılar aşkar edilmişdi. Aşkara çıxarılan müdafiə divarlarının eni 3 m qalınlığında olmuşdur. Onun yanları hər iki tərəfdən nəhəng daşlarla haşiyələnmiş, içərisi çaydaşları ilə doldurulmuşdu. Tədqiqatçı Qüdrət İsmayılzadənin ehtimalına görə vaxtilə təpənin üstündə mövcud olmuş orta tunc dövrünə aid yaşayış yeri, quru tərəfdən bütünlüklə belə möhtəşəm divarla əhatə olunmuşdu (18). Nəticədə orta tunc dövründə Qaraköpəktəpədəki yaşayış yeri möhkəm qalanı xatırlatmışdı. Burada üzə çıxarılan yaşayış binaları iri ölçülü qaya parçalarından inşa edilmiş, onların divarlarının qalınlığı 1 m-ə çatmışdı. Qeyd etdiyimiz kimi, qazıntılar zamanı Qaraköpəktəpənin müvafiq təbəqəsindən maddi mədəniyyət nümunələri, o cümlədən müxtəlif biçimli gil qablar tapılmışdı. Gil qabların əsas hissəsi Qarabağ ərazisindəki tunc dövrü abidələri üçün səciyyəvi olan boz və qara rəngli hamar səthli, üzəriləri cızma, kəsmə üsulu ilə eləcə də xüsusi ştampla naxışlanmış nümunələrlə təmsil olunmuşdur.

Qaraköpəktəpə abidəsinin Orta tunc dövrü təbəqəsindən əkinçilik və maldarlıqla, eləcə də müxtəlif sənət sahələri ilə bağlı tapıntılar da əldə edilmişdi. Onların içərisində quraşdırma oraqlara məxsus kəsici dişlər, dən daşları, gildən düzəldilmiş iy başlıqları, kiçik ölçülü heyvan fiqurları, xırdabuynuzlu ev heyvanlarına məxsus osteoloji materiallar, tuncdan hazırlanmış halqavari üzük və sırğalar, əqiq daşından muncuqlar, ox ucluqları və toppuz nümunələri də vardır (tab.2-4).

Qaraköpəktəpədə Orta tunc dövrünə aid yaşayış yeri Q.İsmayılzadə tərəfindən eramızdan əvvəl II minilliyin birinci yarısına aid edilmişdi. Həmin minillik Cənubi Qafqazda, eləcə də Yaxın Şərqdə bir sıra mühüm ictimai-siyasi hadisələrlə əlamətdar olmuşdur. Cənubi Qafqazın özündə, o cümlədən





Azərbaycan ərazisində artıq bir sıra güclü siyasi birliklər meydana çıxmış, Yaxın Şərq ölkələrində isə qarətçi yürüşlərə əsaslanan dövlətlər yaranmışdı. Azərbaycanın özündə iqtisadi inkişaf zəminində ictimai münasibətlərdən əsaslı dəyişikliklər baş vermiş, maldarlıq təsərrüfatını yeni inkişafı bu təsərrüfatda xırdabuynuzlu heyvanların sürətli artmı nəticəsində yerli tayfaların əlində böyük sürülər və sərvətlər cəmləşmişdi. Bu isə öz növbəsində ayrı-ayrı tayfalar arasında arasıkəsilməz qarətçi toqquşmalara səbəb olmuşdu. Mövcud şəraitdə həm dağlıq, həm də düzən yerlərdə ətrafı möhkəm divarlarla əhatə olunmuş yaşayış yerləri yaranmışdı.

## Ədəbiyyat

1. Спицын А. Некоторые закавказские могильники. ИАК,. 29, СПб., 1909, с. 3-15; Пиотровский Б.Б. Археология Закавказья. Ленинград., 1949, с. 46-49.
2. Алекперов А.А. Исследования по Археологии и Этнографии Азербайджана. Баку, изд-во АН Азербайджана, 1960.
3. Алекперов А.К. Археологические обследование Нахичеванских районов в 1936 г. // Сб. Алекперов А.К. Исследования по Археологии и Этнографии Азербайджана, с. 46-48; Абибуллаев О.А. Материалы Шахтантинкого погребения // Изв. АН Азерб,, 1961, № 5, с. 27-36; Агаев Г.Г.Шахтахты в эпоху поздней бронзы и раннего железа. Баку, Элм, 2002, с. 23-27.
4. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı, Elm, 1959; Yenə onun. Энеолит и бронза на территории Нахчывана. Баку, Элм, 1982.
5. Əliyev V.H. Naxçıvanda tunc dövrünün yeni abidəsi. Azərb. EA Xəbərləri, 1962, № 2, s. 37-50; Yenə onun. II Kültəpədə tapılan boyalı qablar. Azərb. EA Məruzələri, 1963, № 5, s. 69-74; Yenə onun. Qədim Naxçıvan, Bakı, Elm, 1979, s. 14-46; Seyidov A.Q. Naxçıvan e.ə. VII-II minilliklərdə. Bakı, Elm, 2003, s. 126-154.
6. Əliyev V.H.Qədim Naxçıvan, s. 46-57.
7. Əliyev V.H., İsmayılzadə Q.S. Quruçay və Köndələnçay hövzəsində boyalı qablar mədəniyyətinə aid yeni tapıntılar. Azərb. EA xəbərləri, 1969, № 2, s. 49-58; İsmayılzadə Q.S.Quruçay və Köndələnçay vadisində qədim mədəniyyətin izləri. Bakı, 1981, s. 35-40.
8. Seyidov A.Q., Baxşəliyev V. Nəhəcar qədim abidələr kompleksi. Azərbaycan arxeologiyası, 2002, № 3-4, s. 20-22; Quliyeva Z.Q. Arpaçay vadisinin tunc dövrü abidələri. Bakı, 2014, s. 54-65.
9. Seyidov A.Q. Baxşəliyev V.B., Göstərilən əsəri, s. 20-22.
10. Müseyibli N.G. Ağalarzadə A.M. Həsənsu nekropolu. Bakı, Elm, 2014, s.54-65.
11. Иессен А.А. Из исторического прошлого Мильско-Карабахской степи. МИА, № 125, II ч. Москва-Ленинград, Наука, 1965, с. 18-20; Кушнарева К.Х. Поселение эпохи бронзы на холме Узерликтепе около Агдама. МИА, № 67, Москва.-Ленинград, Наука, с. 74-102.
12. Əliyev V.H., İsmayılzadə Q.S.Quruçay və Köndələnçay hövzəsində boyalı qablar mədəniyyətinə aid yeni tapıntılar, s. 54-57; Исмаилзаде Г.С. Новые

данные о Гарабулагском древнем могильнике. Доклады АН Азерб., 1971, № 11-12, с. 95-99.
13. Исмаилзаде Г.С.Гаракепектепе - древний памятник материальной культуры Азербайджана. Изв АН. Азерб ССР, 1969, № 1, с. 59-71.
14. Пиотровский Б.Б. Археология Закавказья, с. 40-45.
15. Ивановский А.А.По Закавказью, МКАК, вып, VI Москва, 1911.
16. Yenə orada, s.126-130.
17. Исмаилзаде Г.С. Гаракепектепе – древний памятник материальной культуры Азербайджана, с. 59-71.
18. Исмаилзаде Г.С. Поселение средней бронзы на холме Гаракепектепе. Археологические открытия 1978 г. Москва, Наука, 1979, с. 513.

## MIDDLE BRONZE PERIOD IN CONTEXT OF GARAPEKEKTEPE MONUMENT

**Gulnaz Abdullayeva**

### Summary

**Key words: bronze, Garakepektepe, ceramic wares, decoration**

Since XIX century in the core of attention there are monument Garakepektepe which is having imposing size. Monument is situated on the right shore river Kendelanchay, near Fizuli town. Stationary excavation began in the middle of 60-x years of last century/ There was adjusted that Garakepektepe is multi layer settlement with strength cultural stratum in epoch on paleometal. There deserve attention of presence on monument wealth remains in epoch of middle Garakepektepe with rich complex buildings remains, ceramic wares, labor weapons and decoration, which is significance provided increased imagination about middle bronze periods no only in Azerbaijan, but are over South Caucasus.

## СРЕДНЕБРОНЗОВЫЙ ПЕРИОД В КОНТЕКСТЕ ПАМЯТНИКА ГАРАКЕПЕКТЕПЕ

**Гюльназ Абдуллаева**

### Резюме

**Ключевые слова: бронзовый век, городская культура, расписная керамика, геометрический узор**

С XIX века в центре внимания стоит уникальный памятник Гаракепектепе. Памятник расположен на высоком правобережье реки Кенделанчай, вблизи города Физули. Стационарные раскопки, начатые в середине 60-х годов прошлого столетия, были ознаменованы тем, что Гаракепектепе многос-

лойное поселение с мощными культурными напластованиями всех эпох палеометалла. Заслуживало внимание наличие на Гаракепектепе богатых культурных слоев эпохи средней бронзы с комплексом строительных остатков, керамических изделий, орудий труда и украшений. На основе данных материалов значительно были расширены представления о культурно-историческом развитии среднебронзовой эпохи Азербайджана. В среднебронзовом историческом этапе в экономическо-общественной и культурной структуре местных племен произошли радикальные изменения.



Tablo1. Üzərliktəpə yaşayış yerinin planı, qazıntı sahəsi, gil məmulatı



Tablo 2. Orta tunc dövrünə aid daş və gil məmulatı



Tablo 3. Orta tunc dövrünə aid ştamp və kəsmə naxışlı gil qab nümunələri



Tablo 4. Qaraköpəktəpədən tapılmış orta tunc dövrünə aid gil məmulati

# GƏMİQAYA VƏ KƏLBƏCƏR QAYAÜSTÜ TƏSVİRLƏRİNDƏ AZƏRBAYCANIN DAĞLIQ BÖLGƏLƏRİNİN HEYVANAT ALƏMİ

**Elnur İmanov**
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)
elnurimanov@mail.ru

**Açar sözlər: dağlıq bölgə, qayaüstü təsvir, tunc dövrü, daş, rəsm, qaya, döymə, alət**

Qədim maddi mədəniyyət abidələri silsiləsində öz geniş məlumat çərçivəsi ilə qayaüstü incəsənət nümunələri xüsusi yer tutur. Minilliklər arxasında qalan dövrlərin iqtisadi, ictimai, maddi və mənəvi həyatı haqqında ən mükəmməl məlumatlar bilavasitə qədim qayaüstü təsvirlərdə əks olunmuşdur (1). Qədim qayaüstü təsvirlər eyni zamanda mənsub olduğu dövrlərin təbiəti və heyvanat aləmi haqqında dolğun məlumat verən əsl kitabdır (2). Bu cəhətdən Azərbaycan ərazisindəki qədim qayaüstü təsvirlər misilsizdir.

Məlumdur ki, Qafqazda qədim qayaüstü təsvirlərin ilk nümunələri bilavasitə Azərbaycanda-Qobustanda qeydə alınmışdır (3). Hal-hazırda Azərbaycanda qədim qayaüstü təsvirlərin geniş yayıldığı bir neçə məntəqə mövcuddur. Onlar aşağıdakılardan ibarətdir: 1. Qobustan; 2. Gəmiqaya; 3. Abşeron; 4. Kəlbəcər. Onların hər birində bədii və tarixi dəyəri ilə böyük əhəmiyyət kəsb edən minlərlə qədim təsvirlər aşkar olunmuşdur. Bu təsvirlərdə yerli qədim tayfaların məişət və təsərrüfat məşğuliyyəti, dini, dini inancları, zəngin dünyagörüşü, adət və ənənələri dolğun şəkildə əks olunmuşdur. Üzə çıxarılan təsvirlərdə Azərbaycanın zəngin heyvanat aləmi də diqqətdən kənarda qalmamalıdır. İbtidai insanlar onları əhatə edən, onların yaşaması üçün maddi əhəmiyyət kəsb edən istər ev, istərsə də vəhşi heyvanların rəsmlərini daş parçaları və qayalar üzərinə çəkməklə özləri bilmədən qədim Azərbaycanın heyvanat aləmini canlandıran misilsiz, mükəmməl ensiklopediya yarada bilmişlər (4).

Diqqəti cəlb edən cəhət ondan ibarətdir ki, qeydə alınan heyvan təsvirlərində hər bir heyvanın fərdi vərdişi, coğrafiyasındakı məxsus xüsusiyyətlər də əks olunmuşdur. Bu cəhətdən Naxçıvan bölgəsindəki Gəmiqayanın və Kəlbəcərin qədim təsvirləri olduqca önəmlidir (5).

Naxçıvan ərazisindəki Gəmiqaya Kiçik Qafqaz dağ silsiləsinin payına düşməklə ən hündür yerdir. O, dəniz səviyyəsindən 3906 m yüksəklikdə yerləşir. Qədim təsvirlər bir qədər aşağıda - 2800-3500 m. yüksəklikdə yayılmışdır. İnzibati cəhətdən Gəmiqaya Ordubad rayonuna aiddir. Yüksək dağlıq ərazilərə məxsus iqlim şəraitinə malikdir. İsti yay aylarında belə zirvə quzeylərində qar örtüyü qalmaqda davam edir. Gilançay və Sakqarsu öz mənbələrini buradan götürürlər. Burada ən yüksək temperatur iyul və avqust

aylarında olur. Bitki örtüyü zirvəyə yaxın yerlərdə alçaq boylu, yamaclarda isə hündür boylu otlardır. Bununla əlaqədar Gəmiqayanın zəngin otlaqları qədim dövrlərdən yerli əkinçi-maldar tayfalarının təsərrüfatında mühüm yer tutmuşdu. Qeyd etməliyik ki, Gəmiqaya indiyədək Naxçıvanın ən böyük yaylaqlarından biri kimi əhəmiyyətini itirməmişdir.

Gəmiqayanın zirvəsindən yamaclarına qədər uzanan ərazisinin böyük hissəsini səpələnmiş halda olan daş topaları tutur. Qədim təsvirlər vaxtı ilə məhz belə daşların hamar səthinə həkk olunmuşdur. Onların icrası üçün kobud kəsici daş, müəyyən hallarda isə metal alətlərdən istifadə olunmuşdur. Rəsmlər döymə, kəsmə, qazma və sürtmə üsulu ilə çəkilmişdir.

Gəmiqaya təsvirlərinin ilk kəşfi və tədqiqi tanınmış arxeoloq Vəli Əliyevin adı ilə bağlıdır. Buradakı təsvirlər 1968-ci ildə qeydə alınmış və indiyədək öyrənilmişdir. İlkin statistik dəlillərə görə Gəmiqayada 2000-ə qədər qədim təsvirlər qeydə alınmışdır (6).

Nəcəf Museyiblinin təsnifatına görə Gəmiqaya təsvirləri əsasən 4 qrupla təmsil olunmuşdur: insan rəsmləri, araba rəsmləri, heyvan rəsmləri və müxtəlif növlü rəsmlər (7).

Kəmiyyət nöqteyi-nəzərindən Gəmiqaya təsvirləri arasında üstünlük keçi rəsmlərinə aiddir. Onlar tək, qoşa və sürü halında təsvir olunmuşlar. Sxematik üslub üstünlük təşkil edir. Bir qayda olaraq qeydə alınan belə təsvirlərin böyük hissəsi əhliləşdirilmiş keçilərə, müəyyən hissəsi isə vəhşi təkə və tur-dağ keçilərinə aiddir. Onların bədənləri, ayaqları, quyruq və buynuzları bir xətlə verilmişdir. Onu da diqqətə çatdırmaq lazımdır ki, bəzən keçi rəsmlərinin qoyun və ya qoça aid olması ehtimalı da mövcuddur.

Gəmiqayada aşkar olunmuş təsvirlərin bir qrupu öküzlərə aiddir. Onlar tək halda təsvir olunmuşlar. Bununla belə hər öküz təsviri fərdi xüsusiyyətləri ilə seçilir. Siluetdə verilmiş bir öküz təsvirində onun buynuzları birbirinə bitişik aypara, digərində isə qarşıya yönəldilmiş qövsvari şəkildə verilmişdir. Bəzi təsvirlərdə isə buynuzları dairə şəklindədir. Ümumilikdə, Gəmiqayanın öküz təsvirlərinin əsas xüsusiyyəti, onların qabarıq verilməsində əks olunmuşdur.



Maraqlıdır ki, Gəmiqayada arabaya qoşulmuş öküz təsviri də qeydə alınmışdır.

Gəmiqayada üzə çıxarılmış ev heyvanlarının rəsmləri arasında at da vardır. Onlar bir qayda olaraq minik və

ya qoşqu vasitəsi kimi diqqətə çatdırılmışdır.

Gəmiqayada rəsmi çəkilmiş ev heyvanlarından biri də dəvədir. Sayca çox az olan belə təsvirlər sxematik şəkildə tək xətlə çəkilmişdir. Onlar uzun bədənli və hündür ayaqlı verilmişdir. Gəmiqayada həm qoşa hürgüclü, həm də tək hürgüclü dəvə həkk edilmişdir. Onun bir qədər əyri boynu yuxarı qalmış, başı isə irəli yönəlmişdir. Hürgücləri belinin üstündən yuxarıya doğru yönəlmiş iki qısa xətlə verilmişdir. 260 saylı daşda keçi ilə üz-üzə dayanmış tək hürgüclü dəvə də görmək olar. Gəmiqayadakı dəvə təsvirlərinin ən maraqlısı realist üslubda verilmiş iki hürgüclü dəvənin siluet təsviridir.

Gəmiqaya təsvirlərində bölgənin vəhşi və yırtıcı heyvanları da diqqətdən kənarda qalmamışdır. Ayrı-ayrı daşlar üzərində maral, dağ keçiləri, bəbir, canavar və digər heyvanların rəsmlərinə rast gəlinmişdir.

Qeyd etməliyik ki, Gəmiqayadakı maral təsvirləri realist üslubda estetik tərtibatla verilmişdir. Belə ki, onların bədənləri, ayaqları zövqlə işlənmiş, buynuzları çox şaxəli göstərilmişdir. Sxematik verilmiş bəzi maral rəsmlərində buynuzların yalnız bir istiqamətdə şaxələnməsi onları digər maral təsvirlərindən fərqləndirir. Buynuzların şaxələnməsi xüsusiyyətinə görə bəzi maral rəsmləri bir-birindən seçilirlər. Onlardan birinin dik qalxan qoşa buynuzlu yalnız xaricə daraqvari şəkildə şaxələnmişdir.

Gəmiqayada diqqət çəkən rəsmlərdən biri də canavar rəsmidir. Məlumdur ki, canavar qədim maldarların sürülərinə hücum edən yartıcı heyvandır. Siluet təsvir edilmiş bir rəsmdə canavar boyununu uzadaraq ağzını yuxarı tutub ulayan vəziyyətdə göstərilmişdir. 530 saylı daşda canavar başını aşağı əymiş, bədəni bir qədər geriyə gərilmiş, sanki hücuma hazır-laşırmış kimi təsvir edilmişdir. Onun qulaqları şəklənmiş, quyruğu arxaya doğru düz uzanmış halda verilmişdir. Canavarın keçi ilə üzbəüz dayandığı səhnə də maraqlıdır. Onların arasından uzun dalğalı xətt keçir. Canavar tək xətlə qulaqları şəklənmiş, uzun quyruqlu şəkildə təsvir edilmişdir.

Gəmiqayanın sakinləri həm də bəbirləri yaxşı tanımış qayalar üstə onların rəsmlərini çəkmişlər. Bəbirlər əsasən döymə və qazma üsulu ilə həkk edilmiş fiziki əlamətləri real təsvir edilmişdir. 518 saylı daşda iri buynuzlu öküz ilə üz-üzə ona hücum edən hazır vəziyyətdə bəbir təsvir olunmuşdur. Buradakı bütün bəbir təsvirlərinin səciyyəvi cəhəti onların uzun, orta hissəsi bir qədər əyilmiş quyruqların olduğu kimi göstərilmişdir.



Gəmiqayada bir qayda ulaq rəsmi də qeydə alınmışdır. Gəmiqayada həmçinin quş rəsmləri də qeydə alınmışdır. Bu rəsmlər

realist üslubda qanadları açılmış, yaxud qarşısındakı canlının üzərinə şığıyan vəziyyətdə təsvir edilmişdir.

Gəmiqayada çoxlu sayda ilan təsvirləri də vardır. Onlar dalğavari xətlə bəzən isə spiral şəkilli rəsm edilmişdir. 523 saylı daşda tısbağa rəsmi qeydə alınmışdır. Onun zirehi çarpaz çəkilmiş iki xətlə dörd hissəyə bölünmüşdür. Bir sıra rəsmilərin hansı canlıya məxsusluğunu müəyyən etmək çətindir. Ümumi xüsusiyyətlərə görə onların bəzilərini həşərat hesab etmək olar. Başqa bir daşda isə əqrəbə bənzəyən, digər bir daşda isə buğumayaqlılar tipinə aid həşərat rəsmi verilmişdir.

Gəmiqayadakı təsvirləri tədqiqatçıların əksəriyyəti tunc dövrünün ardıcıl inkişafı mərhələlərinə – eramızdan əvvəl IV-I minilliklərə aid edirlər. Bizcə əldə olan bütün dəlillər bu fikirin düzgünlüyünü əyani şəkildə təsdiq edirlər.

Keçən əsrin 60-70-ci illərində Kəlbəcərin yüksək dağlıq və dağətəyi bölgələrində arxeoloq Qüdrət İsmayılzadə tərəfindən qədim qayaüstü təsvirlərin yeni bir mərkəzi üzə çıxarılmışdır (8). Maraqlıdır ki, Kəlbəcərin qayaüstü rəsmləri həm coğrafi xüsusiyətləri, həm də əhatə etdiyi dövrlə Gəmiqaya təsvirləri ilə eyniyyət təşkil edir. Dəlidağın ətəklərində, vulkanik lavaların ekzogen təsiri nəticəsində parçalanmış süxurlar üzərində müxtəlif təsvirlər, o cümlədən heyvan təsvirlərinə rast gəlinmişdir. Zalxagöl və Qaragölün sahillərində Ayı çınqılı, Pəri çınqılı, taxta adlanan yerlərdə yüzlərlə qədim qayaüstü təsvirlər üzə çıxarılmış və öyrənilmişdir. Təkcə Qaragöl çınqıllığındakı rəsmlərin sayı 800-ə qədərdir. Burada təsvir olunan heyvan rəsmləri mövzu rəngarəngliyi, orjinallığı və bədii dəyəri ilə diqqəti cəlb edir. Burada bir daşın üzərində öküzə qoşulmuş ikitəkərli araba təsvir edilmişdir. Bu rəsm Gəmiqayadakı araba təsvirlərinə müəyyən qədər bənzəyir. Burada öküzlərin buynuzu, qövsvari, bir az içəriyə doğru qatlanmış şəkildə təsvir olunmuşdur. Bu təsvir maldar tayfaların yeni otaqlar əldə etməsi üçün yüksək dağlıqlara köç etdiyini söyləməyə imkan verir. Kəlbəcər təsvirlərinin birində iki insan tərəfindən maralın ovlanması səhnəsi açıq-aydın müşahidə olunur.

Ovçu əlində kəmənd maralı ovlamağa çalışarkən qarşıdan başqa bir ovçu marala tərəf qaçır. Əlində kəmənd olan ovçu kəndiri marala ilişdirirərək sanki geri dartır. Ovçunun bir əli isə dirsəkdən yuxarı qatlanmışdır. Qarşıdan gələn digər ovçunun isə iki qolları yana açılmış və hər iki ayağı yana açılmış şəkildə təsvir olunmuşdur. Bu da onu göstərir ki, sonuncu ovçu qaçmaq istəyən maralın qarşısını kəsir, kəməndlə ov edən yoldaşına kömək edir. Başqa maral təsvirində isə maral iribuynuzlu təsvir olunmuşdur. Hər buynuzunda beş çıxıntı verilmişdir. Maralın bədəni düz xətlə verilmiş və bu maral profildən təsvir edilmiş, qabaq ayaqları və arxa ayaqları ayrı-ayrılıqda göstərilmişdir. Bu təsvirdə maralın qısa quyruğu da nəzərə çarpır.

Digər daşlar üzərində çoxlu sayda keçi təsvirlərinə rast gəlinir. Keçiləri buynuzlarına görə iki yerə ayırmaq olar. İribuynuzlu və nisbətən kiçik buynuzlu keçilər. İri buynuzlu keçilərin buynuzunun ölçüsü bədənin uzunluğu qədərdir. Keçilərin başı isə üçbucaq formasında təsvir olunub. Bir daşda iribuynuzlu keçi ilə yanaşı xırda buynuzlu keçi də təsvir olunub. Bir başqa daşda isə keçinin yanında insan qolları yana açılmış, dirsəkdən yuxarı qatlanmış vəziyyətdə təsvir olunub. Yuxarıda isə dairə təsviri var. Bir daşın üzərində isə keçi ovlanması səhnəsi təsvir edilmişdir. Bu ov səhnəsi də məharətlə çəkilmişdir. Pusquda durmuş ovu kamanın yayını çəkərək təhlükədən xəbəri olmayan dağ keçisini nişan alır.

Kəlbəcərin qayaüstü təsvirlərində bəbir təsvirləri də yüstün yer tutur. Onlar yığcam, lakin olduqca canlı və dinamik təsir bağışlayır. Maraqlıdır ki, həm Qobustanda, həm Gəmiqayada, həm də Dəlidağda aşkar olunmuş bəbir təsvirlərinin ümumi oxşarlığı çoxdur. Lakin Dəlidağda adlarını çəkdiyimiz abidələrdən fərqli olaraq bəbirlər sürü halında təsvir edilmişdir. Bu daşın üzərində sürü halında hərəkət edən 9 bəbir təsvir edilmişdir. Maraqlıdır ki, bu bəbirlərin heç biri digərinə bənzəmir və bir-birini təkrar etmir. Sürü halında olan bəbirlər eyni istiqamətlə təsvir edilməklə onların birlikdə hərəkət etdiyi göstərilmişdir. Bəbirlərin ikisinin quyruğu düz, yeddisinin quyruğu isə yuxarı qatlanmış formada həkk edilmişdir. Başqa bir daşda isə bucaqları iti olmayan kvadrat ona bitişik yarımdairə fiquru təsvir olunub. Bu təsvirin yanında isə iki bəbir təsviri var. Buradakı bəbirlərin əvvəlki bəbirlərdən fərqli olaraq başlarını daha çox aşağı əyməsi və qeyd olunan təsvirin su hövzəsində olduğunu güman etmək olar. Tədqiqatçı-arxeoloq alim Qüdrət İsmayılzadə bu təsvirlərin eradan əvvəl III minilliklə I minillik arasında çəkildiyini qeyd etmişdir (9).

Azərbaycan ərazisinin qədim sakinləri müxtəlif dövrlərdə daşlar üzərində yüzlərlə heyvan (vəhşi və ev) təsvirlərini çəkmişlər. Bəziləri isə ovçuluq, totem-dini inanclarla səsləşən heyvan təsvirləridir. Qobustanda ən qədim heyvan təsvirləri olan öküz təsvirləri e.ə. VII-IV minilliklərə aid edilir (10). Digər heyvan təsvirləri isə IV-III minilliklərlə orta əsrlər arasındakı dövrlərdə çəkilmişdir. Gəmiqayada və Dəlidağdakı heyvan rəsmləri isə tunc dövründə həmin ərazidə yaşamış əkinçi maldar tayfaların iqtisadi və ictimai həyatına dair qiymətli mənbələrdir. Qayalar üzərində heyvanların ustalıqla təsvir edilməsi ölkəmizin qədim sakinlərinin bu yerlərin faunasına və rəssamlıq texnikasına yaxşı



bələd olduqlarını göstərir. Çox təəssüf ki, Kəlbəcər rayonun işğal altında olması, Gəmiqayanın Ermənistanla sərhəddə yerləşməsi onları öyrənmək baxımdan çətinliklər yaradır. Gələcəkdə heyvan təsvirlərinin hərtərəfli öyrənilməsi tarix, incəsənət, təbiət elmləri üçün yeni səhifələr açacaqdır.

## Ədəbiyyat

1. Формозов А.А.Наскальные изображения и их изучение. Москва, Изд., Наука, 1987, с.15-20.
2. Первобытное искусство. Сб. статей. Новосибирск, 1971.
3. Джафарзаде И.М. Гобустан - наскальные изображения. Баку, Изд. Элм, 1973.
4. Столяр А.Д. История первобытного искусства. Москва, Изд. Наука, 1982.
5. Исмаилзаде Г.С. Исследование петроглифов Кельбаджарского высокогорья. АО 1986 г. Москва, Изд. Наука, 1987, с. 550-551; Алиев В.Г. Петроглифы Гемигая. Баку, Изд. Элм, 1985; Müseyibli N. Gəmiqaya. Бакы, «Чашыоглу», 2004.
6. Алиев В.Г. Петроглифы Гемигая. Баку, Изд. Элм, 1985.
7. Müseyibli N. s. 14-15.
8. İsmayılzadə Q. Göstərilən əsəri.
9. Исмаилзаде Г.С. К историко-культурной интерпретации древних наскальных изображений на территории Азербайджана. Сб. статей –Проблемы наскальных изображений в СССР. Москва, Изд. Наука, 1990, с. 118-123.
10. Фараджова М.Н. К вопросу датировки наскальных изображений археологических комплексов Гобустана. Журнал «Ирс», 2008, № 6, с. 34-42; Исмаилзаде Г.С. К вопросу хронологической последовательности наскальных изображений Гобустана. Журнал «Azərbaycan arxeologiyası». Bakı, Xəzər nəşriyyatı 2015, № 1, с. 19-31.

## FAUNA OF THE HIGH MOUNTAINOUS AREAS OF AZERBAIJAN IN PETROGLYHPS OF GEMIGAYA AND KALBAJAR

**Elnur Imanov**

**Summary**

**Key words: High Mountainous, petroglyph, Bronze Age, stone, carving, rock, instrument**

The article is dedicated to description of fauna of Gemigaya and Kalbajar, petroglyphs. They include carvings of both domestic and wild animals. The wild animals, such as mountain goats, leopards, wolves and others were described in the

carvings. There are whole scenes related to hunting. Petroglyphs of both Gemigaya and Kalbajar represent the fauna of higher mountainous areas of ancient Azerbaijan.

# ЖИВОТНЫЙ МИР ВЫСОКОГОРНЫХ ЗОН АЗЕРБАЙДЖАНА В НАСКАЛЬНЫХ ИЗОБРАЖЕНИЯХ ГЕМИГАЯ И КЕЛЬБАДЖАРА

**Эльнур Иманов**

## Резюме

**Ключевые слова: высокогорье, наскальные изображения, бронзовый век, камень, рисунок, скала, выбивка, орудие.**

Настоящая работа посвящена наскальным изображениям Гемигая и Кельбаджара, в которых отражен животный мир высокогорных мест Азербайджана. К ним относятся изображения как домашних, так и диких животных. К последним принадлежат изображения горных козлов, леопардов, волков и др. Имеются целые сцены, связанные с охотой. Отрадно, что наскальные изображения как Гемигая, так и Кельбаджара словно красочная энциклопедия отражают богатую фауну Азербайджана древнейших времен.

# AZƏRBAYCAN ƏRAZİSİNDƏ İLK VƏ ORTA TUNC DÖVRÜ ABİDƏLƏRİNDƏ AŞKAR OLUNMUŞ OX VƏ NİZƏ UCLUQLARININ ANALİTİK TƏDQİQİ

**Nəsibə Mustafayeva**
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)
MustafayevaNasiba@yahoo.com

**Açar sözlər: Azərbaycan, ox ucluğu, nizə ucluğu, arxeoloji abidələr, analitik tədqiqat .**

Azərbaycan Eneolit dövrünün son mərhələsində metallurgiyanın inkişafı nəticəsində yeni arxeoloji dövr-Tunc dövrü təşəkkül tapmışdır. Hələ qədim zamanlardan Azərbaycan ərazisi mis yataqları ilə zəngin idi. Məlumdur ki, təmiz misdən hazırlanmış əşyalar çox kövrək olub, tez sıradan çıxırdı. Misdən hazırlanmış əşyaların davamlılığını artırmaq üçün misin tərkibinə sürmə, mərgümüş və nikel kimi qatqılar əlavə edilmişdir. Tuncun sonrakı mərhələsinə misin davamlılığını artırmaq üçün aşqar kimi qalaydan da istifadə olunmuşdur.

Misin tərkibinə aşqarlar (sürmə, mərgümüş, nikel, qalay) əlavə edildikdən sonra alınmış ərinti tunc adlanır. Azərbaycanda Tunc dövrü e. ə IV minilliyin ikinci yarısında başlamış və II minilliyin sonuna qədər davam etmişdir. Həmin dövrə xas olan silahlar, əmək alətləri və hətta bəzək əşyaları da tuncdan hazırlandığı üçün bu dövr Tunc dövrü adlandırılmışdır (1, s.35).

Azərbaycanda Tunc dövrü üç mərhələdən ibarətdir: ilk, orta və son Tunc dövrü. İlk Tunc dövrü Kür-Araz mədəniyyəti adlanır və e. ə IV minilliyin ikinci yarısından III minilliyin sonuna qədərki dövrü əhatə edir (1, s. 36). Bu dövrün əsas cəhətlərindən biri metallurgiya və metalişləmənin sürətli inkişaf etməsidir. Beləliklə, ilk Tunc dövrünə aid yaşayış məskənlərində arxeoloji qazıntılar nəticəsinə metallurgiya və metalişləmə ilə bağlı texnoloji prosesləri əks etdirən materiallar (soba, qəlib) tapılmışdır. Məsələn, Babadərviş yaşayış məskənində metaləridən soba aşkarlanmışdır (1, s.39).

Orta Tunc dövrü e. ə III minilliyin axırıncı rübündən başlayaraq e. ə II minilliyin ortalarına qədər davam etmişdir. Azərbaycanda Orta Tunc dövrü Qarabağda tədqiq edilmişdir. Bu dövrdə metallurgiya və metalişləmə sənətinin inkişafında yeni mərhələ başlanır. Orta Tunc dövründə arsen (mərgümüş), qarışıqlı tuncla bərabər qalaylı tuncdan da istifadə edilirdi. Lakin qalay qarışıqlı tunc daha keyfiyyətli və davamlı olması ilə fərqlənirdi. Belə qatışığa malik olan tuncdan hazırlanmış əmək alətləri və silahlar davamlılığı və möhkəmliyi ilə seçilirdi (1, s.44). Tuncun tərkibinə qalaydan əlavə qurğuşun, sürmə və başqa aşqarlar da qatılırdı. Qurğuşundan ərintinin plastikliyini artırmaq üçün istifadə edilirdi (2, s.91).

Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi mədəniyyət nümunələri arasında ox və nizə ucluqlarının özünə məxsus yeri vardır. Tarixi və coğrafi mövqeyi baxımından bu ərazilərdə ox və nizə ucluqlarının aşkarlanması heç də təsadüfü deyildir. Aşkarlanmış ox ucluqları həm ölçülərinə görə, həm də formasına görə bir-birindən fərqlənir. Ümumiyyətlə ox ucluqları formasına görə iki tipə ayrılır: yarpaqvari və üçbucaq şəkilli. Eyni zamanda ox ucluqları iki üsulla: tökmə və qəlib üsulu ilə hazırlanırdı (3, s.105-106). Hal-hazırda bütün dünyada arxeoloji tədqiqatların elmi bazası analitik nəticələrin əsasında qurulmuşdur.

1926-cı ildə İ. İ. Meşşaninov tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisində arxeoloji qazıntılar aparılmışdır. Arxeoloji qazıntılar zamanı Qızılburun ərazisindəki kurqan və qəbir abidələrindən ilk və orta Tunc dövrünə aid edilən xeyli sayda maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Həmin maddi mədəniyyət nümunələri içərisindən 13 ədəd ox və ox ucluqları aşkarlanmışdır. Həmin ox ucluqları e. ə II minilliyə aid edilir. Bu ox ucluqları spektral analiz edilmək üçün AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Arxeoloji Texnologiya Sektoruna təqdim edilmişdir. Professor İ. R. Səlimxanovun rəhbərliyi altında bu tapılmış metal əşyaların tərkibini müəyyən etmək üçün spektral analiz edilmişdir (4,s.90-106). Analizlərin nəticəsi aşağıda göstərildiyi kimi olmuşdur:

1.Ox ucluğunun çəkisi 13 q olub, qarışıq metallardan hazırlanmasına baxmayaraq, əsasən mis tərkiblidir. Baxmayaraq ki, bu ox ucluqları əsirlər boyu torpağın altında qalmışdır və üst təbəqəsi oksidləşmişdir. Oksidləşməmiş metal hissədən nümunə götürmək mümkün olmuşdur.

2.Ox ucluğunun çəkisi 8 q olub, qarışıq metallardan hazırlanmasına baxmayaraq, əsasən tərkibi misdən ibarətdir. Əşyanın üzəri patina təbəqəsi ilə örtülmüşdür və spektral analiz üçün nümunə patina təbəqəsindən götürülmüşdür.

3.Ox ucluğunun çəkisi 6 q olub, ikinci əşyada olduğu kimi eynilə patina təbəqəsi ilə örtülmüşdür və burada da analiz üçün nümunə patina təbəqəsindən götürülmüşdür. Spektral analizin nəticəsinə əsasən tərkibi mis və qurğuşundan (1,46%) ibarət olmuşdur.

4.Ox ucluğunun çəkisi 15 q olub, vəziyyəti qənaətbəxşdir. Yəni korroziyaya məruz qalmamışdır. Metaldan götürülmüş nümunə əsasında spektral analiz edilmiş və məlum olmuşdur ki, bu ox ucluğu arsenli tuncdan hazırlanmışdır.

5.Ox ucluğunun çəkisi 11q olub, uzunluğu 7 sm-dir. Spektral analizin nəticəsinə əsasən bu ox ucluğu da mis tərkiblidir.

6.Ox ucluğunun çəkisi 9 q olub, uzunluğu isə 6 sm-dir. Analizin nəticəsinə görə qarışıq metallardan hazırlanmasına baxmayaraq əsasən mis tərkiblidir.

**Cədvəl**

Azərbaycan ərazisində aşkar olunmuş ilk və orta tunc dövrlərinə aid edilən nizə və ox ucluqlarının miqdari –spektral analizləriniin nəticələri

| № | Əşyanın adı, çəkisi (qramla) | Əşyaların tərkibi %-lə | | | | | | | | | | | | Ərintinin tipi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cu | Sn | Pb | Zn | As | Sb | Au | Ag | Bi | Ni | Co | Fe | |
| 1 | Ox ucluğu, 13 q. | əsas | 0.1 | 0.004 | 0.03 | 0.3 | 0.09 | 0 | 0.04 | 0.002 | 0.03 | 0 | 0.006 | Cu |
| 2 | Ox ucluğu, 8 q. | əsas | 0.06 | 0.2 | 0.1 | 0.4 | 0.2 | 0 | 0.03 | 0.006 | 0.1 | 0.001 | 0.1 | Cu |
| 3 | Ox ucluğu, 6 q. | əsas | 0.2 | 1.46 | 0.1 | 0.2 | 0.2 | 0.002 | 0.04 | 0.05 | 0.08 | 0.002 | 0.2 | Cu-Pb |
| 4 | Ox ucluğu, 15 q. | əsas | 0.15 | 0.03 | 0.03 | 0.8 | 0.1 | 0 | 0.02 | 0.01 | 0.08 | 0 | 0.03 | Cu-As |
| 5 | Ox ucluğu, 11 q. uz. 7 sm. | 98.6 | 0.1 | 0.07 | 0.06 | 0.3 | 0.15 | 90 | 0.03 | 0.005 | 0.02 | 0 | 0.04 | Cu |
| 6 | Ox ucluğu, 9 q. uz. 6 sm. | əsas | 0.08 | 0.04 | 0.04 | 0.35 | 0.46 | 0 | 0.035 | 0.005 | - | - | - | Cu |
| 7 | Ox 4 q. uz. 6.5 sm. | əsas | 2.6 | 1.24 | 0.15 | 0.35 | 0.1 | 0.002 | 0.027 | 0.004 | 0.2 | 0.2 | 0.01 | Cu-Sn-Pb |
| 8 | Ox 11.5 q. uz. 9.5 sm. | əsas | 6 | 0.09 | 0.2 | 0.3 | 0.05 | 0 | 0.03 | 0.001 | 0.1 | 0.01 | 0.01 | Cu-Sn |
| 9 | Ox, 11.2 q. uz. 8.5 sm. | 97.8 | 0.06 | 0.1 | 0.06 | 1.2 | 0.1 | 0 | 0.02 | 0.002 | 0.05 | 0 | 0.2 | Cu-As |
| 10 | Ox, 6.2 q. uz. 5.2 sm. | əsas | 0.55 | 0.3 | 0.2 | 1 | 0.33 | 0 | 0.022 | 0.002 | 0.1 | 0 | 0 | Cu-Sn-As |
| 11 | Ox, 8 q. uz. 6.5 sm. | 99.1 | 0.04 | 0.01 | 0.15 | 0.04 | 0.003 | 0 | 0.082 | 0 | 0.08 | 0.001 | 0.05 | Cu |
| 12 | Ox, 6.5 q. uz. 6.4 sm. | əsas | 0.8 | 0.15 | 0.15 | 0.05 | 0.02 | 0 | 0.082 | 0.001 | çox | 0.001 | 0.02 | Cu-Sn-Ni |
| 13 | Ox, 8 q. uz. 7.7 sm. | əsas | 0.05 | 0.003 | 0.4 | 0 | 0 | 0 | 0.07 | 0 | 0.5 | 0.002 | 0.3 | Cu-Ni |
| 14 | Ox. | 95.5 | 1.93 | 0.18 | 0 | 0.56 | 0.04 | 0 | 0.1 | 0.006 | 0.02 | 0.005 | 0.3 | Cu-Sn-As |
| 15 | Nizə | əsas | 3.92 | 0.07 | 0 | 0.75 | 0.015 | 0.001 | 0.01 | 0.015 | 0.025 | 0.007 | 0.4 | Cu-Sn-As |
| 16 | Nizə ucluğu, 9 q. | 96 | 2.7 | 0.07 | 0.25 | 0.18 | 0.03 | 0.009 | 0.08 | 0.005 | 0.02 | 0.008 | 0.18 | Cu-Sn |
| 17 | Nizə ucluğu. | 92.2 | 0.04 | 4.9 | 0.3 | 1.4 | 0.2 | 0 | 0 | 0.005 | 0.2 | 0 | 0.2 | Cu-Pb-As |
| 18 | Ox ucluğu | əsas | 9 | 0.78 | 0.3 | 0.6 | 0.1 | 0.0003 | 0.06 | 0.005 | 0.6 | 0.09 | 0.6 | Cu-Sn-Pb-As-Ni-Fe |
| 19 | Ox ucluğu, 9 q. | 96 | 2.7 | 0.07 | 0.25 | 0.18 | 0.03 | 0.0003 | 0.08 | 0.005 | 0.02 | 0.008 | 0.16 | Cu-Sn |
| 20 | Ox ucluğu, 12.5 q. | əsas | 9 | 0.78 | 0.3 | 0.6 | 0.1 | 0.0003 | 0.06 | 0.005 | 0.6 | - | 0.6 | Cu-Sn-Pb-As-Ni-Fe |
| 21 | Nizə ucluğu, 3 q. | əsas | 12 | 0.55 | 0.01 | 0.4 | 0.05 | 0 | 0.07 | 0.02 | 0.015 | 0.002 | 0.03 | Cu-Sn-Pb |
| 22 | Ox ucluğu, 6.5 q. | əsas | 10 | 0.3 | 0 | 0.6 | 0.25 | 0 | 0.03 | 0.003 | 0.04 | 0.01 | 0 | Cu-Sn-As |
| 23 | Ox ucluğu, 5.5 q. | əsas | 3.8 | 0.2 | 0 | 0.4 | 0.2 | 0 | 0.036 | 0.004 | 0.02 | 0.03 | 0.035 | Cu-Sn |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 24 | Böyük nizə ucluğu, 215 q | əsas | 0.02 | 0.5 | - | 4.6 | 0.02 | 0 | 0.052 | 0 | 0.01 | 0 | 0.2 | Cu-Pb-As |
| 25 | Kiçik nizə ucluğu, 42 q. | əsas | 0.1 | 0.1 | - | 2.4 | 0.3 | 0 | 0.12 | 0.003 | 0.1 | 0 | 0.1 | Cu-As |
| 26 | Nizə ucluğu, 61.5 q. | əsas | 6.92 | 0.04 | 0 | 1.4 | 0.13 | 0 | 0.059 | 0.03 | 0.044 | 0 | 0.01 | Cu-Sn-As |
| 27 | Nizə ucluğu, 20.4 q. | əsas | 8.7 | 0.03 | 0 | 0.3 | 0.035 | 0 | 0.17 | 0 | 0.3 | 0 | 0.05 | Cu-Sn |
| 28 | Nizə ucluğu, 65 q. | əsas | 4.43 | 0.03 | 0 | 0.32 | 0.015 | 0 | 0.088 | 0 | 0.19 | 0.006 | 0.1 | Cu-Sn |
| 29 | Nizə ucluğu, 3 q. | əsas | 0 | 0 | 0 | 1.45 | 0 | 0 | 0.13 | 0 | 0.002 | 0 | 0.07 | Cu-As |
| 30 | Nizə ucluğu, 8 q. | əsas | 0 | 0 | 0 | 0.95 | 0 | 0.002 | 0.039 | 0 | 0.001 | 0 | 0.002 | Cu-As |
| 31 | Nizə ucluğu, 7 q. | əsas | 0 | 0 | 0 | 1.51 | 0 | 0 | 0.002 | 0 | 0.002 | 0 | 0.46 | Cu-As |
| 32 | Nizə ucluğu, 3.6 q. | əsas | 3.35 | 0.04 | 0.01 | 0.64 | 0.2 | 0.009 | 0.05 | 0.03 | 0.007 | 0 | 0.2 | Cu-Sn-As |
| 33 | Ox ucluğu | 0 | 0.015 | 0.05 | 0 | 0.3 | 0.2 | 0 | əsas | 0.09 | 0.01 | 0 | 0.07 | Ag |
| 34 | Ox ucluğu, 17.8 q. | əsas | 5.5 | 0.03 | 0 | 2.5 | 0 | 0 | 0.007 | 0.01 | 0.08 | 0.005 | 0.01 | Cu-Sn-As |
| 35 | Ox ucluğu, 13.4 q. | əsas | 2.7 | 0.18 | 0 | 0.25 | 0 | 0 | 0.05 | 0.005 | 0.021 | 0 | 0.005 | Cu-Sn |
| 36 | Ox ucluğu, 218 q. | əsas | 7.5 | 0.005 | 0 | 0.07 | 0 | 0 | 0.11 | 0.005 | 0.002 | 0 | 0.1 | Cu-Sn |
| 37 | Ox ucluğu, 69.5 q. | əsas | 8.15 | 0.1 | 0 | 0.15 | 0 | 0 | 0.022 | 0.03 | 0.01 | 0.025 | 0.035 | Cu-Sn |
| 38 | Nizə ucluğu, 3.2 q. | əsas | 5.05 | 0.1 | 0 | 0.1 | 0.12 | 0 | 0.005 | 0.004 | 0.023 | 0.3 | 0.1 | Cu-Sn |
| 39 | Ox ucluğu, 13.7 q. | əsas | 3.15 | 0.42 | 0 | 0.3 | 0.3 | 0 | 0.04 | 0 | 0.05 | 0 | 0.1 | Cu-Sn |
| 40 | Nizə ucluğu. | əsas | 0.03 | 0.04 | 0.2 | 0.7 | 0.2 | 0 | 0.01 | 0.01 | 0.004 | 0 | 0.05 | Cu-As |
| 41 | Ox ucluğu. | əsas | 0.001 | 0.04 | 0.2 | 0.25 | 0.15 | 0 | 0.01 | 0.025 | 0.01 | 0 | 0.07 | Cu |
| 42 | Nizə ucluğu, 7q. uz. 8.5sı | əsas | 0.5 | 0.3 | 0.01 | 0.5 | 0.05 | 0.2 | 0 | 0.05 | 0.05 | 0.3 | 0.2 | Cu-Sn-As |
| 43 | Nizə ucluğu, 320.5 q. | əsas | 10.8 | 5.6 | 0.3 | 0.2 | 0.2 | 0 | 0.056 | 0.03 | 0.005 | 0.005 | 0 | Cu-Sn-Pb |

**Qeyd:** № 1- 13 Naxçıvan MR, Qızılburun daş qutu qəbir, arxeoloq İ.İ. Meşşaninov; № 13-15 Naxçıvan MR, Qızılburun daş qutu qəbir, arxeoloq P. V. Fyodorov; № 16-20 Qazax rayonu Babadərviş torpaq qəbir, arxeoloq İ. H. Nərimanov ; № 21 Naxçıvan MR, təsadüfü tapıntı; № 22-23 Şəmkir rayonu Keçili kəndi. təsadüfü tapıntı; № 24-25 Astara r. . Telman kənd yaxınlığında kurqan, arxeoloq F. R. Mahmudov; № 26-28 Qobustan, 9, 15, 16 № -li kurqanlar, arxeoloqlar C. N. Rüstəmov, F. M. Muradova; № 29-31 Füzuli r.ayonu Qaraköpəktəpə, arxeoloq Q. S. İsmayılov; № 32 Abşeron yarımadası Türkan kəndi arxeoloq Q. M. Aslanov; № 33-36 Cəlilabad rayonu Üçtəpə kəndi Əliköməktəpə 80 № -li sallama qəbir, arxeoloq F.M. Mahmudov; № 38 Tovuz rayonu Böyükqışlaq kəndi geoloq N. M. Səlimxanov; № 39, Laçın rayonu Alxaslı kəndi təsadüfü tapıntı, təqdim edən V. H. Əliyev; № 40-41 Qazax rayonu Daşsalahlı kəndi № 1, 2 –li kurqan, arxeoloqlar C. N. Rüstəmov, F. M. Muradova; № 42 Naxçıvan MR Aşağı–daşarx kəndi, arxeoloq V.H. Əliyev və S. A. Aşurov; № 43 Şəki şəhərinin yaxınlığında , arxeoloq T. İ. Axundov.

7.Ox ucluğunun çəkisi 4 q, uzunluğu isə 6,5 sm-dir. Analizin nəticəsinə görə ox ucluğu qalaylı və qurğuşunlu tuncdan hazırlanmışdır.

8.Tapılmış oxun çəkisi 11,5 q olub uzunluğu 9,5 sm-dir. Bu ox ucluğunun da, spektral analizin nəticəsinə görə tərkibi təyin edilmiş və qalaylı tuncdan hazırlandığı müəyyən olunmuşdur.

9.Tapılmış oxun çəkisi 6,2 q olub, uzunluğu isə 8,5 sm-dir. Spektral analizin nəticələrinə görə qarışıq metallardan hazırlanmasına baxmayaraq əsasən mis tərkiblidir.

10.Tapılmış oxun çəkisi 6,2 q olub, uzunluğu 5,2 sm-dir. Spektral analizin nəticələrinə əsasən tərkibi mis və qalay əsaslıdır. Deməli, bu ox qalaylı tuncdan hazırlanmışdır.

11.Tapılmış oxun çəkisi 8 q olub, uzunluğu isə 6,5 sm-dir. Spektral analizin nəticələrinə görə tərkibi mis əsaslıdır.

12.Tapılmış oxun çəkisi 6,5 q olub, uzunluğu isə 6,4 sm-dir. Spektral analizin nəticələrinə əsasən tərkibi mis və qalaydan ibarətdir. Deməli qalaylı tuncdan hazırlanmışdır.

13.Tapılmış oxun çəkisi 8 q olub, uzunluğu isə 7,7 sm-dir. Analizin nəticəsinə görə müəyyən olunmuşdur ki, tərkibi mis əsaslıdır.

1895-ci ildə həmin ərazidə P. V. Fyodorov tərəfindən daş qutu qəbirdən bir ədəd ox və bir ədəd nizə aşkar edilmişdir. Bu əşyalar həddindən artıq korroziyaya uğradığına görə onların çəkisini müəyyən etmək mümkün olmamışdır. Tapılmış oxun spektral analizinə görə qarışıq metaldan hazırlanmasına baxmayaraq mis əsaslı olduğu aşkarlanmışdır. Nizənin spektral analizinin nəticələrinə görə mis, qalay və arsendən ibarət olduğu aşkar edilmişdir. Deməli tapılmış nizə qalaylı və arsenli tuncdan hazırlanmışdır.

1961-ci ildə İ. H. Nərimanov tərəfindən Qazax rayonu Ağstafa çayının sahilində, Babadərviş adlanan ərazidə arxeoloji qazıntılar aparılmışdır. Bu ərazidə torpaq qəbirdən aşkar edilmiş maddi-mədəniyyət nümunələrindən, Tunc dövrünə aid edilən iki ədəd nizə ucluğu və üç ədəd ox ucluğu tapılmışdır. Bu isə torpaqda olan dəmirin metal üzərinə çökmüş toz hissəcikləridir. Bu tapıntılar e. ə II minilliyin I yarısına aid edilir. Həmin əşyalar spektral analiz edilməsi üçün Arxeoloji Texnologiya Sektoruna təqdim olunmuşdur. Təqdim edilmiş əşyaların əsrlər boyu torpaq altında qalmasına baxmayaraq, tam korroziyaya uğramamışdır. Bu səbəbdən analiz aparmaq üçün nümunə götürmək mümkün olmuşdur. Aparılmış analizlər nəticəsində müəyyən edilmişdir ki, birinci nizə ucluğu (9 q.) tərkibi mis-qalay, yəni qalaylı tuncdan, ikinci nizə ucluğunun tərkibi mis, qurğuşun, arsendən, yəni arsenliqurğuşunlu tuncdan ibarətdir. Ox ucluqlarına gəldikdə isə birinci ox ucluğunun tərkibi mis-qalay-qurğuşun-arsendən, ikinci ox ucluğunun (9 q) tərkibi isə mis və qalaydan ibarətdir. Üçüncü ox ucluğunun (12,5 q) tərkibi isə tamamilə aş-

qardan hazırlanmışdır. Belə ki, bu ox ucluğunun tərkibində 0,6% dəmir də aşkar edilmişdir.

10 sentyabr 1963 tarixində Naxçıvan MR ərazisində təsadüf nəticəsində çəkisi 3 q olan nizə ucluğunun fraqmenti tapılmışdır. Tapılmış fraqment, orta Tunc dövrünə aid edilmişdir və V. H. Əliyev tərəfindən Arxeoloji Texnologiya Sektoruna təqdim olunmuşdur. Təqdim edilmiş fraqment, tamamilə oksidləşmiş vəziyyətdə olmuşdur. Spektral analizin nəticələrinə görə əşyanın tərkibi mis, qalay və qurğuşundan ibarət olmuşdur. Deməli nizə ucluğu, qalaylı və qurğuşunlu tuncdan hazırlanmışdır.

Şəmkir rayonunun Keçili kəndində (Kür çayının sağ sahili) fəhlələr kanalı təmizləyən zaman təsadüfən iki ədəd ox ucluğu tapmışlar. Həmin ox ucluqları 22 noyabr 1963-cü ildə İ. H. Nərimanov tərəfindən analiz etmək üçün Arxeoloji-Texnologiya Sektoruna təqdim edilmişdir. Hər iki ox ucluğu korroziyaya uğramış halda tapılmışdır. Lakin buna baxmayaraq, metal təbəqədən nümunə götürmək mümkün olmuşdur. Birinci ox ucluğunun (6,5 q), tərkibi mis, qalay və arsendən ibarət olmuşdur. Yəni arsenli və qalaylı tuncdan hazırlanmışdır. İkinci ox ucluğu (5,5 q), tərkibi isə mis və qalaydan ibarət olmuşdur. Yəni qalaylı tuncdan hazırlanmışdır.

Astara rayonu ərazisində F. R. Mahmudov tərəfindən aparılan arxeoloji qazıntılar zamanı Telman kəndi ərazisindən 1saylı kurqandan iki ədəd nizə ucluğu aşkarlanmışdır. Bu nizə ucluqları ölçüsünə görə birinci böyük nizə ucluğu 215 q, ikinci kiçik nizə ucluğu 42 q çəkiyə malik olmuşdur. Nizə ucluqları e. ə III min illiyə aid edilir və əsirlər boyu torpaq altında qalmasına baxmayaraq metal tam məhv olmamışdır. Spektral analiz üçün metal təbəqədən nümunə götürmək mümkün olmuşdur. Analiz nəticəsində birinci böyük nizə ucluğunun tərkibi mis, qalay və arsendən, ikinci kiçik nizə ucluğunun tərkibi isə mis və arsendən ibarət olduğu müəyyənləşdirilmişdir. Deməli böyük nizə ucluğu qurğuşunlu və arsenli tuncdan, ikinci kiçik nizə ucluğu isə arsenli tuncdan hazırlanmışdır.

1970-ci ildə C. N. Rüstəmov və F. M Muradova tərəfindən Qobustan ərazisində aparılan arxeoloji qazıntılar zamanı e. ə II minilliyin I yarısına aid edilən üç ədəd nizə ucluğu aşkar edilmişdir. 15 saylı kurqandan tapılmış nizə ucluğunun çəkisi 61,5 q, 9 nömrəli kurqandan tapılmış nizə ucluğunun çəkisi 20.4 q. 16 saylı kurqandan tapılmış nizə ucluğunun çəkisi 65 q. olmuşdur. Hər üç nizə ucluqlarının tam oksidləşmiş vəziyyətdə olmasına baxmayaraq, analiz üçün nümunə götürmək mümkün olmuşdur. Spektral analizin nəticələrinə görə müəyyən edilmişdir ki, birinci nizə ucluğu mis-qalay-arsen, ikinci nizə ucluğu mis-qalay, üçüncü nizə ucluğu isə mis-qalaydan ibarətdir. Deməli birinci nizə ucluğu arsenli-qalaylı tuncdan, ikinci və üçüncü nizə ucluqları isə qalaylı tuncdan hazırlanmışdır.

1970-cı ildə Q. S. İsmayılov tərəfindən Füzuli rayonu Qaraköpəktəpə ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində üç ədəd nizə ucluqları aşkar edilmişdir. Nizə ucluqları e. ə III minilliyə aid edilmiş və tamamilə oksidləşmiş vəziyyətdə tapılmışdır. Birinci nizə ucluğunun çəkisi 3 q, ikinci nizə ucluğunun çəkisi 8 q, üçüncü nizə ucluğunun çəkisi isə 7 q. olmuşdur. Hər üç nizə ucluğu 09.06.1971 tarixində spektral analiz edilməsi üçün Arxeoloji-Texnologiya Sektoruna təqdim edilmişdir. Analizlərin nəticələrindən məlum olmuşdur ki, hər üç nizə ucluğunun tərkibi mis və arsendən ibarətdir. Deməli hər üç nizə ucluğu arsenli tuncdan hazırlanmışdır.

1972-ci ildə Q. M. Aslanov tərəfindən Abşeron yarımadası Türkan kəndi ərazisində arxeoloji qazıntılar aparılmışdır. Qazıntı zamanı tapılmış maddi-mədəniyyət nümunələri içərisində bir ədəd nizə ucluğu da aşkar olunmuşdur. Həmin nizə ucluğu e. ə III minilliyə aid edilmişdir. Spektral analiz edilməsi üçün Arxeoloji-Texnologiya Sektoruna təqdim edilmişdir. Nizə ucluğunun çəkisi 3.6 q olub, üzəri patina təbəqəsi isə örtülmüş və tam oksidləşmiş vəziyyətdə olmuşdur. Analiz aparmaq üçün nümunə kimi oksidləşmiş toz götürülmüşdür. Spektral analizin nəticəsinə görə nizə ucluğunun tərkibi mis, qalay və arsendən ibarətdir. Deməli tapılmış nizə ucluğu qalaylı-arsenli tuncdan hazırlanmışdır.

F. R. Mahmudov tərəfindən Cəlilabad rayonu Üçtəpə kəndi ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində qəbir abidəsindən e. ə II minilliyə aid ox ucluğu aşkar edilmişdir. 6 fevral 1976-cı ildə spektral analiz edilməsi üçün Arxeoloji-Texnologiya Sektoruna təqdim olmuşdur. Ox ucluğu oksidləşmiş və üzəri patina təbəqəsi ilə örtülmüşdür, lakin nümunə üçün metal təbəqəsindən toz götürmək mümkün olmuşdur. Spektral analizin nəticəsinə görə ox ucluğunun tərkibi əsasən gümüşdən ibarət olmuş, misin cüzi izləri aşkarlanmışdır.

F. R. Mahmudov tərəfindən Cəlilabad rayonu Üçtəpə kəndi ərazisindən, Əliköməktəpə 80 nömrəli sallama qəbr abidəsindən 4 ədəd ox ucluqları aşkar edilmişdir. Aşkar edilmiş ox ucluqları e. ə. II minilliyin birinci yarısına aid edilir. Birinci ox ucluğunun çəkisi 17.8 q, ikinci ox ucluğunun çəkisi 13.4 q, üçüncü ox ucluğunun çəkisi 218 q, dördüncü ox ucluğunun çəkisi isə 69.5 qramdır. Bu ox ucluqları heç bir yerdə nümayiş etdirilməmişdir. Hər bir ox ucluğunun üzəri açıq yaşıl rəngli patina təbəqəsi ilə örtülmüşdür. Spektral analiz etmək üçün oksidləşmiş təbəqədən yonqar götürülmüşdür. Analizin nəticələrinə görə məlum olmuşdur ki, birinci ox ucluğunun tərkibi mis, qalay və arsendən ibarət olub, arsenli-qalaylı tuncdan hazırlanmışdı. İkinci, üçüncü və dördüncü ox ucluqlarının tərkibləri isə eyni olub (mis və qalay) yəni qalaylı tuncdan hazırlanmışdı.

Tovuz rayonu ərazisində geoloqlar Böyükqışlaq kəndində kəşfiyyat işləri apararkən geoloq N. M. Səlimxanov tərəfindən Tunc dövrünə aid edilən

nizə ucluğu tapılmışdır. Nizə ucluğunun təmizlənməmiş halda çəkisi 3.2 q olub, üzəri patina təbəqəsi ilə örtülmüşdür. Buna baxmayaraq metal tam oksidləşməmişdir. Tapılmış nizə ucluğu 17 noyabr 1978-ci il tarixində spektral analiz edilmək üçün Arxeoloji-Texnologiya Sektoruna təqdim edilmişdir. Analiz etmək üçün nümunə tünd qəhvəyi rəngdə oksidləşmiş təbəqədən götürülmüşdür. Nəticəyə görə məlum olmuşdur ki, nizə ucluğunun tərkibi əsasən mis və qalaydan ibarətdir, yəni qalaylı tuncdan hazırlanmışdır.

1979-cu il Laçın rayonunun Alxaslı kəndi ərazisində təsadüf nəticəsində e. ə. III minilliyin ikinci yarısına aid edilən bir ədəd ox ucluğu tapılmışdır. Ox ucluğunun çəkisi 13.7 q. olub, ümumi vəziyyəti qənaətbəxşdir. Yəni metalın üzəri patina təbəqəsi ilə örtülməsinə baxmayaraq, tam oksidləşməmişdir. 30 aprel 1980-cı il tarixində V. H. Əliyev tərəfindən spektral analiz edilməsi üçün Arxeoloji-Texnologiya Sektoruna təqdim edilmişdir. Analiz üçün metal təbəqədən nümunə götürmək mümkün olmuşdur. Nəticəyə görə ox ucluğunun tərkibi mis və qalaydan ibarət olub, yəni qalaylı tuncdan hazırlanmışdır.

Qazax rayonu Daşsalahlı kəndi ərazisində C. N. Rüstəmov və F. M. Muradova tərəfindən aparılan arxeoloji qazıntılar nəticəsində bir ədəd nizə ucluğu və bir ədəd ox ucluğu aşkar edilmişdir. 1 nömrəli kurqandan aşkar olunmuş nizə ucluğu e. ə. III minilliyin sonu II minilliyin başlanğıcına aid edilir. 2 saylı kurqandan tapılmış ox ucluğu isə II milliyin başlanğıcına aid edilir. Hər iki arxeoloji tapıntı 4 dekabr 1989-cu il tarixində spektral analiz edilməsi üçün Arxeoloji-Texnologiya Sektoruna təqdim olunmuşdur. Nizə və ox ucluqlarının üzəri yaşıl patina təbəqəsi ilə örtülmüş və metal tamamilə oksidləşmiş vəziyyətdə olmuşdur. Buna görə də analiz üçün nümunə yaşıl patina təbəqəsində toz halında götürülmüşdür. Spektral analizin nəticəsinə görə nizə ucluğunun tərkibi mis və arsendən, ox ucluğunun tərkibi isə misdən ibarət olmuşdur. Deməli, nizə ucluğu arsenli tuncdan, ox ucluğu isə misdən hazırlanmışdır.

Naxçıvan MR, Aşağı Daşarx kəndi ərazisində V. H. Əliyev və S. A. Aşurov tərəfindən arxeoloji qazıntılar zamanı e. ə. II minilliyə aid edilən yarpaqşəkilli nizə ucluğu aşkarlanmışdır. Nizə ucluğunun çəkisi 7 q, uzunluğu isə 8.5 sm olub, üzəri patina təbəqəsi ilə örtülmüşdür. 10 avqust 2004-cü il tarixində S. A. Aşurov tərəfindən analiz edilməsi üçün Arxeoloji-Texnologiya Sektoruna təqdim edilmişdir. Spektral analiz üçün nümunə oksid tozundan götürülmüşdür və müəyyən edilmişdir ki, nizə ucluğunun tərkibi mis, arsen və qalaydan ibarətdir. Deməli, nizə ucluğu arsenli və qalaylı tuncdan hazırlanmışdır.

1990-cı ildə Şəki şəhərində T. İ Axundov tərəfindən arxeoloji qazıntı zamanı dağılmış qəbirdən nizə ucluğu aşkar edilmişdir. Nizə ucluğu Orta tunc dövrünə aid olub, çəkisi 320.5 qramdır. Arxeoloji tapıntının ilkin və-

ziyyəti qənaətbəxş olmuşdur. 1991-ci ildə analiz edilmək üçün Arxeoloji-Texnologiya Sektoruna təqdim olunmuşdur. Analiz üçün nümunə metal yonqarından götürülmüşdür və nəticəyə görə nizə ucluğunun tərkibi mis, qurğuşun və qalaydan ibarət olduğu aşkar edilmişdir. Deməli, nizə ucluğu qurğuşunlu, qalaylı tuncdan hazırlanmışdır.

Aparılan analizlərin nəticələrini təhlil etdikdə görürük ki, ilk Tunc dövrünə aid edilən nizə və ox ucluqlarının tərkibi, əsasən arsenli tuncdan ibarətdir. Belə ki, cədvəldən göründüyü kimi arsenin faizi 0.001%-dən >0.6 %-ə qədər yüksəlmişdir. Məlumdur ki, Azərbaycanda, əsasən Naxçıvan MR və Gədəbəy rayonu ərazisində zəngin mis yataqları mövcuddur. Eyni zamanda Naxçıvan MR-nın Darıdaq ərazisində Əylisli təzahüründə, Kəlbəcər rayonu ərazisində isə Zod yataqları və Dəvəboynu ərazisində zəngin arsen yataqları mövcuddur. Deməli, İlk Tunc dövrünə aid edilən nizə və ox ucluqları yerli xammaldan hazırlanmışdır.

Orta Tunc dövrünə aid edilən nizə və ox ucluqlarının analizlərini təhlil edərkən məlum oldu ki, bu arxeoloji tapıntılar əsasən arsenli-qalaylı tuncdan hazırlanmışdır. Məlumdur ki, Azərbaycanda qalay yataqları mövcud deyildir. Deməli, bu ox və nizə ucluqlarını hazırlamaq üçün qalay qonşu regionlardan ticarət yolu ilə Azərbaycana gətirilirdi. Qalay Azərbaycana əsasən İrandan (Təbriz yaxınlığındakı yataqlardan), Türkiyədən, Orta Asiyadan və Mesopotamiyadan, Krit adasından gətirilirdi (5, s. 507-512). Bu ticarət Azərbaycanda kifayət qədər mütəşəkkil təşkil olunmuşdur.

**Ədəbiyyat**

1. Z. M. Bünyadov, Y. B. Yüsifov. Azərbaycan tarixi, 1-ci cild, «Çıraq» nəşriyyatı, Bakı, 2009, s. 35-40.
2. М. Н. Рагимова. Из истории использования свинца в древнем и средневековом Азербайджане. Баку, 1978, s. 91
3. Г. Г. Агаев. Шахтахты в эпоху поздней бронзы и раннего железа. Баку-Москва, 2002, s. 105-106.
4. М. А. Кашкай, И .Р. Селимханов. Из истории древней металлургии Кавказа. Изд. Элм, Баку, 1973, s. 90 ( cədvəl), s. 106.
5. А. М. Гасанова. Историко - аналитическое исследование древнейшей оловянистой бронзы Азербайджана и соседних регионов. № 1, “STRATUM plus“, № 2, 2005-2009. Гл. ред. В. Манзура, Санкт-Петербург, Кишинев, Одесса, Бухарест; Культурная антропология и археология, 2009, № 2, s. 507-512.

# ANALITICAL STUDIES OF ARROWHEADS AND SPEARHEADS OF HISTORİCAL SITES OF EARLY AND MIDDLE BRONZE AGES OF AZERBAIJAN

**Nasiba Mustafayeva**

**Summary**

**Key words: Azerbaijan, arrowheads, spearheads, archaeological monuments, analytical research.**

The article is about the results of the study of chemical composition of arrowheads and spearheads revealed in the archaeological sites of the early and middle Bronze Ages of Azerbaijan. It has been determined that the arrowheads and spearheads belonged to the early Bronze Age and were made of arsenic bronze and artifacts belonged to the middle Bronze Age, also made of arsenic tin bronze. These archaeological findings were made of mainly local raw materials, but only tin was brought from neighboring countries such as Iran, Turkey and Mesopotamia.

# АНАЛИТИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ НАКОНЕЧНИКОВ СТРЕЛ И КОПИЙ ИЗ ПАМЯТНИКОВ РАННЕГО И СРЕДНЕ БРОНЗОВОГО ПЕРИОДА НА ТЕРРИТОРИИ АЗЕРБАЙДЖАНА

**Насиба Мустафаева**

**Резюме**

**Ключевые слова: Азербайджан, наконечники стрел, наконечники копий, археологические памятники, аналитическое исследование.**

В статье приводятся результаты исследования химического состава наконечников стрел и копий, обнаруженных в памятниках раннего и среднебронзового века на территории Азербайджана. Установлено,что наконечники стрел и копий, отнесенные к раннему бронзовому периоду, изготовлены из мышьяковистой бронзы, а предметы, отнесенные к среднебронзовому периоду - из мышьяково-оловянной бронзы. Они изготовлены, в основном, из местного сырья, но только олово привезено из соседних стран как Иран, Турция, Месопотамия.

# IV-XIII ƏSRLƏRDƏ QURUÇAY VƏ KÖNDƏLƏNÇAY HÖVZƏSİNDƏ ƏKINÇILIK MƏDƏNİYYƏTİ HAQQINDA

**Elgün Aslanov**
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)
e.aslanov85@mail.ru

**Açar sözlər: əkinçilik, mədəniyyət, arxeologiya, yaşayış yerləri, ticarət**

IV-XIII əsr Quruçay və Köndələnçay hövzəsinin maddi mədəniyyət abidələrindən, onların tarixindən danışarkən bütövlükdə, Qarabağ bölgəsində tarixən mövcud olmuş əkinçilik mədəniyyəti haqqında bəhs etmək zərurəti meydana çıxır. Bu sahədə aparılan tədqiqatlar həmin dövr tarixini öyrənmək baxımından da böyük əhəmiyyətə malikdir.

Hər çayın böyüklüyündən və ya kiçikliyindən asılı olmayaraq öz həyatı, tarixi vardır. Onların tarixi sahillərində mövcud olmuş yaşayış yerlərində, nekropollarda, körpülərdə öz əksini tapmışdır. Quruçay və Köndələnçay məhz elə çaylardandır ki, onların vadiləri qədim abidələrlə zəngindir. Söhbət Azərbaycan torpağının iki əkiz çayı - Araza qədər qoşa axan Quruçay və Köndələnçay haqqında gedir. Köndələnçay Arazın sol qoludur. Xocavənd və Füzuli rayonları ərazisindən axaraq Bala Bəhmənli kəndinin yaxınlığında Araza tökülür. Uzunluğu 89 km, hövzəsinin sahəsi 594 kvadrat km-dir. Başlanğıcını Qarabağ vulkanik yaylasındakı Çaxmaqdağdan (1780 m) səthə çıxan bulaqlardan alır. Ən böyük qolu, soldan Keçəlçay (uzunluğu 29 km) hesab edilir. Axımı əsasən yağış (59%) və yeraltı (29%), qismən də qar (12%) sularından əmələ gəlir. Yazda (mart-may aylarında) yağış suları çayda daşqın əmələ gətirir. Bəzi illərdə payız yağışları da kiçik daşqınlar yaradır (1, s.48-149).

Quruçay Arazın sol qoludur. Xocavənd və Füzuli rayonları ərazisindən axır. Uzunluğu 82 km, hövzəsinin sahəsi 512 kv. km.-dir. Suyunun çox hissəsini yağış (75-80% ) sularından alır. Çayda əsas daşqın yazda olur. Bu dövrdə çayın suyu illik axın həcmindən 30-35 dəfə çox olur. İyul-avqust aylarında çayın suyu çox azalır, bəzi illərdə isə tamamilə quruyur. Payız fəslində yağan yağışlar kiçik daşqınlar əmələ gətirir. Orta illik su sərfi 6,85 kub m/san-dir. İllik axının 26%-i yazda, 41%-i yayda, 21%-i payızda, 12%-i isə qışda keçir. Suyu hidrokarbonatlı-kalsiumlu olmaqla 300 mq/1 minerallaşmaya malikdir. İl boyu duman, çən içində üzən bu Qarabağ vulkanik yaylasının göz yaşı kimi duru, buz kimi soyuq bulaqları hər iki çaya ilk qidanı verir, həyat bəxş edir. Öz başlanğıcında güllü-çiçəkli yamaclar, sıx meşələr arasındakı dar və dərin dərələrdən sürətlə aşağı axan Quruçay və Köndələnçay yalnız dağətəyi hissədə geniş yatağa çıxır və bundan sonra aramla axaraq Araz çayına qovuşur. Onların yaratdığı vadinin uzunluğu 70 km, ən enli

yeri 6 km-dir. Ümumilikdə bu vadi Kiçik Qafqazın cənub-şərq ətəklərini tutmaqla Araz çayına qədər uzanan ensiz bir zolaqdan ibarətdir. Bununla belə, bu kiçik ərazinin müxtəlif təbii şəraiti, səth quruluşu, iqlimi, torpaq-bitki örtüyü, heyvanat aləmi, eləcə də zəngin tarixi keçmişi vardır (2, s.3).

Quruçay və Köndələnçay vadisini tarixi nöqteyi-nəzərdən öyrənmək daha maraqlıdır. Ölkəmizdə ən qədim insan düşərgəsi məhz burada – Quruçayın sol sahilindəki Azıx mağarasında aşkara çıxarılmışdır.1,5 milyon il bundan əvvəl burada ibtidai insan düşərgələri mövcud olmuşdur. Aşağı hissədə əsasən boz və şabalıdı torpaqlar yayılmışdır. Vadinin payına düşən düzən sahənin özü müxtəlif ölçüdə və hündürlükdə təpələrdən ibarətdir. Belə təpələr Quruçay və Köndələnçayın axarı istiqamətində Araza qədər uzanır. Bu təpəliklərdən şimalda Mil düzü başlanır. E.ə. VI-V minillikdə vadinin əlverişli torpaq və iqlim şəraitinə malik bu hissəsində Qədim Şərq ölkələrində olduğu kimi eyni bir vaxtda ibtidai əkinçilik təsərrüfatının əsası qoyulmuş və bununla əlaqədar olaraq ilk oturaq əkinçi icmalara məxsus yaşayış yerləri yaranmışdı (2, s. 4).

Qüdrət İsmayılov "Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri" kitabında qeyd edir ki, e.ə III minillikdə - tuncun mənimsənilməsi dövründə əkinçilik təsərrüfatının genişlənməsi və maldarlığın sürətli inkişafı ilə əlaqədar bu yerlərdən istifadə daha intensiv şəkil almışdı. Bu tarixi dövrün ardıcıl inkişaf mərhələlərində Quruçay və Köndələnçayın sahillərində olan təpələrin hamısı nəsli qəbilə və tayfa icmalarının yaşayış yerlərinə çevrilmişdi. Arxeoloji axtarışlar belə yaşayış yerlərindən vadinin qədim sakinlərinin məişət və təsərrüfatına, ictimai həyatına və mədəniyyətinə dair külli miqdarda maraqlı tapıntı əldə edilmişdir (2, s. 4; 3, s. 254).

Quruçay və Köndələnçay vadisində ən qədim əkinçilik mədəniyyəti ilə bağlı olan abidələr eneolit dövrünə aiddir. Eramızdan əvvəl V-IV minilliklərdə dünya xalqlarının maddi-istehsalında əsaslı dəyişikliklər baş vermiş, ibtidai insanlar ilk dəfə olaraq metal istehsal etməyi, ondan əmək alətləri düzəltməyi öyrənmişdilər. Eneolit dövrü, Azərbaycan tarixində ibtidai-icma quruluşunun maraqlı və eyni zamanda mühüm inkişaf mərhələlərindən birini təşkil edir. Həmin dövrdə oturaq əhalinin istər iqtisadi, istərsə də ictimai həyatında əhəmiyyətli dəyişikliklər baş vermişdi. Bu dövrdə əkinçilik və maldarlıq təsərrüfatlarının əsaslı təşəkkülü, ilk metal-mis alətlərin istehsalı və nəhayət, ictimai münasibətlərdəki dəyişikliklər, hər şeydən əvvəl, məhsuldar qüvvələrin yeni inkişafından irəli gəlmişdi. Arxeoloji tədqiqatlar zamanı vadidə mövcud olan eneolit dövrü abidələrindən çoxlu tikinti qalığı, ibtidai dulus məmulatı, əkinçilik mədəniyyətinə aid müxtəlif əmək alətləri, dənli bitki qalıqları və s. aşkar edilmişdir. Arxeoloji tədqiqatlarla müəyyənləşdirilmişdir ki, vaxtı ilə bu yaşayış yerlərində təsərrüfatın əsasını artıq əkinçilik təşkil etmiş, təsərrüfatda dənli bitkilər istehsalı üstün yer tutmuşdu.

Bu dövrdə Quruçay və Köndələnçay vadisində qədim əkinçilik təsərrüfatının genişlənməsi, maldarlığın yeni yüksəlişi və ümumiyyətlə iqtisadi şəraitin yaxşılaşması əhalinin artmasına imkan yaratmış, əkinçilik üçün geniş sahələrdən istifadə zərurətini doğurmuşdu. Quruçay və Köndələnçay vadisində yeni aşkar edilən yaşayış yerləri sayca çox və bir-birinə yaxın olmaqla bu vadinin eramızdan əvvəl III minillikdə Qafqazın ən sıx əhaliyə malik rayonlarından biri olduğunu sübut etmişdi (4, s.32; 5).

Füzuli rayonunun müxtəlif ərazilərində, xüsusilə də Arazboyu ərazilərdə və Quruçay-Köndələnçay vadisində qədim abidələr mövcuddur. Bu cür abidələrdən biri respublikanın Füzuli şəhəri yaxınlığında Kiçik Qafqazın cənub-şərq ətəklərində yerləşən Qaraköpəktəpə yaşayış yeridir. Quruçay-Köndələnçay vadisinin əlverişli torpaq və iqlim şəraiti Qaraköpəktəpənin gur yaşayış yerinə çevrilməsinə səbəb olmuşdu. Adı qədim türk-oğuz dilində "hündür ulu təpə" mənasını verən bu təpə uzaqdan nəhəng bir ehramı xatırladırdı. Onun hündürlüyü 50 m, diametri şimaldan cənuba 220 metrə qədərdi. Maraqlıdır ki, görkəmli tarixçimiz Abbasqulu ağa Bakıxanovun (1794-1847) məşhur "Gülüstani-İrəm" əsərində bu təpə həm Qaraköpəktəpə, həm də Təxti-Tavus adları ilə qeyd olunmuşdur (Şəkil 1).

Tarixi abidələrə böyük diqqət yetirən görkəmli alim vaxtilə bu təpənin bir sıra mühüm ictimai-siyasi hadisələrin şahidi olduğunu da, vurğulamışdı. (6, s.40-42). Tarixi təpə Azərbaycanın tanınmış tarixçisi Mirzə Adıgözəl bəyin də nəzər diqqətindən yayınmamışdı. Onun dəyərli məlumatlarla zəngin olan "Qarabağnamə" əsərində Qaraköpəktəpənin adı dəfələrlə çəkilmiş, onunla bağlı dəyərli məlumatlar verilmişdi (7, s. 115-125; 8).

XX əsrin 60-cı illərindən başlayaraq arxeoloq Q.İsmayılzadə tərəfindən Qaraköpəktəpədə başlanan arxeoloji tədqiqat işləri 80-ci illərin sonlarınadək 20 ildən artıq bir müddətdə müntəzəm olaraq davam etmişdir. Aparılan geniş miqyaslı qazıntı işləri və axtarışlar nəticəsində yaşayış yerində bir neçə minilliyi əhatə edən qalın mədəni təbəqə, müxtəlif dövrlərin tikintiləri və saysız hesabsız maddi mədəniyyət nümunələri üzə çıxarılmışdır. Hal-hazırda Qaraköpəktəpə Qafqazın ən nadir çoxtəbəqəli arxeoloji abidələrindən biri kimi tanınır (9 ).



Qaraköpəktəpə ilk dəfə mezolit dövründə ovçu babalarımızın diqqətini özünə cəlb etmiş, vaxtaşırı onların sığınacaq yeri olmuşdu.Yaşayış yerində daimi oturaq həyat eramızdan əvvəl VI-V minilliklərdə baş-

lanmışdı. O vaxtdan Qaraköpəktəpə oturaq həyat tərzinə keçmiş əcdadlarımızın əbədi məskəni olmuşdu. Təpədə böyük bir qəbilə icmasına məxsus yaşayış yeri yaranmış və burada ibtidai əkinçi-maldar istehsal təsərrüfatının əsası qoyulmuşdu. Bu dövrdə təpədə məskən salmış qədim babalarımız ilk dəfə olaraq misi kəşf etmiş, mis külçəsini döymək və əritmək yolu ilə ondan ilk metal alətlər, silah nümunələri və bəzək şeyləri düzəltməyi öyrənmişdilər (10, səh. 2-4).

Eramızdan əvvəl IV-III minilliklərdə təpənin üstündə və ətəklərində daş və çiy kərpiclərdən sıx şəkildə yaşayış binaları tikilmiş, ətraf torpaq sahələri bütünlüklə əkinçilik üçün mənimsənilmişdi. Əkinçilik və maldarlıq təsərrüfatının yüksəlişi, metalişləmə, dulusçuluq və başqa sənət sahələrinin geniş inkişafı, şərq ölkələri ilə artan iqtisadi-mədəni əlaqələr çox keçmədən burada yeni ictimai münasibətlərin təşəkkülünə zəmin yaratmış, Qaraköpəktəpənin böyük bir tayfaya məxsus yaşayış yerinə çevrilməsinə gətirib çıxartmışdı (11, səh.9-12).

Qaraköpəktədən tapılan maddi mədəniyyət nümunələrinin böyük hissəsi məhz eramızdan əvvəl III minilliyə aiddir. Bunlar, qədim əkinçilik və maldarlıq təsərrüfatına aid müxtəlif əmək alətlərindən, gildən düzəldilmiş saysız-hesabsız nəfis qablardan, kiçik ölçülü qəribə heykəllərdən, ocaq qurğularından, tunc əşyalardan və s.dən ibarətdir.

Quruçay və Köndələnçay hövzəsində təsərrüfat ənənələri tarixin sonrakı dövürlərində də yüksələn xətlə inkişaf etmişdir.

Quruçay və Köndələnçay hövzəsi, bütövlükdə Qarabağ bölgəsi Alban (Azərbaycan) dövlətinin həm iqtisadi, həm də siyasi cəhətdən mühüm vilayətlərindən olmuşdur. Yazılı mənbələrdən məlum olur ki, ilk orta əsrlər dövründə Qafqaz Albaniyası münbit və geniş torpaq sahələrinə malik idi. Əkinçilik Albaniyada, o cümlədən Quruçay və Köndələnçay hövzəsində ilk orta əsrlər dövründə təsərrüfat həyatının əsas sahələrindən birini, daha doğrusu onun əsasını təşkil edirdi. Quruçay və Köndələnçay hövzəsində təbii coğrafi şərait təsərrüfatın inkişafı üçün geniş imkanlar yaratmışdı. Albaniyada ilk orta əsrlər dövründə əkinçiliyin inkişafını həmin dövrün müəllifləri A.Şirakasi (12, s. 17-19), Alban tarixçisi M.Kalankaytuklu və Ərəb çoğrafiyaşünasları İbn Hövqəl (X əsr) ( 13, s. 88-89), Yaqut Həməvi (1179-1229) (14, s.18), İstəxri (Xəsr) (15, s.11) və başqaları öz məlumatları ilə təsdiq edirlər. İlk orta əsr yazılı mənbələrindən aydın olur ki, Kür və Araz çayları vadilərində, Qarabağ bölgəsində, Mil və Muğan düzlərində və Albaniyanın digər bölgələrində yaşayan insanlar əkinçiliklə məşğul olurdular. Yazılı mənbələrdə əkinçilik təsərrüfatında yerin şumlanması haqqında və becərilməsində istifadə olunan əmək alətləri barədə heç bir məlumat verilməyib. Lakin, geniş arxeoloji tədqiqatlardan və etnoqrafik müşahidələrdən aydın olur ki, ilk orta əsrlər dövründə Albaniyada yerin şumlanması geniş yayıl-

mışdır. O cümlədən, Qarabağ bölgəsində torpaqaların şumlanaraq əkilməsi istisna edilmir. Tədqiqatlardan aydın olur ki, əkin sahələri dəmir gavahınlı xışla şumlanmışdır. Mənbələrdən məlum olur ki, əkin sahələri çaylar, iri arxlar, kəhrizlər və süni suvarma sistemləri (Gavurarx) vasitəsilə suvarılırdı. Qarabağ bölgəsinin Füzuli bölgəsi ilk orta əsrlər dövrü ərzində Albaniyanın mühüm taxılçılıq mərkəzlərindən biri olmuşdur. Bu ərazidə buğda, arpa, qarğıdalı və s kimi təsərrüfat bitkilərinin inkişaf etməsinin əsas səbəblərindən biri bu ərazilərin Quruçay və Köndələnçayın əmələ gətirdiyi münbit qara torpağa malik olmasıdır. Dəclə və Fərat çayları Mesopotamiya ərazisi üçün nə qədər əhəmiyyətli idisə, Quruçay və Köndələnçay çayları da bu ərazi üçün bütün tarixi dövürlərdə bir o qədər əhəmiyyətli olmuşdur.

Becərilmiş taxıl məhsulunun saxlanılması əkinçilikdə əsas amillərdən biri olmuşdur. Bu barədə yazılı məlumatlar kifayət qədər olmasa da, arxeoloji materiallar müəyyən mülahizə yürütməyə imkan verir. Aparılmış arxeoloji qazıntılar nəticəsində məlum olub ki, toplanılmış taxıl növləri dərin qazılmış təsərrüfat quyularında saxlanılırdı. Albaniyanın Mingəçevir yaşayış yerindən çoxlu miqdarda taxıl saxlanılan təsərrüfat quyuları aşkar edilmişdir. Bu quyuların bəzilərinin içərisində buğda, arpa, darı və un saxlanılması müəyyən edilmişdir. Bu cür təsərrüfat quyularına ərazi baxımından çox yaxınlıqda yerləşən Beyləqan ərazisində də (Örənqala yaşayış yeri) rast gəlinmişdir. Bu baxımdan bu cür quyuların Quruçay və Köndələnçay hövzəsində mövcud olması bizdə şübhə doğurmamalıdır. Qaraköpəktəpə yaşayış yerində aparılan arxeoloji qazıntılar zamanı ilk orta əsrlər dövrünü özündə əks etdirən çoxlu sayda maddi mədəniyyət abidələrinə rast gəlinmişdir. İlk orta əsrlərdə Qaraköpəktəpə yenidən böyük yaşayış yeri kimi tanınmışdı. Bəlkə də elə buna görə az vaxtdan sonra o, Azərbaycanı işğal etmiş olan Sasanilər tərəfindən mühüm strateji məntəqəyə çevrilmişdi. Qazıntılar zamanı göstərdiyimiz dövrə aid bina qalığı, emalatxana, içərisində iri ölçülü küplər yerləşdirilmiş anbar və digər tapıntılar üzə çıxarılmışdır.

Quruçay və Köndələnçay hövzəsində ilk orta əsrlər dövrünə aid başqa bir abidə Füzuli şəhərindən azacıq aralı, Mirzə Camallı kəndi yaxınlığında mövcud olan Yedditəpə arxeoloji abidəsidir. Yedditəpədə aşkar edilən maddi mədəniyyət nümunələrinin sayı 500-ə yaxındır və onların hər biri xalqımızın unudulmuş qədim sənət və mədəniyyət salnaməsini öyrənmək, bərpa etmək üçün qiymətli mənbədir.

Yedditəpədə açılmış qəbirlərin dövrü dəqiq öyrənilmiş və onların V-VI əsrlərə aid olduğu müəyyənləşdirilmişdir. Eyni zamanda bu qəbirlərin həmin dövrdə Quruçay və Köndələnçay vadisində yaşamış yerli əhaliyə məxsus olduqu da aydınlaşdırılmışdır. Maraqlıdır ki, bu yerlərin döyüşkən ruhlu, həm də yüksək mədəniyyətə malik qədim sakinləri Sasani İranı, Bi-

zans və hətta Uzaq Roma ilə sıx iqtisadi-mədəni əlaqələrdə olmuş və dövrün mədəni nailiyyətlərindən bacarıqla istifadə etmişdir (2, s.37-38).

VII əsrin ikinci yarısı - X əsrdə Azərbaycanda, o cümlədən Quruçay və Köndələnçay hövzəsində təsərrüfatın, sənətkarlığın, ümumiyyətlə məhsuldar qüvvələrin ahəngdar inkişafı xeyli ləngidi. Təbii ki, bunun başlıca səbəbi Ərəb işğalı olmuşdur. İlk dövrlərdə bu hal daha acınacaqlı idi isə sonrakı dövürlərdə tədricən inkişaf özünü göstərməyə başladı.

VII əsrin ikinci yarısı - X əsrdə Azərbaycanda, o cümlədən Quruçay və Köndələnçay hövzəsində iqtisadi həyatında əkinçilik aparıcı yer tut-maqda idi.

Azərbaycanda əkinçiliyin daha da inkişaf etməsində, onun məhsuldarlığının artmasında müxtəlif quruluşlu şum alətləri böyük rol oynamışdır. Torpağın daha dərin və keyfiyyətli şumlanması təkmilləşdirilmiş kotanların tətbiqi sayəsində mümkün olmuşdu. Torpaqdan asılı olaraq kotan vasitəsilə bir gündə 0,25 hektaradək sahəni şumlamaq olurdu. VII-X əsrlərdə adi kotan torpağın becərilməsi zamanı başlıca alət idi və tarixi Azərbaycanın bütün ərazisində geniş surətdə istifadə edilirdi. Lakin torpağı daha dərin, daha yaxşı şumlamağa imkan verən ağır və yaxud qara kotanın meydana gəlməsi əkinçilik təsərrüfatında baş vermş böyük hadisə oldu. Belə kotanların köməyi ilə əkinçilər həmin bölgələrdə çox böyük sahələri daha yaxşı şumlamaq imkanı əldə edirdilər. Ağır kotan xam torpaqların istifadə edilməsi zamanı xüsusi əhəmiyyət kəsb edirdi. Cənubi Qafqazda, o cümlədən Azərbaycanda VIII-IX əsrlərdən məlum olan qara kotan əkinçilik alətlərinin inkişafı baxımından ən təkmilləşmiş şum aləti hesab edilir. Quruçay və Köndələnçay hövzəsindən çox da uzaqda mövcud olmayan orta əsr Azərbaycan şəhəri olan Beyləqanda (Örənqala yaşayış yerində) aparılan arxeoloji qazıntılar zamanı IX-X əsrlərə aid təbəqələrdə ağır kotanın kifayət dərəcədə geniş ga-vahını, ağır kotanda kəsici vəzifəsini yerinə yetirən bəsit kotan önünün böyük hissəsi aşkar edilmişdi. VII-X əsrlərdə əvvəlki dövrlərdən fərqli olaraq əkinçiliyin müxtəlif sistemləri geniş surətdə yayılmışdı. Bu dövrdə Azərbaycanda torpağın dincə qoyulması sistemi tətbiq edilirdi. Dövrümüzədək qalmış mürəkkəb sistemlər, suvarmanın müxtəlif üsul və vasitələri, qədim kanallar və digər suvarma qurğuları (quyular, kəhrizlər, su anbarları və s.), Azərbaycanda suvarma sisteminin yüksək səviyyəsindən xəbər verir. Azərbaycanın təbiəti, torpaq-iqlim şəraiti və becərilən bitkilərin çoxnövlülüyü öz növbəsində suvarma sistem və üsullarının müxtəlifliyinə də səbəb olmuşdur. Süni suvarmaya əsaslanan əkinçilik təsərrüfatı əsasən iri və kiçik çaylardan götürülən kanal və ana arxlar vasitəsilə suvarılmışdır. Bu məqsədlə də çaylardan kanal və ana arxlar ayrılır, həmin ana arxlardan ayrı-ayrı kəndlərin əkin sahələrini suvarmaq üçün iri və ya kiçik qol arxlar çəkilirdi. Quruçay və Kön-

dələnçay hövzələri şüphəsiz, Azərbycanın bu dövürdə mühüm əkinçilik regionlarından biri olmuşdur (16, s. 107-109).

Ərəb xilafəti dağıldıqdan sonra Azərbaycanda yeni müstəqil dövlətlər yarandı. Bu dövlətlərin mövcud olduğu illər ərzində yaranmış qismən əmin-amanlıq zəminində təsərrüfatın bütün sahələri dirçəlir, əhali artır və məhsuldar qüvvələr inkişaf edirdi.

Azərbaycanda əvvəlki dövrlərdə olduğu kimi, IX-XIII əsrlərdə də təsərrüfatın əsas sahələrindən birini əkinçilik təşkil edirdi Bu dövr özünün yenilikləri ilə əvvəliki dövürlərdən əsaslı şəkildə fərqlənir. Belə ki, əvvəlki dövrlərdən fərqli olaraq əkinçiliyin müxtəlif sistemləri uğurla tətbiq olunurdu. Yazlıq və payızlıq səpini keçirilən ikitarlalı və üçtarlalı əkin sahələri mövcud idi (17, səh. 194). Dəmyə əkinçiliyi ilə yanaşı dağətəyi və qismən də dağlıq rayonlarda arxlar, düzən rayonlarda isə (Mil-Qarabağ və Muğan düzənliklərində) Kür və Araz çaylarından çəkilmiş kanallar (Govurarx) vasitəsilə suvarılan, yəni süni suvarmaya əsaslanan əkinçilik də geniş yayıl-mışdır. Quruçay və Köndələnçay hövzəsinin ən böyük yaşayış yerlərindən biri olmuş Qaraköpəktəpə yaşayış yerinin sonrakı iqtisadi və mədəni yüksəlişi məhs bu dövrdə olmuşdur. Eldənizlər (Atəbəylər) dövlətinin hakimiyyəti dövründə yaşayış yeri özünün çiçəklənmə dövrünü yaşamışdır. Qazıntılar zamanı Qaraköpəktəpədə bu dövrə aid 3 metrdən artıq qalınlıqda mədəni təbəqə və olduqca rəngarəng və nadir tapıntılar aşkara çıxarılmışdır (4.səh, 35-36). Şüşədən hazırlanmış incə bilərziklər, müxtəlif rəng və naxışlarla bəzədilmiş gil qablar, sümükdən yonulmuş bərbəzəkli düymələr, məişət və təsərrüfata aid avadanlıq və s. bu tapıntıların yalnız kiçik bir hissəsidir. Yerli sənətkarlar tərəfindən hazırlanmış bu əşyaların hər biri nadir və nəfis incəsənət nümunəsidir. Mümkündür ki, Qaraköpəktəpə bu dövrdə sıx əhalisi olan böyük bir feodal qəsrinə çevrilmiş, Azərbaycanın və Yaxın Şərqin bir çox sənətkarlıq, ticarət və mədəni mərkəzlərilə əlaqə saxlamışdı. Onun yaxınlığındakı Beyləqan və Bərdə şəhərləri ilə əlaqələri daha sıx olmuşdu. Beyləqan şəhəri bu dövrdə özünün ən inkişaf etmiş dövrünü yaşayırdı ki, bu amil bütövlükdə regionun, həmçinin Quruçay və Köndələnçay hövzəsində həyatın bütün sahələrinin inkişafına öz təsirini göstəririди. Haqqında bəhs etdiyimiz dövrdə Qaraköpəktəpə yaşayış yerinin ətrafına hündür qala divarları çəkilmiş, içərisinə gil borular (tüng) vasitəsilə uzaq bulaqlardan içməli su gətirilmişdi. Arxeoloji qazıntılar zamanı bu divarların, eləcə də su kəmərinin bir hissəsi üzə çıxarılmışdır. Burada çoxlu yaşayış binaları, onların ətrafında isə 20 ədəddən artıq təndir yeri də aşkar edilmişdir. Qaraköpəktəpənin bu dəfəki əmin-amanlığı, yeni çiçəklənmə dövrü də uzun çəkməmişdi (4. səh, 37). 1221-ci ildə Beyləqan şəhəri monqollar tərəfindən amansızcasına viran edildikdən sonra onun ətrafındakı yaşayış yerləri, o cümlədən Qaraköpəktəpədəki yaşayış yeri də dağıdılmışdı. Monqol işğalının nəticələri Arranda,

Qarabağda şəhər həyatına daha ağır zərbə vurmuşdu. Monqol ağalığı Arran şəhərlərinin durumuna xüsusilə ağır təsir göstərdi. Buradakı şəhərlərin bir qismi xarabazara çevrilmişdi. Digərləri isə öz əvvəlki təmtəraqlarını itirdilər və bir daha XII əsrdəki inkişaf səviyyəsinə yüksələ bilmədilər. Arxeoloji tədqiqatların nəticələri monqol işğalı ilə bağlı şəhər və kəndlərin əksəriyyətinin xarabazara çevrildiyini təsdiqləyir. Misal üçün, Şimal-Şərqi Azərbaycanın orta əsr abidələrinin arxeoloji tədqiqi XIII əsrin ortalarında burada 36 yaşayış məskənindən yalnız onunda həyatın davam etdiyini göstərir. Digərlərini əhali tərk etmişdi. Düzən və dağətəyi zonalar daha çox dağıntıya məruz qalmışdı (16, s. 110-111).

Köçəri monqol əyanlarının özbaşınalıqları və zorakılığı, ənənəvi əkinçilik bölgələrini köç ərazilərinə çevirmək cəhdləri xüsusilə dözülməz idi. Bundan sonra Qaraköpəktəpə yaşayış yeri müəyyən müddət tənəzzül dövrü keçirmiş və yalnız Hülakülər dövründə yenidən dirçələ bilmişdi. Hakimiyyətdə olan mütərəqqi qüvvələr dövlətin qüdrətinin yüksəlməsində və xəzinənin doldurulmasında oturaq həyatın, sənətkarlıq, ticarət və şəhərlərin əhəmiyyətini dərk etməyə başladılar. XIII əsrin sonu - XIV əsrin əvvəllərində Qazan xanın həyata keçirdiyi islahatlar ölkənin sosial-iqtisadi həyatının dirçəlişinə, məskunlaşmanın genişlənməsinə, şəhər həyatının canlanmasına təkan verdi. Köhnə şəhərlərdə dirçəliş başlandı, yeni şəhərlər və kəndlər salındı.

Şərq tarixçisi Rəşidəddinin məlumatına görə bu dövrdə Hülaki süvari qoşunları əksər hallarda qışı Araz ətrafı düzlərdə keçirir, yayda isə Aladağ və Qarabağın otlaqlarına qalxırdılar. Görünür ki, yol ayrıcında olan Qaraköpəktəpə belə bir şəraitdə Hülakü əyanlarının iqamətgahına çevrilmişdi (4.səh, 38).

Qaraköpəktəpənin Hülakülərdən sonrakı tarixi də çox maraqlı olmuşdu. Ölkələri fəth edən Teymurləng də, Qaraqoyunlu, Ağqoyunlu hökmdarları da bu yerə biganə qalmamışdılar (4, səh. 39).

Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Quruçay və Köndələnçay vadisinin əlverişli torpaq və iqlim şəraiti ən qədim zamanlardan burada ilk oturaq əkinçi icmalara məxsus yaşayış yerlərinin əmələ gəlməsinə zəmin yaratmış və tarixin demək olar ki, bütün dövrlərində hövzə gur yaşayış yeri olmuş, bu ərazidə inkişaf etmiş əkinçilik mədəniyyəti formalaşmışdır.

## Ədəbiyyat

1. Xəlilov A.Ə. Qarabağ yaddaş. Bakı, "MHS – poliqraf", 2010, 192 s.
2. İsmayılov.Q.Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, Elm,1981, 64 s.
3. Tapdıqoğlu N. Fizuli rayonu, toponimləri, tarixi abidələri, şəhidləri, görkəmli şəxsiyyətləri və ziyalıları. Bakı-2009, 627 s.

4. İsmayılzadə Q. Arxeoloqun çöl gündəliyindən. Bakı, 2009, 205 s.
5. az.wikipedia.org/wiki/Füzuli_rayonu.
6. A. Bakıxanov. Gülüstani – İrəm. Bakı, 2000, 94 s.
7. Qarabağnamələr. Bakı ,"Şərq-Qərb" 2006, 216 s.
8. ru.wikipedia.org/wiki/История_Азербайджана.
9. www.azerbaijan.orexca.com/azerbaijan_history.
10. Алиев В. Г.Археологические раскопки на холме Кюльтепе II,СА,1972, №3
11. Yunusov A. Karabakh past and present. Bakı, 2005, 55 s.
12. Məmmədov.T.M.Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, Təhsil,2006, 400s.
13. Армянская география VII в. (приписываемая Моисею Хоренскому). Текст и перевод с древнеарм. с присовокуплением карт и объяснительных примечаний издал Патканов К.П. – СПб., 1877, 26-84 с.
14. Ибн Хаукал. «Книга путей и государств». См: Караулов Н.А. Сведения арабских писателей о Кавказе – СМОПК, вып. XXXVIII –Тифлис, 1908, отд. I, с.79-130.
15. Истахри. «Книга путей и государств». См.: Караулов Н.А. Сведения арабских писателей о Кавказе – СМОМПК. вып. XXIX – Тифлис,1901, отд. I, с.1-73.
16. Baxşaliyev V. Azərbaycan arxeologiyası 3 cilddə, I cild, Bakı-Şərq-Qərb, 2007, 347 s.
17. Azərbaycan tarixi.Bakı, Azərnəşr, 1994, 687 s.

# THE FARMING CULTURE OF GURUCHAY AND KONDALANCHAY (IV - XIII CENTURIES)

**Elgun Aslanov**

## Summary

**Key words : agriculture , culture , archeology , residential areas , trade**

The territory of Garabagh is one of the most ancient settlements of the world and since the ancient times people started to reside there. The article is about the agricultural culture of the the Guruchay and Kondalanchay basins in IV -XIII centuries A.D. The article deals useful information not only the basin of the Guruchay and Kondalanchay, but also the agricultural culture of the Garabagh district.

# О ЗЕМЛЕДЕЛЬЧЕСКОЙ КУЛЬТУРЕ В БАССЕЙНАХ ГУРУЧАЙ И КЕНДЕЛЕНЧАЙ В IV – XIII ВЕКАХ.

**Элгюн Асланов**

## Резюме

**Ключевые слова: земледелие, культура, археология, поселения, торговля**

Говоря о материально-культурных памятниках IV – XIII веках в долинах рек Гуручай и Кенделенчай необходимо особо отметить о земледелии, которое издревле существовало на территории Гарабаха. Проведённые исследования в этой области имеют большое значение для изучения истории этого периода.

Несмотря на размеры рек, большая река или маленькая, она имеет свою жизнь и историю, которая отражается в существующих поселениях, в некрополе, мостах. Долины рек Куручай и Кенделенчай богаты древними памятниками. В предлагаемой статье подчеркивается значимость региона как одного из древних центров земледелия, что документируется археологическими артефактами.

# KÜRQIRAĞI ORTA ƏSR KƏND TİPLİ YAŞAYIŞ YERİ

**Müşfiq Bayramov**
(Lənkəran Dövlət Universiteti)
mushfiq76@mail.ru

**Açar sözlər: Şəmkir, Kürqırağı, kənd tipli yaşayış yeri, orta əsr, saxsı məmulatı, mədəni təbəqə**.

Şəmkir rayonunun ərazisi müxtəlif dövrlərə aid abidələr, o cümlədən orta əsrlərə aid kənd tipli yaşayış yerləri ilə zəngindir. 2006-ci ildən başlayaraq orta əsr Şəmkir şəhər yerində "Şəmkir arxeoloji ekspedisiyası" arxeoloji qazıntı işləri aparır. Qazıntılarla yanaşı ekspedisiya orta əsr Şəmkir şəhərinin ətrafında yerləşən bir neçə orta əsr kənd tipli yaşayış yerini aşkar edib qeydə almışdır. Bu abidələrdən biri də Kürqırağı kənd tipli yaşayış yeridir. Abidə Şəmkir rayonunun Kür qəsəbəsindən 2 km şimalda, Kür çayının sağ sahilində yerləşir. Yaşayış yerinin şərqində fəaliyyətini dayandırmış balıq zavodu yerləşir, cənub-qərbində Şəmkir SES–na gedən şose, 20-30 m qərbdə köhnə dəmir yolu keçir. Yaşayış yerinin təxminən 1 km qərbində Osman Bozu kurqanları yerləşir. Şimal-şərqdən cənub-qərbə uzanan oval təpə formasında olan abidənin şimal və şimal-şərq ətəklərini Kür çayının suları yuyur (1, s.40-41). Sahəsi təxminən 1 hektara yaxındır.

Abidə ilk dəfə 2010-cu ildə qeydə alınmış və burada ilkin arxeoloji tədqiqat işləri görülmüşdür. 2013-cü ilin avqust ayında Şəmkir arxeoloji ekspedisiyası mədəni təbəqənin xarakterini müəyyən etmək məqsədilə burada 2x2 m ölçüdə olmaqla 4 $m^2$ sahədə yoxlama qazıntı işləri aparmışdır. Yaşayış yerində ümumi qalınlığı 70 sm olan iki mədəni təbəqənin varlığı, 40 sm qalınlıqda üst mədəni təbəqənin IX-XIII əsrin əvvəllərinə, 30 sm qalınlıqda alt mədəni təbəqənin isə İlk dəmir dövrünə aidliyi müəyyən edilmişdir. Yaşayış yerindən arxeoloji qazıntıdan və yerüstü toplanmış arxeoloji materiallar bişmiş kərpic nümunələri, xeyli miqdarda şirsiz və şirli saxsı qab qırıqları, misdən və şüşədən bəzək əşyaları və 1 ədəd mis sikkədən ibarətdir.

Yaşayış yerinin İlk dəmir dövrünə aid təbəqəsindən yalnız bir ədəd küpə tipli qab əldə edilmişdir. Onun yastı oturacağı, kürəvarı gövdəsi, gen, alçaq boğazı, kənarı yana qatlanmış ağzı vardır. Gövdənin yuxarısına cızma üsulu ilə dalğavarı naxış, ondan yuxarıda boğazın alt hissəsinə basma üsulu ilə batıqlardan ibarət naxış salınmışdır. Qabın diametri ağzında 20 sm, oturacağında 10 sm, hündürlüyü 19 sm-dir. Qum qatışıqlı gildən hazırlanmış, saxsısının rəngi boz-qaradır (I tab., şək.1).

Qazıntı zamanı orta əsrlərə aid mədəni təbəqədən təndir qalığı, 2 dirək yeri üzə çıxarılmış, bir ədəd qazan və saxsı fraqmentləri tapılmışdır. Yaşayış yerindən yerüstü toplanmış arxeoloji materialların əsas hissəsini orta

əsrlərə aid saxsı qab fraqmentləri təşkil edir. Bunlar şirsiz və şirli olmaqla iki bölməyə ayrılır.

Şirsiz saxsı məmulatı küp, küpə, bardaq, qazan tipli qabların fraqmentləri ilə təmsil olunmuşdur. Onlar, əsasən, dulus dəzgahında hazırlanmış, üstü kəsmə, çərtmə, basma, cızma üsulu ilə naxışlanmışdır. Fraqmentlərdən biri orta tutumlu səhəngin gövdədən çiyinə keçən hissəsini təmsil edir. Gövdənin yuxarı hissəsinə çızma üsulu ilə dalğavari, düz üfiqi xətlərdən naxış vurulmuşdur. Aşağı ucu çiyninin yuxarı hissəsinə birləşdirilmiş en kəsiyi yastı, lentşəkilli qulpu vardır. Qulpunun aşağı hissəsinə barmağı basmaqla batıq salınmışdır. Gilinin tərkibində azacıq qum qatışığı əlavə edilib, saxsısının rəngi açıq qəhvəyidir (I tab., şək.5). Küpə tipli qablara aid fraqmentlərdən biri slindirik boğazlı, ağızının kənarı yana qatlanmış kiçik tutumlu küpənin boğaz və ağzını əks etdirir. Qab yaxşı bişirilmiş, gilinin tərkibində qatışıqlar azdır, saxsısının rəngi qəhvəyidir (I tab., şək.7).

Şirsiz saxsı qab fraqmentlərindən biri ağzı bayıra açılan, divarları ağzından birbaşa çiyninə keçən sərnic tipli qaba məxsusdur. Lent şəkilli qulpunun bir ucu gövdəsinin yuxarısına digər ucu ağzının kənarına yapışdırılmışdır. Qulpunun üstünə yapma düyməcik, aşağısına isə barmağı basmaqla bəzək salınmışdır. Qum qatışıqlı gildən hazırlanmış, saxsısının rəngi qonurdur (I tab., şək.6). Oxşar formalı sərniclər orta əsr III Hacıalılı yaşayış yerindən məlumdur (4, s.9).

Şirsiz saxsı məmulatı içərisində qazanlara məxsus nümunələr çoxluq təşkil edir (I tab., şək.2-4). Bunlardan nisbətən yaxşı mühafizə olunanı təndirdən tapılmışdır. Onun yarımkürəvari gövdəsi, bir qədər içəriyə basılmış çiyini vardır. Ağzının kənarı yastılaşdırılmış, çəp şəklini almışdır. Bu isə qapağın onun ağzını kip qapamasını təmin edir. Üfüqi vəziyyətdə çiyninə yapışdırılmış 4 ədəd qövsvari qulpu vardır. Gövdəsinin yuxarısına qoşa çərtmələr, çiyninə isə üç-üç qruplaşdırılmış nöqtələrdən ibarət naxış salınmışdır. Gilinin tərkibi təmiz, saxsısının rəngi açıq qırmızıdır. Ağzının diametri 29 sm, gövdəsinin diametri 36 sm, salamat qalan hissədə hündürlüyü 12 sm-dir (I tab., şək.2 ).

İri tutumlu qazan fraqmentlərindən birinin içəriyə basılmış çiyni, hər iki tərəfə çıxıntılı ağzı vardır. Ağız kənarı yastılaşdırılaraq çəp şəklini almışdır. Gövdəsinin yuxarısına üçbucaqşəkilli çıxıntılardan ibarət qurşaq salınmışdır. Üçbucağın üstü nöqtələrlə, aşağısı barmağı basmaqla naxışlanmışdır. Qurşağın üstünə isə kəsmələrdən ibarət naxış salınmışdır (I tab., şək.3).

Orta tutumlu qazana məxsus fraqmentin içəriyə basılmış çiyni, üfiqi vəziyyətdə qabın çiyninə yapışdırılmış qövsvari qulpu vardır. Yuxarıya doğru nazikləşən ağzı dəyirmiləşdirilmişdir. Qulpunun üstü çərtmələr düzümü və uclarda və mərkəzdə olmaqla üç nöqtə batıqlardan ibarət naxışla bəzədilib (I tab., şək.4). Yaşayış yerindən aşkar edilmiş qazanların oxşarları

Qəbələ, Beyləqan, Şəmkir şəhər yerlərinin, Daşbulaq orta əsr yaşayış yerinin arxeoloji qazıntılarından məlumdur (8, s.63-65; 3, s.646; 2, s.100-103; 7, s.230).

Abidə ərazisindən toplanmış yerüstü materiallar içərisində qırmızı boyalı qab fraqmentləri də az deyildir. Bunlar küp, küpə, bardaq, sərnic, qazan tipli qabların qırıqlarından ibarətdir. Fraqmentlərdən biri bardaq və ya küpə tipli qabın gövdəsindən çiyinə keçən hissəsidir. Qabın gövdəsinə paralel cızma xətlərdən ibarət naxış salınmışdır (I tab., şək.10). Digər bir fraqment kiçik sərnic və ya küpə tipli qaba məxsus olub gövdəsinin yuxarı hissəsinə dalğavari cızma xətlərdən naxış salınmışdır.

Qırmızı boyalı qablar içərisində küp, küpə tipli qablara məxsus nümunələr çoxdur (I tab., şək.8-9). Bunlardan biri gövdənin fraqmenti olub yuxarısına qabarıq kəmər salınmışdır. Kəmərdən yuxarı cızma dalğavari xətlərdən, ondan yuxarıda isə cızma paralel xətlərdən naxış salınmışdır (I tab., şək.9).

Yaşayış yerindən aşkar edilmiş saxsı məmulatı arasında şirli qab qırıqları da çoxdur. Şirli saxsı məmulatı bədii işlənməsinə, istehsal texnikasına görə xronoloji baxımdan iki dövrə bölünür. Erkən şirli qab nümunələri IX-X əsrlərə aid edilir .Onların bir hissəsini yaşıl şir altında anqobla naxışlanmış qablar təşkil edir (II tab., şək.1). Onların naxış motivləri həndəsi və nəbatidir.

Erkən şirli qabların içərisində marqansla şirlənmiş qablar da vardır. Bunlardan biri alçaq, halqavari oturacağı olan kasa və ya boşqab tipli qaba məxsus olub marqansla şirlənmişdir (II tab., şək.2).

IX-X əsrə aid şirli qabların arasında marqans, mis oksidi və qırmızı boya ilə naxışlanmış şəffaf şirlə şirlənmiş nümunələrə rast gəlinib. Fraqmentlərdən biri boşqab və ya kasa tipli qaba məxsus olub anqob, mis oksidi və qırmızı boya ilə naxışlanaraq şəffaf şirlə şirlənmişdir (II tab., şək.3).

XI-XIII əsrin əvvəllərinə aid şirli saxsı məmulatın bir qismi saya monoxrom şirli qablarla təmsil olunmuşdur. Onların içərisində yaşıl şirlə şirlənmiş nümunələr çoxluq təşkil edir. Firuzəyi şirlə şirlənmiş nümunələrə də təsadüf edilir. Fraqmentlərdən biri kasa və ya boşqab tipli qabın gövdəsinin bir parçası olub yaşıl şirlə şirlənmişdir (II tab., şək.4).

Yaşayış yerindən aşkar edilmiş şirli qabların əsas hissəsini qrafik naxışlı polixrom qablara məxsus fraqmentlər təşkil edirlər (I tab., şək.5-8). Bu qrupa aid qab nümunələrindən biri qalın divarlı boşqab tipli qaba məxsusdur. İçəri tərəfdən qabın üzərinə anqob üstə cızma üsulu ilə dairə çəkilmiş, dairənin içərisinə tor salınmışdır. Torun damalarında künclərdə marqans və ya sarı rənglə işlənmiş sektorlar, mərkəzdə içərisi yaşıl rəngdə işlənmiş romb cızılmışdır (II tab., şək.8). Başqa bir fraqment boşqab və ya kasa tipli qabın qırığı olub üstünə islimi naxışı çəkilmişdir. Naxış fonu üç-

üç qruplaşdırılmış marqans nöqtələrlə canlandırılmışdır (II tab., şək.9). Digər bir fraqment üzərində cızma üsulu ilə mərkəzdən kənarlara genişlənən şüalar çəkilmiş və bu şüaların içərisi şabaladı və yaşıl rənglərlə işlənmişdir (II tab., şək.5). Polixrom naxışlı oxşar formalı qablara orta əsr Şəmkir şəhər yerində qazıntılar zamanı tez-tez təsadüf edilmişdir. Çox güman ki, yüksək zövqlə hazırlanmış bu qablar orta əsr Şəmkir şəhərindən buraya gətirilmişdir (2, s.125-145).

İlkin arxeoloji tədqiqatlar zamanı həmçinin abidə ərazisindən misdən və şüşədən bilərzik nümunələri də aşkar edilmişdir. Şüşə bilərzik bir ədəd olub tünd göy rəngli şüşədən hazırlanmışdır. En kəsiyi dairəvi, səthi hamardır (II tab., şək.12). Misdən hazırlanmış bilərzik də bir nüsxə olmaqla en kəsiyi yastı, lentşəkilli bilərziyin fraqmentidir. O misdən soyuq döymə üsulu ilə hazırlanmışdır (II tab., şək.11). Bu tip bilərziklər orta əsrlərdə geniş yayılmış, dövrün kənd və şəhər yaşayış yerlərinin arxeoloji qazıtılarından yaxşı məlumdur (5, s.196; 6, s.95).

Yuxarıda qeyd edildiyi kimi yerüstü toplanmış materiallar içərisində bir ədəd sikkə də vardır. Sikkə nominalı misdən olub üzərindəki yazılar hələlik oxunmadığından onun kimin adından, nə vaxt və harada zərb olunduğu məlum deyil. Lakin formasına və ölçüsünə görə onu XII əsrdə kəsilmiş kredit dirhəmlərə aid etmək olar. Diametri 23 millimetr, çəkisi 4,8 qramdır (II tab., şək.10).

Yaşayış yerinin ərazisində və mədəni təbəqədən tikinti qalıqlarına təsadüf edilməmişdir. Lakin buradan çoxsayda ətrafa səpələnmiş çaydaşı və bişmiş kərpic nümunələri onlardan inşaat materialı kimi istifadə etdiyini düşünməyə əsas verir. Bişmiş kərpiclərin ölçüləri 23x24x5, 24x23x4 sм–dir (1, s.41).

Beləliklə, Kürqırağı yaşayış yerindən toplanmış materialların tədqiqi və aparılmış kəşfiyyat xarakterli arxeoloji yoxlama qazıntı abidənin ikitəbəqəli olduğunu, İlk dəmir dövrü yaşayış yeri üzərində orta əsrlərdə yenidən yaşayış məskəni salındığını və burada XIII əsrin əvvəllərinə qədər həyatın mövcudluğunu təsdiqləyir. Abidədən əldə olunmuş arxeoloji materialların orta əsr Şəmkir şəhərinin arxeoloji qazıntılarından bəlli olan maddi-mədəniyyət nümunələri ilə müqayisəli təhlili Kürqırağı yaşayış yerinin Şəmkir nahiyəsinə daxil olan kəndlərdən birinin xarabalıqları olduğunu ehtimal etməyə əsas verir.

**Ədəbiyyat:**

1. Hüseynli N. Şəmkir bölgəsinin arxeoloji abidələri (IX-XIII əsrin əvvəlləri). Tarix üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı, 2012, 159 s.
2. Şəmkir Arxeoloji ekspedisiyası 2006-2008, Bakı, 2009, 429 s.
3. Göyüşov R.B. Qəbələ şəhəri qazıntılarından tapılmış gil qazanlar haqqında. //

Azərb.SSR EA məruzələri, XVII c. 1961, № 7, s. 645-649.
4. Dostiyev T.M., Məmmədov A. BTC marşurutunun 302-ci km-də III Hacıalılı yaşayış yerində aparılmış arxeoloji qazıntılarının geniş elmi hesabatı. Bakı, 2008, 18 s.
5. Dostiyev T. Sərkərtəpədə orta əsr mədəni təbəqəsi. // Tarix və onun problemləri. № 1, Bakı, 1997, s.192-202
6. İbrahimov F.Ə. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti. Bakı, Elm,1988, 176 s.
7. Hüseynov M.M., Cəlilov B.M. Orta əsr Daşbulaq yaşayış yeri. // Şəmkir: arxeoloji irsi tarixi və memarlığı. I Respublika elmi-praktik konfransının materialları Bakı, 2008, s. 226-238
8. Əhmədov Q. Azərbaycanın şirsiz orta əsr saxsı məmulatı. Bakı, Azərb. SSR.EA. nəşr., 1959, 143 s.

## MEDIEVAL RURAL SETTLEMENT KURGIRAGI

**Mushfig Bayramov**

### Summary

**Key words: Shamkir, Kurgiragi, rural type of settlement, medieval, pottery, cultural layer**

The article gives information about rural type settlement of Middle Ages Kurgiragi. The monument which covers an area of nearly 1 acre is situated on the right shore of the river Kur, 2km from the north of Kur settlement of Shamkir district. In the territory of the monument exploratory excavations covering 2x2kv meters area was carried out and a considerable amount of archaeological materials collected from the surface in 2013. By preliminary archaeological investigations the monument was found to be two-layered. The top layer which has 40cm thickness refers to the medieval and the bottom layer which has 30 cm thickness dates back to the early Iron Age.

# СРЕДНЕВЕКОВОЕ ПОСЕЛЕНИЕ СЕЛЬСКОГО ТИПА КЮРГЫРАГИ.

**Мушфиг Байрамов**

## Резюме

**Ключевые слова: Шамкир, Кюргыраги, сельское поселение, средневековье, керамика, культурный слой**.

В статье дается информация о средневековом поселении сельского типа Кюргыраги. Оно расположено на правом берегу реки Кура, в 2 км к северу от поселка Кура Шамкирского района. Площадь поселения составляет около 1 га. В 2013 году на территории поселения был заложен шурф размером 2х2 м, собран подъемный археологический материал. Мощность культурного слоя достигает 70 см. Предварительные археологические исследования, проведенные на территории поселения, позволяют констатировать о двухслойности памятника. Верхний слой толщиной 40 см относится к средневековью, нижний слой толщиной 30 см-к раннему железному веку.

# Tablo I


1


2


3


4


5


6


7


8


9


10

# Tablo II



# ELM TARİXİ
# SCIENTIFIC HISTORY
# ИСТОРИЯ НАУКИ

## ALBANŞÜNAS ALİM RƏHİM VAHİDOV
## (100 illik yubileyinə)

**Hicran Mahmudova, Xumar Vahidova**
(Bakı Dövlət Universiteti)
hahmudova@mail.ru

**Açar sözlər: Albanşünas, Mingəçevir, xristian məbədi, Alban yazısı**

Azərbaycan arxeologiya elmində milli kadrların yetişməsində əvəzsiz xidməti olmuş Mingəçevir qazıntıları qədim və erkən orta əsrlər dövrümüzün qaranlıq səhifələrinə işıq salan bir sıra tədqiqatçıların yetişməsində əsl məktəb rolunu oynamışdır. Bu qazıntıların elm tarixinə verdiyi adlardan biri Rəhim Məcid oğlu Vahidovdur. Maddi mədəniyyətimizin bir sıra problemlərinin həlli ilə məşğul olmuş görkəmli alim Rəhim Məcid oğlu Vahidov 1914-cü il dekabrın 15-də Yelizavetpol quberniyasının Ağdaş qəzasının Üçqovaq kəndində anadan olmuşdur. Orta təhsilini doğma kəndində aldıqdan sonra, Bakıda dəmiryol maşinisti kursunu oxumuş, bir müddət Gəncə dəmiryolu deposunda çalışmışdır. O, 1935-1936-cı illərdə Göyçay rayonunun Bığır kənd məktəbində müəllim işləmiş, 1937-1941-ci illərdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində təhsil almışdır. II Dünya müharibəsi illərində Rəhim Vahidov azərbaycanlılardan ibarət 402 və 216-cı diviziyaların tərkibində bölük komandiri olmuş və müharibədəki şücayətinə görə «Almaniya üzərində qələbəyə görə» və «Qafqazın müdafiəsi üçün» medalları ilə təltif edilmişdir.



Müharibədən sonra onun tədqiqatçı kimi yetişməsində Azərbaycan Tarixi Muzeyində əmək fəaliyyətinə başlaması mühüm rol oynamışdır. Belə ki, R.M.Vahidov, 1946-cı ildən etibarən 1953-cü ilə qədər Azərbaycan Tarixi Muzeyinin «Arxeologiya» şöbəsində fond müdiri vəzifəsində çalışmışdır. 1946-cı ildə Mingəçevir arxeoloji ekspedisiyası təşkil olunduqda Rəhim Vahidov ekspedisiyanın rəisi Saleh Mustafa oğlu Qazıyevin müavini kimi çöl tədqiqatlarına cəlb olunmuşdur. Aparılan arxeoloji qazıntılar uğurlu olmuş, müxtəlif növ abidələr aşkarlanaraq tədqiq edilmiş, külli miqdarda maddi-mədəniyyət nümunələri aşkarlanmışdır. Mingəçevirdə aparılan qazıntıların nəticələrinə əsasən «Azərbaycanın Maddi Mədəniyyəti» adlı toplunun I cildi qısa müddətdə çap olunmuşdur. Eyni zamanda həmin dövrdə Mingəçevirdən əldə olunan materialların R.M.Vahidovun bilavasitə rəhbərlik etdiyi Muzey fondunda toplanması və həmin materialların bir hissəsinin sərgisinin keçirilməsi mümkün olmuşdur. Mingəçevir kompleksi nəinki Azərbaycanın, eləcə də bütün Qafqazın əvəzsiz çoxtəbəqəli abidələrindən biri kimi eneolit dövründən erkən orta əsrlər dövrünə qədər zəngin artefaktları ilə R.M.Vahidovun arxeologiya elminə marağını daha da artırmış və tədqiqatçı ardıcıl olaraq fundamental monoqrafiya və məqalələr üzərində işləmişdir. 1953-cü ildən R.M.Vahidov Azərbaycan EA-nın Tarix və Fəlsəfə İnstitutunda kiçik elmi işçi vəzifəsinə keçirilmiş və 1960-cı ildə «Mingəçevir III-VIII əsrlərdə» mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Təcrübəli tədqiqatçı kimi bu dövrdən etibarən R.M.Vahidov ardıcıl olaraq arxeoloji ekspedisiyalara rəhbərlik etməyə başlamışdır. Onun rəhbərliyi altında Govurqala, Torpaqqala, Araz, Şəki-Zaqatala ekspedisiyaları təşkil edilmiş, zəngin və qiymətli maddi mədəniyyət nümunələri əldə olumuşdur.

R.Vahidovun tədqiq etdiyi abidələr içərisində Mingəçevirdə aşkar olunmuş 2 saylı və 3 saylı erkən orta əsr yaşayış yerləri xüsusilə diqqətəlayiqdir. 2 saylı yaşayış yerində yaşayış binaları, mə'bəd qalıqları, dulus kürələri, qəbiristanlıqlar, eyni zamanda istehsal alətləri, epiqrafik materiallar və məişətdə işlənən çoxsaylı nümunələr öyrənilmişdir. 3 saylı yaşayış yerinin əsas arxeoloji abidələri yaşayış binaları, müxtəlif təbəqələrdən aşkar edilən istehsal alətləri və başqa maddi-mədəniyyət nümunələrindən ibarət olmuşdur. Yaşayış yerinin cənub tərəfində dulus kürələri, cənub-şərq və şərq tərəfində isə katakomba, taxta qutu və xristian qəbirlərindən ibarət qəbiristanlıq aşkar edilmişdir. Hər iki yaşayış yerindən təsərrüfat quyuları, küplər və təndirlər, xarici istehsal məhsulları olan bəzək əşyaları da aşkar edilmişdir. 3 saylı yaşayış yerindən tapılan Sasani şahı I Şapurun (241-272) adından zərb edilmiş sikkə isə 3 saylı yaşayış yerinin III əsrdən mövcud olduğunu sübut edir. Arxeoloq alim Mingəçevirdə 2 saylı və 3 saylı yaşayış yerlərinin vaxtilə iri şəhər tipli məskən olduğunu, ticarət və mədəni əlaqələrin ölkə

xaricində geniş yayıldığını bildirmişdir. R.Vahidov erkən orta əsrlərə aid bu abidələri tədqiqi edərək, nəşr etdirdiyindən, gələcəkdə Albanşünaslığın inkişafı üçün qiymətli yol açmış və hal-hazırda bu dövr tarixinin, arxeologiyasının gənc tədqiqatçıları əvəzsiz stolüstü bələdçi kimi onun tədqiqatlarının nəticələrindən bəhrələnirlər.

R.Vahidov Alban tarixinin müxtəlif sahələrini tədqiq etməyə çalışdığından, nəinki abidələrin, həmçinin müxtəlif maddi-mədəniyyət nümunələrinin xarakteristikasını vermişdir. Məlumdur ki, saxsı məmulatının istehsalı ölkənin iqtisadiyyatı, onun təsərrüfat həyatı, əhalinin məişət və ideologiyası ilə bilavasitə bağlı olan ən qədim sənət sahələrindəndir. Albaniyada əsrlər boyu saxsı məmulatı istehsalında kütləvi şəkildə istifadə olunan dulus dəzgahının ilk orta əsrlərdə az istifadə olunması dulusçuluq sənətindəki tənəzzül kimi R.M.Vahidovun da diqqətindın yayınmamış və o, keramika istehsalındakı bu tənəzzülü Albaniya ərazilərinin Sasanilərlə Bizans imperiyası arasında gedən uzunmüddətli müharibələrdə fəal hərbi əməliyyat meydanına çevrilməsi ilə izah etmişdir.

Bütün bu tədqiqatların yekunu kimi, 1959-cu ilə R.M.Vahidovun Q.M.Aslanov və Y.Ş.İone ilə həmmüəllif olduğu «Qədim Mingəçevir» kitabı, daha sonra isə 1961-ci ildə «Mingəçevir III-VIII əsrlərdə» adlı monoqrafiyası çap olunmuşdur.

Tariximizin, arxeologiyamızın öyrənilməsindəki xidmətləri nəzərə alınaraq, Rəhim müəllim Elmlər Akademiyasının Tarix İnstitutunda mühüm və məsuliyyətli vəzifələrə rəhbərliyə cəlb olunmuşdur. Belə ki, R.M.Vahidov EA-nın Tarix İnstitutunda 1965-ci ildə «Arxeologiya», 1972-ci ildən «Orta əsrlər arxeologiyası», 1975-ci ildən isə «İlk orta əsrlər arxeologiyası» şöbələrinə rəhbər təyin edilmişdir. R.M.Vahidovun arxeologiyamızin, Qafqaz Albaniyası tarixinin tədqiqindəki əvəzsiz xidmətlərindən biri Azərbaycanda xristian (kilsə) arxeologiyası ilə məşğul olmuş ilk azərbaycanlı arxeoloq olmasıdır. Məhz onun araşdırmalarından sonra Azərbaycanın xristian (kilsə) abidələrinin milli mütəxəssislər tərəfindən arxeoloji tədqiqinə başlanılmış və Azərbaycan arxeologiyasında Rəhim müəllimin ardıcılları kimi R.Göyüşov, Q.Aslanov, C.Xəlilov və digərləri Azərbaycan tarixinin qaranlıq səhifələrinə işıq salmağa imkan verən Alban xristian abidələri öyrənmişlər. İstər Mingəçevir, istərsə də Albaniyanın digər bölgələrində araşdırmalar aparan R.Vahidov ardıcıl olaraq bir neçə xristian məbədini araşdırmışdır. Azərbaycanın erkən orta əsrlər dövrü arxeologiyasının öyrənilməsində xüsusi rolu olan R.Vahidovun Qafqaz Albaniyası dövrünün memarlıq abidələrinin araşdırılmasında da özünəməxsus xidmətləri olmuşdur. Maraqlıdır ki, o, nəinki abidələrin memarlıq xüsusiyyətlərini, eyni zamanda dövrün digər öyrənilməmiş, mühüm məsələlərini araşdıra bilmişdir. Albaniyanın xristian abidələrini tədqiq edərkən, həmin dövr üçün daha bir yeniliyə imza atmışdır. XX əsrin

30-cu illərinə qədər Alban əlifbasının mövcudluğu cəmi iki gürcü alimin - Y.V.Abuladze və A.Q.Şanidzenin tədqiqatlarında öz əksini tapmışdısa, 1948-ci ildə R.Vahidovun aşkar etdiyi epiqrafik material əvəzsiz mənbə kimi elmi ictimaiyyət tərəfindən qəbul edildi. Belə ki, aktuallığını hələ də itirməyən alban əlifbası problemi ilə bağlı maraqlı və mühüm hesab olunan alban dilli yazılı kitabə tədqiqatçı tərəfindən 1948-ci ildə Mingəçevirin 4-cü məbədinin III otağından aşkar edilərək, əlifbamızın mövcudluğu və onun tədricən sıxışdırılıaraq unudulması probleminə müəyyən qədər işıq salınmışdır. Məbədindən üzərində alban əlifbasının 62 hərfi olan dördkünc formalı daş tapılmışdır. Mə'bədin mehrabından tapılmış yazılı daşın iri ağac xaçın bazası olması güman edilir. Bu bazanın fasad hissəsində qarşı-qarşıya dayanmış iki tovuzquşu və onların arasındakı «dirilik ağacı» nın qabarıq təsviri bütün dövr tədqiqatçılarının marağına səbəb olmuşdur. Üzərində alban yazısı olan bu daşı R.M. Vahidov V—VI əsrlər aid etmişdir.

Daha sonra, R.Vahidov 1972-ci ildə Kilsədağda qazıntılar apararaq, Albaniyanın VI-VII əsrlərə aid dairəvi xristian məbədini öyrənmişdir. Qafqaz Albaniyasının tədqiq olunmuş üçüncü əsas xristian abidəsi olan, Qəbələ rayonunun Böyük Əmili kəndinin şimal - qərbində yerləşən Kilsədağı dairəvi xristian məbədinin ilkin arxeoloji tədqiqi və memarlıq xüsusiyyətləri onu VII—VIII əsrlərə aid etməyə imkan vermişdir. Bu məbəd Azərbaycan memarlığının islama qədər olan ilk abidələrindən olub, nadir mərkəzi-qübbəli tikililərindəndir. R.Vahidov 1973-cü ilə Ağdamın Boyəhmədi kəndində yerləşən Govurqala məbədini də öyrənərək, öz memarlıq kompozisiyasına görə onu Azərbaycan – Alban abidələrinə daxil etmişdir. Tədqiqatçı 1974-cü ilə Şəmkir su qovuşağı ərazisində və Tovuz rayonu ərazisindəkı Torpaqqalada qazıntılar aparmış və burada 1959-62-ci illərdə küp qəbirlərini üzə çıxarmışdır.

Öz işinə məsuliyyətlə yanaşan R.M.Vahidov hər bir araşdırmasından sonra əldə etdiyi materiallarin təsnifatını verərək, gəldiyi elmi nəticələri dərc etdirmişdir. «Küp qəbirlər mədəniyyətinin bəzi məsələlərinə dair», «Torpaqqalada dulus kürəsi», «Mingəçevirin orta əsr yaşayış yerləri» adlı və bir sıra digər məqalələri arxeologiyanın müxtəlif dövlərinin gələcək tədqiqatçıları üçün mühüm istinad mənbəyi olmuşdur. Onun tədqiqatlarının nəticəsində yerli əhalinin erkən orta əsrlər dövrünün təsərrüfatını, ticarət və sənətkarlığını, dini görüşlərini, memarlığını, yazısını, yaşayış yerlərini və qəbir abidələrini izləmək mümkündür. Görkəmli alim Albaniyanın arxeoloji tarixşünaslığında bir sıra ilklərə imza atmaqla, tariximizin ziddiyyətli məqamlarına işıq salmış və müasir Albanşünas tədqiqatçılar, alimlər, tarixsevərlər üçün örnək olmuşdur.

Çoxşaxəli tədqiqat fəaliyyəti ilə məşğul olmuş R.M.Vahidov 1974-cü ildə Arxeologiya və Etnoqrafiya sektorunun yaradılmasında əsas təşkilat-

çılardan biri olmuşdur. Rəhim müəllim Azərbaycan Ensiklopediyasının Azərbaycan tarixi redaksiyasında Elmi Şuranın üzvü olmuş, Ensiklopediyanın müxtəlif cildləri üçün yazdığı məqalələrlə Azərbaycanın qədim və orta əsrlər tarixinin öyrənilməsində daha geniş oxucu kütləsinə kömək göstərmişdir.

R.M.Vahidov dövrünün istedadlı tədqiqatçısı, elm təşkilatçısı olmaqla yanaşı əsl insan kimi də xatirələrdə yaşayır. Qayğıkeş və təvazökar, təmkinli dost, vətənpərvər insan olmuş Rəhim müəllim haqda Hüseyn Ciddinin ithaf etdiyi bir parçada deyildiyi kimi

Yaşadın həmişə bir insan kimi.
Dostların qəlbində Rəhim müəllim.
Boyasız, ləkəsiz bir vicdan kimi,
Dostların qəlbində Rəhim müəllim…

Bu gün Rəhim Məcid oğlu Vahidov nəinki onu şəxsən tanımış insanların, həm də araşdırmalarından bəhrələnərək, mənən ondan qidalanan gənc nəslin xatirəsində əbədi yaşayır və yaşayacaq.

Rəhim Vahidovun çap olunmuş əsas əsərləri

1. Археологические работы в Мингечауре в 1950 г. Москва, КСИИМК, вып. X, ВЫ, Москва, 1952.
2. Раннесредневековое городище Судагылан (Мингечаур) (в соавторстве В.П.Фоменко). КСИИМК, вып.54, Москва, 1954.
3. Фрагмент глиняного подсвечника с албанской надписью. Докл. АН Азербайджанской ССР. Баку, 1951, т.7, № 2.
4. Древний Мингечаур (в соавторстве с Г.М.Аслановым и Г.И.Ионе). Баку, 1959.
5. Mingəçevir III-VIII əsrlərdə. Monoqrafiya. Bakı, 1961.
6. Kovurqalada arxeoloji qazıntılar. AMM, VI c., Bakı, 1965.
7. Torpaqqalada arxeoloji qazıntı işlərinin ilk yekunları. AMM, VII c., Bakı, 1965.

# TƏLƏBƏLƏRƏ KÖMƏK
# FOR STUDENTS
# В ПОМОЩЬ СТУДЕНТАМ

## SƏFƏVİLƏR DÖVRÜNDƏ AZƏRBAYCANDA OVÇULUQ

**Əsgər Əhməd**
(Bakı Slavyan Universiteti)
asker57@gmail.com

**Açar sözlər: Səfəvilər, ovçuluq, Əmirşikarbaşı, «halqa ovu», «alma ovu».**

Azərbaycanın zəngin flora və faunaya malik olması hələ lap qədim zamanlardan burada ovçuluğun vacib təsərrüfat sahələrindən biri kimi inkişaf etməsinə şərait yaratmışdır. Lakin zaman keçdikcə, cəmiyyətin həyatında baş verən dəyişikliklər bir təsərrüfat sahəsi kimi ovçuluğa da öz təsirini göstərmişdir. Belə ki, bəşəriyyətin sonrakı inkişaf mərhələlərində, xüsusən inkişaf etmiş orta əsrlər dövründə ovçuluq müstəqil təsərrüfat sahəsi kimi öz əhəmiyyətini itirmiş, bir əyləncə vasitəsinə və yardımçı təsərrüfat sahəsinə çevrilmişdir.

Orta əsrlərdə hakimiyyətin və gücün göstəricisi hesab edilən ovçuluq Azərbaycanda Səfəvi dövlətinin yaranması ilə bir xeyli dərəcədə məşhurlaşaraq, hakim zümrənin həyat fəaliyyətinin mühüm istiqamətlərindən birinə çevrildi. Bu dövrdən etibarən ovçuluğun xarakterində baş verən mühüm keyfiyyət dəyişikliklərindən biri, onun xüsusilə yuxarı zümrənin həyatında əyləncə, mənəvi tələbatın ödənilməsi vasitəsinə çevrilməsi ilə bağlı idi. Azərbaycanda ovçuluğun əyləncə xarakteri daşımasını ölkəmizdə olmuş XVI əsr ingilis səyyahı Antoni Cenkinson da təsdiqləyir. Belə ki, o bilavasitə özünün sarayın adlı-sanlı əyanları ilə birlikdə tərlan ovunda iştirak etdiyini xatırladaraq qeyd edir ki, ov zamanı ona bütün mümkün olan əyləncələri göstərdilər və bu zaman çoxlu durna ovlanmışdır (1. 110). Ancaq buna baxmayaraq, ovçuluq iqtisadi sahədə öz mövqelərini itirsə də, qismən də olsa aşağı təbəqənin həyatında bir yardımçı təsərrüfat sahəsi kimi, onların gündəlik tələbatlarının ödənilməsində yenə də iştirak etməkdə idi. Hələ, vaxtilə məsələnin bu tərəfinə diqqət yönəldən dahi Azərbaycan şairi Nizami Gəncəvi yazırdı:

Bir ev külfətim var, ovum budur.
Belə ehtiyac içində olan ovçunun
Şikarı azad etməsini necə rəva görərsən ?! (2, 120)

Səfəvilər dövrünə aid mənbələrdə Azərbaycanda hakim elitanın, saray əhlinin tez-tez iri miqyaslı ov əyləncələri təşkil etməsi haqqında çoxlu məlumatlar vardır. Ovçuluğun saray həyatında mühüm yer tutmasının nəticəsi idi ki, Səfəvi hökmdarlarının sarayında ovçuluqla bağlı qurum (Səfəvilərdə mirşikarlıq və ya ovçubaşılıq) təsis edilmiş və bu qurumun başında dövrünün hörmətli əyanları dayanmışdır. Məs. Səfəvi hakimiyyətinin erkən dövrlərində belə bir qurumun başında Halvaçıoğlu adıyla tanınan hörmətli bir Səfəvi əyanı durması haqqında tarixi məxəzlərdə məlumatlar vardır (3, 70). Qeyd edək ki, bu təşkilatın başlıca funksiyası, şahın ov məclislərinin təşkil edilməsi və ona nəzarət etməkdən ibarət idi. Eyni zamanda dövrün bütün ovçuları da bu təşkilatın rəhbərinə, yəni ovçubaşına bağlı olub, onun nəzarəti altında idilər. Bu təşkilatın başında olan şəxs, mənbələrdə Əmirşikarbaşı adıyla xatırlanır (4, 58) O. Əfəndiyev əmirşikarbaşçını mirşikarbaşcı kimi təqdim edir. Ona görə mirşikarbaşı şahın ova aid işlərinin basçısı idi. Ovçubəyilər, şahin bəsləyənlər (kusçuyan) və s. mirşikarlara tabe idilər (5, 236).

Səfəvi hökmdarlarının təşkil etdikləri ov səfərləri, cəlb olunan resurslara və möhtəşəmliyinə görə seçilirdi. İlk Səfəvi hökmdarı Şah İsmayılın böyük ov pərəstişkarı olması və iri ov səfərləri təşkil etməsi haqqında tarixi qaynaqlarda çoxlu məlumatlar vardır. O, 12 yaşından ovçuluq fəaliyyətinə başlamış (3, 44-45) və ömrünün sonuna kimi bu fəaliyyəti davam etdirmişdir. Şah İsmayıl şahlığı dövründə Kunər Otlağı, Surluk yaylası, Darabcird, Qum, Çala Siyah, Rəstəkcan və s. kimi yerlərə etdiyi ov səfərləri məşhurdur. Bu səfərlərdə ovlanan heyvanların sayı minlərlə ölçülürdü. Məs. 1511-ci ildə Qum ətrafında düzənlənən ov mərasimi zamanı 26 min heyvan, Fərəhan ətrafındakı ov zamanı isə 46 min heyvan ovlanmışdı (4, 68). Ov zamanı böyük insan ehtiyatlarının cəlb edildiyinə diqqət çəkən Oruc bəy Bayat da vurğulayır ki, şah ov zamanı öz yoxsul təbələrilə söhbət edib onların ehtiyacları barədə maraqlanır. Onu 12000 atlı və 4000 piyada müşaət edirdi (6, 32). Şərəf-xan Bidlisi Şah İsmayılın Bağdada şir ovuna çıxdığını, ox və qılıncla şirləri öldürdüyünü söyləməklə yanaşı onu da əlavə etmişdir ki, ona şir gördüklərini xəbər verənlərə şah yəhərli, yüyənli at bağışlayırdı, şirin üzərinə özü tək gedirdi. O, həmçinin Şah İsmayılın Naxçıvandan Şəkiyə vəhşi at ovuna çıxdığını da yazmışdır (7, 153;170). O, həmçinin Şah Təhmasibin zamanında sürək ovu təşkil edildiyini göstərir (7, 192). Sürək ovu dedikdə, ov heyvanlarının bir yerə qovularaq dövrələmə halında mühasirə edilməsi nəzərdə tutulur. Orta əsr müəllifi Xandəmir Şah İsmayılın iri miqyaslı ov səfərlərinin bəziləri haqqında özünün “Habibüs-siyer” adlı əsərində

geniş məlumat vermişdir. Müəllifin 1504-cü ildə Şah İsmayılın İsfahan yaxınlığındakı "Kunər Otlağı" deyilən yerdə ov şənliklərinin təşkili ilə bağlı təsviri ov səfərlərinin miqyası və cəlb olunan resursların miqdarını öyrənmək baxımından əhəmiyyətlidir. Şah İsmayıl tərəfindən Novruz şənliklərindən sonra "Kunər Otlağı" deyilən yerdə bir ov şənliyinin təşkil edilməsindən bəhs edən müəllif yazırdı ki, “Bu məqsədlə bütün valilərə, əsgərlərə, İraq və farsın irəli gələnlərinə xəbər göndərilərək, ova qatılmaları istənilmişdir. On-on beş gün ərzində Qumdan Şiraza qədər olan bölgədə mövcud olan yabanı heyvanlar ürküdülərək "Kunər Otlağı" deyilən yerə toplanmış və burada bir "halqa ovu" təşkil edilmişdir. Bütün hazırlıqlar tamamlandıqdan sonra, şahın məiyəti İsfahandan çıxıb, ov halqasının tamamlandığı düzənliyə gəlmişdir. "Kunər Otlağı Ovu"da Şah İsmayılla birlikdə qəbilə rəisləri və dövlətin nüfuzlu şəxsləri də iştirak edirdi. (4, 60). Bu şənliyə Səfəvi ordusu da qatılmışdı (8, 24-25). Bütün hazırlıqlar tamamlanıb halqa meydana gəldikdən sonra silahına qurşanıb, atına minən Şah İsmayıl tək başına ov meydanına girmiş və ov etməyə başlamışdır. Şah İsmayıl ovu bitirdikdən sonra əmirlər və dövlətin digər irəli gələnləri də ov etmişdir. Ən sonunda silah daşıyan bütün əsgərlərə ovlamaq icazəsi verilmişdir. Ov bitdikdən sonra ovlanan heyvanlar əmrlər, dövlətin irəli gələnləri və ordu mənsubları arasında paylaşılmışdır” (4, 60). Bu təsvirdən hökmdarların təşkil etdiyi ovda iştirakın sosial statusa və iyerarxik prinsiplərə əsaslandığı aydın olur.

Orta əsrlərdə, o cümlədən Səfəvilərin hakimiyyəti dövründə ova hakimiyyətdə olmağın, gücün, qəhrəmanlığın simvolu kimi baxılırdı. İnsanlar həmçinin “ad alma, şan-şöhrət sahibi olma və qəhrəmanlıq göstərmə” kimi keyfiyyətlərə yiyələnmək məqsədi ilə də ova gedirdilər (9, 17). Ovçuluqdakı məharəti və peşəkarlığı ilə fərqlənən şəxslər həmişə cəmiyyətdə sayılan-seçilən şəxslərdən sayılmış, üstün güc və “məharəti ifadə edən müxtəlif ünvanlarla xatırlanmışlar” (4, 57). Hətta, şah saraylarında qulluq edən şəxslərin qabiliyyət və bacarığı onların ovçuluq məharəti ilə ölçülürdü (10, 26). Ovlanan heyvan nə qədər güclü və qorxunc olurdusa onu ovlayanın hörməti və qəhrəmanlığı bir o qədər yüksək qiymətləndirilirdi. Tarixdə Şah İsmayılın aslan ovçusu adıyla xatırlanması bunun bariz nümunəsidir. Ov mərasimləri igidlik göstəriləcək bir məkan, onu təsdiqləyəcək bir akt idi. Məsələn, Sarıqaya yaylasında təşkil edilən ov mərasimi zamanı yerli əhalini təşvişə salan ayını iki oxla öldürən gənc Səfəvi şahzadəsi öz tərəfdarlarına yetkinlik çağına çatdığını və bir ayını ovlaya biləcək qədər güc sahibi olduğunu göstərmək istəmişdir (4, 67). Kitabi-Dədə Qorqud dastanında göstərilir ki, igidlər ad-san almaq üçün ova çıxardılar: “O zamanlar bir oğlan baş kəsməsə, qan tökməsəydi, ona ad qoyulmazdı. Baybörə bəyin də oğlu atlandı, ova çıxdı” (11, 203).

Səfəvilər dövründə ov eyni zamanda hərbi vərdişlərə yiyələnməyin bir məşqi, bir vasitəsi idi. Ov zamanı hərbçilər ox atmaq, qılınc oynatmaq, kəmənd atmaq, çətinliyə qarşı dözümlü olmaq və s. kimi keyfiyyətlərə yiyələnirdilər. Ov mərasimləri, ümumiyyətlə bir qayda olaraq əhəmiyyətli əsgəri səfərlərdən sonra düzənlənirdi. Ehtimalla bu cür ov mərasimləri sayəsində ordu həm dincəlir, həm də döyüş vərdişlərini saxlamış olurdu (8, 23–24).

Səfəvilərin hakimiyyəti dövründə ovçuluq həm də bir yarış, müsabiqə, oyun növü kimi şöhrət qazanmışdır. M.Dadaşzadə qeyd edir ki, «Orta əsrlərdə ovçuluq və eləcə də əl quşu ilə ov etmək bir idman növü kimi geniş yayılmış və inkişaf etmişdir» (12, 194). Tarixdən ov zamanı ovla bərabər at yarışdırmaq, ox atmaq, qurşaq tutub güləşmək və s. kimi idman yarışlarının keçirildiyi məlumdur. Dədə Qorqud dastanının "Baybörənin oğlu Bamsı Beyrək" boyunda bəhs etdiyimiz məsələ öz təsdiqini tapır: "...mən Banıçiçəyin dayəsiyəm. Gəl indi səninlə ova çıxaq. Əgər sənin atın mənim atımı keçsə, onun atını da keçər. Həm də ox ataq. Məni keçsən, onu da keçərsən həmçinin, səninlə güləşək. Məni bassan, onu da basmış olursan" (11, 205). Əhməd Cəfəroğlu Türk dövlətçiliyinin ən əhəmiyyətli ünsürlərindən biri olan ovçuluğu "milli dövlət idmanı" kimi xarakterizə edir (13, 171).

Səfəvilər dövründə ov şənlikləri zamanı müxtəlif müsabiqələr keçirilirdi. Bu müsabiqələr içərisində "alma ovu" adı ilə keçirilən ox atma yarışı daha geniş yayılmışdır. Həmin müsabiqə zamanı müəyyən bir atış məsafəsində düzülmüş almalara oxlar atılır və bununla da hədəfi vuran atıcının məharətlilik səviyyəsi müəyyənləşdirilirdi. Müsabiqə zamanı qalib çıxan şəxslər mükafatlandırılırdı. Mənbələrdə Şah İsmayılın özünün də bu cür yarışlarda iştirak etdiyi və hədəfdəki hər on almadan altı və ya yeddisini asanlıqla vura bildiyi haqqında məlumatlar vardır (4, 65).

Səfəvilər dövründə Azərbaycan ovçuları çox müxtəlif üsul və metodlardan, eləcə də ov alət və vasitələrindən istifadə etmişlər. Orta əsrlərdə Azərbaycanda ən geniş yayılmış ov üsullarından biri "halqa ovu" və ya "çəmbər ovu" adlanırdı. Xüsusilə də Səfəvilər dövründə ovçuluqda geniş tətbiq olunan bu ov üsulu aşağıdakı kimi həyata keçirilirdi. Əvvəlcə ovlanma yeri kimi təyin olunmuş bölgədəki vəhşi heyvanlar on-on beş gün ərzində ürküdülərək müəyyən bir sahəyə toplanır və bu sahə geniş bir dairə şəklini alırdı. Sonra sahə getdikcə daraldılır və ovçular haradasa çiyin-çiyinə, yan-yana gəlirdilər. Bu sıxılmış mühitdə dovşan, tülkü, ceyran, maral, dağ keçisi, yabanı uzunqulaq, yabanı öküz, aslan və s. kimi heyvanlar yan-yana gəlir, ümumi qarışıqlıq və qorxudan bir-birlərinə toxunmayıb, öz aqibətlərini gözləyərdilər. "Halqa ovu"nun bütün hazırlıqları başa çatdıqdan sonra ov silahlarıyla silahlanmış hökmdar öz atı üzərində tək başına ov sahəsinə girərək, ovlamağa başlar, sonra isə digərləri ov prosesinə qoşulardı (4, 64-65). Ov prosesinin özü çox ciddi xarakter daşıyırdı ov zamanı dairənin po-

zulmasına səbəb olan və ovun qaçmasına icazə verən adam cəzalandırılırdı. “Halqa ovu”nun miqyası bəzən o qədər böyük olurdu ki, bura yerli əhalidən olanlar və əsgərlər də cəlb edilirdi. “Halqa ovu” prosesində yaralı, xəstə heyvanları öldürməzdilər və onların ot və su ilə zəngin yerlərə qaçmalarına şərait yaradılardı. Bu cür ov mərasimlərinin təşkili hələ miladdan öncə qədim türklər arasında da geniş yayılmışdır. E.ə. 62-ci ildə Hun xaqanının 100 min əsgərlə, 750 km ərazini əhatə edən sürək ovu barədə qədim Çin mənbələrində məlumatlar vardır (14, 287-288). Cüveyni və Rəşidəddinin Hülaki xanlarının ov səfərləri ilə bağlı verdikləri məlumatlarda da bu məsələlər öz əksini tapmışdır: "Ov çevrəsinin içində bir neçə yaralı və arxadan gələn yorğun heyvan qıraqda qalan hər hansı bir ov heyvanı qalmadığı zaman, ağ saqqallı yaşlı kişilər böyük bir hörmət ilə Xanın yanına yaxınlaşıb xoşbəxtliyi üçün dualar edərək qalan heyvanlar üçün şəfa diləyərlərdilər və onların ot və su cəhətdən zəngin yerlərə qaçmalarına icazə verilməsi üçün xahiş edərdilər (15, 181). M. Dadaşzadə Rəşidəddinə əsaslanaraq qeyd edir ki, Qazan xanın zamanında iki dağ arasında hazırlanan ov mərasimləri olurdu. Bu mərasimlər zamanı iki dağ arasındakı ərazi ağac və qamışdan çəkilmiş divarlarla əhatə olunurdu. Burada ağıla oxşar bir yer hazırlanırdı, ətrafdan qovulan ovlar bu ağıla salınır, dar çərçivədə olsa da, əylənmək xatirinə ova başlanılırdı (12, 195).

Ovçuluqda geniş yayılmış üsullardan biri də ov quşları və ov itlərindən (tula, tazı) geniş istifadə olunması ilə bağlı idi. Səfəvilər dövründə ovçuluqda öyrədilmiş ov quşlarından istifadə ənənəsi də geniş yayılmışdı. M. Dadaşzadə mənbələrə əsasən qeyd edir ki, orta əsrlərdə əl quşu (tərlan, tiqun, qızılquş, başə, qırğı, piru, balaban, buf, şahin, qaraquş, şonqar, çərxi, humay və s.) ilə ov etmək xalq arasında geniş yayılmışdı (12, 195). Səfəvilər sarayında olmuş avropalı səyyah J. Şarden öz “Səyahətnamə” əsərində müşahidə etdiyi və Səfəvi əsilzadələri arasında geniş yayılmış quşla ovun təsvirini verir: “Dağlarda həm də qartallar olur. Nəcib adamlar bu quşu qırğı ilə təqib edirlər. Bu təqib çox maraqlı və cazibədardır. Qırğının qartalı tutmaq tərzi belədir ki, qırğı çox yuxarıdan uçaraq, onun üzərinə sürətlə şığıyır, caynaqlarını qartalın böyrünə keçirir, elə hey uça-uça qanadları ilə onun başına vurur. Hərdən belə də olur ki, qırğı ilə qartal hər ikisi birlikdə yerə düşürlər. Qırğılar xallı maralları da bu yolla tutur, onu çox asanlıqla ovçulara təslim edirlər” (16, 53).

Ov quşlarına xüsusi əhəmiyyət verən və bundan xoşlanan hakim elita haqqında I Təhmasibin sarayında olmuş Mikele Membre də məlumat verir. (Venesiyalılar şah I Təhmasibin sarayında 17, 45). Şərəf xan Bidlisi Azərbaycanın Lan adlı yerində Məlik Məhəmmədin ovçuluqda istifadə olunan ov quşu - erkək qızılquş hazırladığını söyləyir (7, 226). Mirzə - bəy əl Həsən - əl Hüseyni Cunabidi özünün «Rövzət - üs - Səfəviyyə» əsərində ovçular və

şikarçılardan ötəri də olsa, bəhs etmişdir. O, eyni zamanda Damğan və Əli bulağı yerlərinə ov və şikar üçün gedildiyini qeyd etmişdir (18, 772; 839).

Ov itləri də ov prosesində ovçunun yaxın köməkçiləri idilər. Ov prosesində ov heyvanlarını ürkütmək, uzağa qaçmasını ləngitmək və onu qovaraq ovçunun müəyyən etdiyi yerə doğru yaxınlaşdırmaq məqsədilə ov üçün öyrədilmiş itlərdən istifadə hələ qədimlərdən məlumdur (19, 128). Öyrədilmiş ov itlərinin iybilmə qabiliyyətinin yüksək olması ovçuların işinə yarayırdı. Ov itlərinin bu qabiliyyətləri sayəsində ovçular ovun yerinin müəyyənləşməsinə və onu izləməyə nail olur, eləcə də ovu ləngidə bilirdilər.

Qeyd edək ki, ov üsul və vasitələri uzun müddət dəyişikliyə uğramadan xalq məişətində qorunub saxlanmış, hətta XIX-XX əsrlərin əvvəllərində mövcud olmuş bu üsul və vasitələr orta əsrlərin ov üsul və vasitələri ilə demək olar ki, eynilik təşkil etmişdir (19, 127-128). Etnoqraf Ş.Quliyev ovçuluqda çəpər, xəndək, quyu, çala, tələ, tor, ox, yay, qırmaq və s. kimi vasitələrdən XIX-XX əsrlərin əvvəllərində geniş istifadə olunduğunu qeyd etmişdir (20, 313).

Ümumiyyətlə, Səfəvilərin hakimiyyəti dövründə ovçuluq cəmiyyətin sosial-iqtisadi həyatında mühüm rol oynamaqla bərabər, eyni zamanda bir sıra dəyişikliklərlə də xarakterizə olunur. Bu birinci növbədə sarayın və hakim zümrənin ov maraqlarının artması və bu işə mühüm əhəmiyyət verməleri ilə bağlı idi. İkincisi, bu keçirilən ov mərasimlərinin iriliyi və cəlb olunan resursların böyük həcmdə olması ilə fərqlənirdi. Üçüncüsü, ovçuluq özünün bəslənmə, təlim və qəhrəmanlıq göstərmə kimi ənənəvi funksiyaları ilə bərabər, daha çox bir əyləncə vasitəsi olmaqla diqqəti daha çox cəlb edirdi. Dördüncüsü ov üsul və vasitələri xeyli dərəcədə təkmilləşirdi. Beşincisi, ovçuluq özünün iqtisadi əhəmiyyətini itirsə də, ov məhsulları Səfəvilər dövründə də süfrələrin ləzzətli nemətlərindən sayılmış, dadına və keyfiyyətinə görə fərqlənmişdir.

## Ədəbiyyat

1. Путешественники об Азербайджане. Баку, Изд.АН Азерб.ССР, 1961, 500 стр.
2. Nizami Gəncəvi. Leyli və Məcnun. Filoloji tərcümə. Bakı, Elm, 1981, 292 s.
3. Hasan Bey Rumlu, Şah İsmail Tarihi, çev. Cevat Cevan, Ardıç yayınları, Ankara 2004, 256 s.
4. Q.Şükürov. "Safevîlerde Av Merasimleri", Acta Turcica Çevrimiçi Tematik Türkoloji Dergisi, Yıl 1, Sayı 1, Ocak 2009, s.57-71.
5. O. Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 301 s.
6. Книга Орудж-бека Баята-Дон-Жуана Персидского Пер. О. Эфендиева, А.Фарзалиева. Баку, «Язычы», 1988, 216 стр.
7. Шараф-хан Бидлиси. Шараф-наме (перевод Е. И. Васильевой). Том 2, Москва, «Наука», 1976, 350 стр.

8. Mirzə Abbaslı, Şah İsmayıl Xətainin Ömür Yolu Miniatürlərdə, "İşıq" Nəşriyyatı, Bakı 1981, 45 s., [23] v. şək.
9. Önder S.Y. "Oğuz Resmi ile Avlanma", Acta Turcica Çevrimiçi Tematik Türkoloji Dergisi, Yıl 1, Sayı 1, Ocak 2009, s.12-21.
10. M.Dadaşzadə. Tərlanla ov. "Elm və həyat" jurn., 1966, № 12, s. 25-27.
11. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı, "Öndər nəşriyyat", 2004, 376 s.
12. M.Dadaşzadə. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. Bakı Elm, 1985, 216 s.
13. A.Caferoğlu. "Türklerde Av Kültü ve Müessesesi", VII. Türk Tarih Kongresi Ankara, 25-29, Eylül 1970, C. I, Ankara 1972, s. 169-175.
14. İ. Kafesoğlu. Türk Milli Kültürü, 17. Baskı, İstanbul, Ötüken neşriyyat A.Ş., 1997, 466 s.
15. J. P. Roux. Türklerin ve Moğolların Eski Dini (çeviren Aykut Kazancıgil), Birinci baskı, İstanbul, İşaret yayınları, 1994, 312 s.
16. J. Şarden. Səyahətnamə.—Bakı: Elm, 1994, 96 s.
17. Venesiyalılar şah I Təhmasibin sarayında. (Mikele Membre və Vinçenso Alessandri) (tərc, ön söz, giriş və şərhlər AMEA-nın müxbir üzvü Oktay Əfəndiyevindir.). :Bakı, Təhsil, 2005, 112 s.
18. Mirzə - bəy əl Həsən - əl Hüseyni Cunabidi. Rövzət - üs - Səfəviyyə. TİEA № 3275, 742 s.
19. Ş. Bünyadova. Azərbaycanın təsərrüfatı və mədəniyyəti (XII-XVI əsrlər). Bakı, Elm, 2007, 360 s.
20. Ş. Quliyev. Azərbaycanda su quşlarının ovlanması haqqında. Azərbaycanın Maddi Mədəniyyəti, IV buraxılış. Bakı, Elm, 1965, s. 295-316.

## HUNTING IN THE PERIOD OF SAFAVIDS IN AZERBAIJAN

**Askar Ahmad**

### Summary

**Key words: Safavi's, hunting, Amirshikarbashi, "halgaoglu" (ring hunting), "alma oglu" (apple hunting)**

The article deals with quality changes in the characters, methods and ways of hunting as well as its role in the social-economic life of people during the period of Safavids based on the sources of that period.

Although some of the previous hunting traditions continued during the period of Safavids, several quality changes appeared. Firstly, these modifications were connected with the disappearance the economic substance of hunting (particularly in the life of the upper class) and turning into the method of entertainment, com-

pensation for the moral demand. During the hunting ceremony enjoyment the hunting process, organization of banquets and celebrations, spending the time quite well etc. made it the method of entertainment.

One of the distinguishing features of hunting in the Safavid Empire is that it is deemed to be the symbol of the power, strength and heroism. People who differ for their deftness and professionalism in hunting amidst the society are considered to be honorable and are remembered with the words that express superior power and deftness. The more the hunted animals were powerful and terrible, the more the hunter was highly evaluated. Shah Ismail‘s remembrance as a lion hunter is a good example for it. Hunt ceremonies are the place to show courage and an act to confirm it.

One of the significant features of the hunting during the period of Safavid is that hunting scenes were characterized by its wide-range scale and splendid appearance as well as a substantial number of resources were involved. There were some bodies such as “mirshikarlig” or “ovchubashilig” on hunting in the palaces of Safavid rulers. For instance, during the hunting ceremony where including Shah Ismail himself deputies, soldiers and reputable people of the regions participated more than 46000 wild animals were hunted.

Hunting was one of the ways and training methods of mastering military habits during the period of Safavid. Militaries mastered some qualities during the hunt such as shoot an arrow, rattle the saber, noose, to be tolerant against hardships etc.

In this period hunting is considered to be a game as well. Hunt is a sign of power, at the same time has a competition character. It is known from history that along with hunting some sport competitions such as horse race, shoot an arrow, integrated belt wrestle etc. are also held.

Some methods and ways such as a fence, ditch, well, hollow, trap, grid, arrow, bow, hook are used in the hunting during the period of Safavid as well. In this period one of the widespread methods in hunting is associated with the extensive use of the hound (setter, greyhound). Moreover, the tradition of hunting with domestic birds (goshawk, gyrfalcon, hobby, lanner, merlin, peregrine, falcon, hawk, eagle etc) was also widespread.

# ОХОТА В АЗЕРБАЙДЖАНЕ ВО ВРЕМЕНА СЕФЕВИДОВ

**Аскер Ахмед**

## Резюме

**Ключевые слова: Сефевиды, охота, амиршикарбашы, «халга ову» (круговая охота), «алма ову» (яблочная охота)**

В период правления Сефевидов охота имела большое значение в качестве поддерживающего хозяйства и занимала особое место в жизни населения. В те времена сцены охоты, в которых участвовали правители, значительно отличались своей изысканностью и задействованных в них большим объемом средств. Во время охоты ловились тысячи диких животных. Например, во время охоты поблизости «Ферахан», в которой участвовал Шах Исмаил, было наловлено 46 тысяч диких животных. Во дворцах Сефевидских правителей действовали такие охотничьи организации как «миршикарство» и «овчубашство». Также охота для Сефевидов была средством подготовки военным навыкам. Во время охоты солдаты учились стрелять из лука, фехтовать, арканить, быть терпимыми в беде и др.

# ŞƏKİ ŞƏHƏRİ VƏ ƏTRAF KƏNDLƏRDƏ PİRLƏR VƏ ZİYARƏTGAHLAR

**Anar Əzizsoy, Rahim Həsənov, Elşən Abdurahmanov**
(Türkiyə Batman Universiteti, AMEA, Şəki Regional Elmi Mərkəzi AMEA, Şəki Regional Elmi Mərkəzi)
an.azizsoy@gmail.com, raqimhist@mail.ru,
abdurrahmanov.elshen@mail.ru

**Açar sözlər: qəbir abidəsi, nekropol, inam, inanc, ziyarətgah, pir**

İbtidai icma dövrünün müxtəlif mərhələlərində Şəki və ətraf kəndlərdə bir çox qəbilələrin, əkinçi-maldar tayfaların yaratdığı inam və inanclar, ritual və mərasimlər insanların bu gün də inam bəslədiyi inanc yeri olan ziyarətgahlarda, pirlərdə, ocaqlarda və digər müqəddəs yerlərdə qorunub saxlanmışdır. Şəki bölgəsində ibtidai politeist dinlərin, xüsusilə animizm, fetişizm, şamanizm, bütbərəstlik və s. ilə bağlı bir çox kultlar öz ilkin forma və məzmununu müəyyən qədər dəyişərək, indiki dövrə qədər gəlib çatmış, bəzən də bu mərasim və rituallar demək olar ki, əvvəlki mahiyyətini əsasən saxlamışdır.

Şəki şəhəri və ətraf kəndlərdə hazırda bu kultlarla bağlı tarixi eneolit, erkən və orta tunc dövrləri ilə sıx bağı olan ziyarətgahlara, təbiət qüvvələri ilə və təkallahlı dinlərə bağlı müqəddəs ocaqlara da rast gəlmək mümkündür. Bu ziyarətlərdən bəziləri sonralar siklopik tikili və qalalara çevrilmişdir (məs. Həzrət Əli qalası).

Din faktoru eyni zamanda insanları səyahətə yönləndirən önəmli bir dəyər olaraq qəbul edilmişdir. Dini binalar, ayinlər, dini festivallar, inanclar və dini mərasimlər turistləri maraqlandıran və insanları inanc turizminə yönləndirən önəmli xüsusiyyətərdəndir. İnanc turizmi, ildə təqribən 300 milyon nəfərə xidmət edərək, 18 milyard dollar həcmində gəliri olan bir sahədir. Başqa sözlə, ziyarətgahlar, pirlər, müqəddəs hesab edilən ocaqlar dini-mənəvi mahiyyət daşıyan inanc yerləri olmaqla yanaşı, cəmiyyətin sosial-iqtisadi, ictimai və mədəni əlaqələrinin inkişafına da təsir edən strukturlardan biridir.

**Kiş doxun nekropolu.** Şəki bölgəsində, Kiş çayı hövzəsi düzənlikdə, Kiş və Əyriçay çaylarının birləşdiyi vadidə 1980-cı illərdən aparılan tədqiqatlar nəticəsində e.ə. IV-III minilliklərdən başlamış orta əsrlərə qədər olan dövrü əhatə edən Doxun nekropolu aşkar edilmişdir. Nekropoldan müxtəlif dəfn adətlərinin, ritualların izlərini özündə əks etdirən zəngin maddi-mədəniyyət nümunələri, o cümlədən ibadətlə bağlı bir çox nümunələr aşkar edilmişdir. Kiş Doxun nekropolundan bəzək əşyaları ilə yanaşı gözdəyməyə qarşı, bədnəzərdən qorunmaq üçün muncuqlara və digər əşyalara rast gəlin-

mişdir. Burada eyni zamanda bəzi heyvanların, o cümlədən insanın qurban verilməsi adətini özündə qoruyub saxlayan kurqanlara təsadüf edilmişdir (12, 20-24). Kiş Doxun nekropouna aid kurqanların şimal qurtaracağında orta əsrlərə aid Daban qala, şərqində isə, xristianlığın anası adlandırıan Kiş Alban məbədi yerəşir (şək. 1).

Kiş-Alban məbədi Musa Kalankatuklunun yazdığına görə, İsa Peyğəmbərin həvarilərindən biri Faddeyin şagirdi müqəddəs Yelisey Gisa (Gis-müasir Kiş, Şəkidən şimalda yerləşən kəndin adıdır-Z.Bünyadov) gəlir, burada kilsə tikir və qansız qurban verir. Bu yer Şərqin bütün kilsələləri və şəhərlərin başlanğıcıdır və biz şərqlilələrə xristiyanlığın qəbul edilməsi mənbəsidir (5, 18).

Məlumdur ki, zərdüştlük və xristianlığın meydana gəlməsindən əvvəl Albaniyada təbiət qüvvələrinə-Günəşə və oda, suya və torpağa inamla bağlı inanclar geniş yayılmışdı. Qədim yunan müəllifləri məlumat verirlər ki, albanlar xristianığa qədər bütpərəst idilər və Albaniyada kahinlərin xidmət etdiyi bütpərəst məbədlər var idi. Kahinlərin icra etdiyi qurbanvermə mərasimləri keçrilən bu yerlərdə altarlar, səcdəgahlar, pirlər və məbədlər qurulurdu ki, onlar da əsasən yüksək dağ zirvələrində, keçilməz meşəliklərdə, ölkənin həmişəyaşıl çöllərində tikilirdi. Qurbanvermə məlum adətə, mərasimə uyğun şəkildə həyata keçirilir, heyvanların dərisi başından çıxarılaraq, ocaqda bişirilirdi (15,19).

Şübhəsiz ki, digər xarakterli qurbanvermə ritualları da icra edilmişdir. Kiş kompleksində əhəmiyyətli sayda qəbir abidələri aşkar edilmişdir. Bunu alimlər əsasən dini səbəblərə izah etmiş, burada izləri son Eneoit və ilk Tunc dövrlərinə gedib çıxan ibadətgah təyinatlı qəbrin aşkar edilməsi (15,53) hələ ibtidai icma dövründən etibarən bu ərazidə qurbanvermə mərasimlərinin icra edildiyini, xristian məbədinin inşasına qədər də bu məbəddən müqəddəs ocaq, səcdəgah, ziyarətgah kimi istifadə edildiyini sübut edir. Məbədin içərisində e.ə. IV-III minilliklərə aid keçi kultu ilə bağlı müqəddəs qəbirin olması fikrimizi təstiqləyir (şək. 2).

Kiş məbədinin həyətindəki niyyət daşı-ziyarətgah qəbrin mövcudluğu (e.ə. II-I əsrlər) insanların bu məkanı hal-hazırda da müqəddəs yer kimi qoruyub saxlamasına təsir edən amillərdən biridir. Bəzi insanlar xəstə, danışmayan, gəzməyən uşaqları buraya gətirir, niyyət edərək nicat tapacaqlarına ümid edirlər. (şək. 3)

İslam dininin meydana gəlməsi və Azərbaycanda yayılması ilə əlaqədar ziyarətgahların xarakterinin və obyektinin dəyişməsi baş versə də, inanc yerərində icra edilən mərasim və rituallarin bir çoxu öz ilkin forma və məzmunun əsasən qoruyub saxlamışdır. İnsanlar daha çox Allah rəsulu Məhəmməd peyğəmbərin (s.ə.s.) qəbrini, Kəbəni, Mədinə məscidini, Məscidül-həram və məscidül-Əqsanı, daha sonralar isə Əhli-Beytə aid müqəddəs məkan-

ları, səhabələrin və övliyaların qəbirlərini ziyarət etməyi vacib bilmişlər. Eyni zamanda təbiət hadisələrinə və qüvvələrinə inama bağlı rituallar da icra edilmişdir


Şəkil 1


Şəkil 2


Şəkil 3

**Kiş İshaq əfəndi ziyarəti**. Kişdə mövcud ziyarətgahlar içərisində Hacı İshaq əfəndiyə məxsus qəbir mühüm yer tutur. Qəbrin üzərində aşağıdakı sözlər yazılıb:" Qəbrin sahibi rəhmətlik, bağışlanmış Alim, Fazil, Hacı İshaq əfəndi bin Nəsrullah əfəndi Kişli həzrətləridir. Hicri 1327, zilhiccə ayının 27-si fani (puç dünyadan) baqe (sonsuz yurda) köç etdi: Kitabədə dua, surə ilə ruhuna fatehə, hilal içərisində Qurani-Kərimdən İxlas surəsi və "hər kəs ölümü dadacaqdır sonra bizə döndürüləcəksiniz" ayəti kəriməsi həkk edilmişdir (şək 4 ).


Şəkil 4.


Şəkil 5


Şəkil 6

**Oxud ziyarətgahları**. "Qədim Türk-Oğuz yurdu Oxud" kitabının müəllifi Kamil Adışirinov bəhs edilən əsərdə Oxud kəndində yerləşən ziyarətgahlarla əlaqədar aşağıdakıları qeyd edir: "Oxud müqəddəs ziyarətgahlar, mömin bəndələr, müdrik adamların yaşadığı məkandır. Kənddə üç müqəddəs ziyarətgah var: Yel baba, Hacı Şərif (el dilində - Həşşərif ), Ağalar ziyarətləri Hacı Şərif Piri kəndin girəcəyində, Kiş kəndinə gedən yolun aşağı

hissəsində yerləşir. Oxud kəndi üzrə, deyilənlərə görə, ən qədim ziyarətgahdır. İki qəbir yeri qalıb. Qalan qəbir izləri itmişdir. (6, 27-28).



Şəkil 7



Şəkil 8



Şəkil 9

**Ağalar Piri**. Pirin yaranması oxudlular tərəfindən müqəddəs şəxsiyyət kimi xatırlanan Ağalar adlı şəxslə bağlıdır.Ağalar əslən Türkiyəli olmuş, 1905-ci ildə Oxud kəndinə gəlmişdir. Oxudlulara İslam dinin əsasını ilk öyrədən şəxsiyyətlərdən olmuşdur. Vəsiyyət etmişdir ki, o harada vəfat etsə onu orada dəfn etsinlər. Ağalar kişinn dəfn edildiyi yer pir kimi ziyarətgaha çevrilmişdir (6, 27-28).

**Yel Baba Piri**. Nəinki Oxudda, hətta Azərbaycanda müqəddəs ziyarətgah kimi tanınır. Deyilənlərə görə kəndin dəniz səviyyəsindən 900 m yüksəklikdə olması ilə bağlı havası olduqca təmizdir. "Yel baba" ziyarətgahının yerləşdiyi ərazi havasının təmizliyi ilə əlaqədar göy öskürək xəstəliyi üçün müalicəvi əhəmiyyət daşımışdır. Ziyarətgahın meydana gəlməsi hazırda "qəriblər" adı altında qəbirləri ziyarət olunan şəxslərin adı ilə tanınması ehtimal olunur (6, 27-28).

Ziyarətgahın yaranmasını kənd camaatı belə bir rəvayətlə bağlayır ki, bir zamanlar üç qardaş-Salbuza, Babaratmaya və Yelbabaya düşmüşlər. M.Nemət Oxut pirindəki qəbirlərdən birinin hicri 1105-ci ildə vəfat etmiş Ruqiyə adlı bir qadına, ikincisinin 1141-ci ildə vəfat etmiş Əhməd ibn Əli adlı bir şəxsə, üçüncü qəbrin isə, baş əmir Sultan Məcidə məxsus olduğunu qeyd edir. Və bu qəbirlərin əslində ziyarətlə heç bir bağlılığı olmadığını, xalqın daşların üzərindəki yazıları oxuya bilmədiyi, qəbrlərdəki şəxslərin naməlum qadığı üçün müqəddəsləşdirdiyi qənaətinə gəlir (9,72-73).

Zənnimizcə bu düzgün yanaşma deyil, çünki hicri XII-XIII əsrlərdə nəinki Şəki şəhərində, hətta ətraf bölgələrdə və Azərbaycanda tanınmış nüfuzlu din xadimləri, ziyalılar yetirmiş, İslami biliklərə xüsusi diqqət yetirilən, mədrəslərlə zəngin olan bir bölgədə insanların qəbir üzərindəki yazıları

oxuya bilməməsini söyləmək inandırıcı olmaz. Bununla belə, Oxud ziyarətgahlarının tədqiqata cəlb edilməsi aktuallıq kəsb edir.




Şəkil 10 Şəkil 11



Şəkil 12

Şəki şəhərinin Yuxarıbaş adlanan hissəsində, Mustafa bəy adlanan istirahət yerinin yaxınlığında Şaft-Kərim piri adlı ziyarətgah var. Bu pir hesab edilən tikilinin içərisindəki qəbirdə Şaft-Kərim adlı, XVIII-XIX əsrlərdə yaşayan bir din xadiminin, seçkin bir insanın dəfn olunduğu söylənilir. Bəzən bu piri Şeyx-Kərim piri də adlandırırlar. Pirin içərisində şam yandırılır, buradakı sudan təbərrük kimi istifadə edilir və pirə nəzir verilir (şək.13,14,15).





Şəkil 13 Şəkil 14 Şəkil 15

**Hacı Abdullah Əfəndi (vəfatı-1910) ziyarətgahı**. Şəki şəhərinin Qışlaq dalanan hissəsində, Narlı qəbristanlıqdadır. Oğlu Hacı Əhməddən sonra

onun yolunu davam etdirən olmamış, bu səbəbdən, əlyazmaları və kitabları ailəsi tərəfindən 1985-86-cı illərdə M.Füzuli adına Əlyazmalar institutuna verilmişdir. Bu ziyarətgaha da üz tutanların sayı yetərincədir. Bu ziyarətgaha nəzir deyilməsi, burada qurban kəsilməsi geniş yayılmış bir adətə çevrilib.



Şəkil 16

İnsanların inanclarının gərəyi olaraq gördükləri və dəyər verdikləri şəxslərin məzar və ya türbələrini ziyarət etmələri nəinki Azərbaycanda və onun Şəki bölgəsində, o cümlədən Anadoluda da geniş yayılmış bir adətdir. Şəki şəhəri və ətraf ərazilərdəki ziyarətlərlə müqayisədə, Girəsunda yerləşən Şeyx Kəraməddin türbəsində icra edilən rituallar və bu ziyarətgaha üz tutma məqsədlərində oxşarlıqlar müşahidə edilir.

Belə ki, Şeyx Kəraməddin Türbəsinə müxtəlif niyyətlərlə gəlib və burada rituallar həyata keçirmişlər (3, 46)

Bununla yanaşı, qeyd etdiyimiz türbənin ziyarətçiləri ilə, Şəki şəhəri və ətraf kəndlərindəki müqəddəs hesab edilən yerləri ziyarət edənlərin arasında həm sosial, həm də cinsi baxımdan fərqliliklər vardır. Belə ki, Şeyx Kəraməddin Türbəsi ziyarətçiərinin təqribən 60%-ni orta məktəb, lisey və universitet məzunu, 70% -ə qədərini kişilər təşkil etdiyi halda, Şəki ziyarətlərində bu göstəricilər əksinədir ( 3,46).

Qurani-Kərimdə qəbir ziyarətini birbaşa qadağan edən və ya icazəli bilən, onun şərtlərini və qaydalarını açıqlayan ayə yoxdur. İmam Qəzali bu məsələ ilə əlaqədar qeyd edir ki, ölümü xatırlamaq və ibrət almaq üçün ümumi məzarlıqları ziyarət müstəhəbdır. Bərəkət ummaq üçün də salehlərin məzarlarını ziyarət yenə müstəhəbdır. Rəsuli-Əkrəm əvvəlcə məzar ziyarətini qadağan etmiş, fəqət sonra icazə vermişdir. Həzrət Əlinin rəvayətinə görə, Rəsuli-Əkrəm anasının qəbrini ziyarət etmiş və o günkü qədər daha çox ağladığı görülməmişdi. ”O, gün anamın qəbrini ziyarət üçün mənə icazə verildi, lakin ona istiğfar üçün müsadə edilmədi”-dedi (4, 873).

İmam Qəzali hədislərə dayanaraq, məzar ziyarətlərini vacib əməl sayır onlardan ibrət almanı mühüm şərt hesab etmişdir. Bununla belə, məzarlara toxunmağı, onları öpməyi xristianlara məxsus bir adət hesab etmişdir (4, 873).

Məzar və türbələri nəinki ziyarət etmək, hətta onlara təbərrük etmək də İslam tarixində geniş yayılmış və təşviq olunmuş əməllərdən sayılır. ”Təbərrük” ərəbcədən tərcümədə bərəkətli etmək, xoşbəxtlik, uğur gətirən, xəstələri sağaldan müqəddəs torpaq, su, müqəddəs adamın geyiminin kiçik

parçası və s. mənalara gəlir. Az tapılan, az ələ düşən hər bir şeyə də təbərrük deyilir (1,282).

Qəbir ziyarətləri və onunla bağlı icra edilən bəzi adətlərlə əlaqədar müxtəlif fikir və baxışlara rast gəirik. Qəbir ziyarətləri zamanı bəzi prinsiplərə əməl olunması tövsiyə olunur. Bu prinsiplərə əsasən qəbir ziyarəti vaxtı türbədəki ölüləri fövqəlbəşər varlıqlar hesab etmək, "bu şəxslər Allahın sevimli bəndələridir. Allah onların sözünü qəbul edər və xətirlərinə dəyməz", – deyib onları Allahla özləri arasında vasitəçi etməyə çalışmaq, qəbirlərə əski parçası və qatma bağlamaq, orada şam, çıraq və sairə yandırmaq, nəzir etmək, qurban kəsmək, oradakı daşları öpüb üz-gözünə sürtmək, ucadan ağlamaq kimi hallara qətiyyən yol verməmək lazımdı. Belə şeylər tövhid dini olan İslamın hökmlərinə heç cür uyğun gəlməyən şeylərdir. Ölülərdən nəsə ummaq və onlardan bir şey gözləmək şirk, başqa sözlə, Allaha şərik qoşmaqdır. Şirk isə Allah Təalanın heç vaxt bağışlamayacağını bildirdiyi yeganə günahdır (15).

Eyni zamanda Həzrət Məhəmməd Peyğəmbərin saç-saqqal telinin, sınmış dişinin müsəlmanlar tərəfindən təbərrük kimi götürüldüyü barədə rəvayətlər də var. Peyğəmbərin (s.ə.s) həyat yoldaşı Ümmü-Sələmə onun saçının telini və tər damlalarını yığıb ətirlə qarışdırılmış və saxlamışdı. Peyğəmbərin vəfatından sonra müsəlmanlardan kimə göz dəyirdisə və ya xəstəliyə tutulurdusa, Ümmü-Sələmə Həzrət Peyğəmbərin tellərini bir qabın içinə salıb-çıxarır, sonra həmin suyu xəstə üçün göndərirdi. Xəstələr də bu suyu içib şəfa tapırdılar. İslam Peyəmbəri həcc ziyarəti zamanı saçını qırxdırdıqdan sonra tükləri müsəlmanların arasında paylamağı tapşırmışdı. Məşhur səhabə Xalid ibn Vəlid Həzrət Məhəmməd Peyğəmbərin saçının telini öz dəbilqəsinin içində gəzdirir və inanırdı ki, bu dəbilqə ona qələbə gətirir (7, 75-77).

Şəmsəddin Zəhəbi "Səhihül-Buxarı"nin müəllifi İmam Buxarinin həyatı və dəfni haqqında məlumat verdikdən sonra yazır: "Qəbrin üstündən o qədər torpaq götürdülər ki, qəbir göründü. Biz qəbri qoruya bilmirdik. Axırda hisslərimizə qalib gəlib qəbrin üzərində şəbəkəli zərih quraşdırdıq. Bundan sonra heç kimin qəbrə yaxınlaşmaq imkanı qalmadı (7,77-78).

Qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olar ki, insanların bu gün qəbir və müqəddəs hesab edilən yerləri, türbələri, pirləri ziyarət etmələri, həmin məkanlarda bir sıra rituallar həyata keçirmələri bir tərəfdən qədim dinlərlə, ibtidai təfəkkürlə bağlı olsa da, digər tərəfdən İslam dinində də rast gəlinən hallarla bağlıdır. Xüsusilə qəbirlərdən təbərrük məqsədi ilə torpaq götürülməsi, pirin üzərində xalq dilində "tutiyə" adlandırılan suyun içilməsi, bəzi qidaların əvvəlcə ziyarətgahlara aparılaraq, bir hissəsinin orada yeyilməsi və paylanması, digər hissəsinin evə "tutiyə" kimi gətirilməsi, qurban kəsilməsi, nəzir verilməsi, öz paltarından hansısa bir hissənin pirdə tərk

edilməsi və s. hallar bir çox türk xalqlarında tarixən mövcud olan dinlərin çox möhkəm formalaşmış, qatılaşmış izləri olmaqla bərabər, Şəki bölgəsində İslam dininin hətta geniş yayıldığı və möhkəmləndiyi XVII-XIX əsrlərdə belə əsaslı şəkildə mühafizə edilmişdir.

İctimai formasiyaların, sosial-iqtisadi durumun, siyasi idarəetmənin dəyişikliyə uğraması, cəmiyyətin strukturunun dəyişməsi insanların inanc sistemində bəzi dəyişikliklər yaratsa da, milli-mənəvi dəyərlər, dini rituallar əsasən qorunub saxlanmışdır. Hətta İslam dinində mövcud olan müxtəlif təriqət və məzhəblərin, fikir və konsepsiyaların qəbir ziyarətləri ilə bağlı fərqli, bəzən bir-birinə zidd yanaşma və açıqlamaları da insanların bu adətləri yaşatmasına mane olmamış, sadə xalq bu tarixi irsi, mənəvi sərvəti özündən sonrakı nəsillərə miras olaraq çatdıra bilmişdir. Şəki şəhəri və ətraf kəndlərində qeyd etdiyimiz nüanslar bu gün də öz aktuallığını saxlamaqdadır.

İnsanların inaclarının gərəyi olaraq gördükləri və dəyər verdikləri şəxslərin məzar və türbələrinin ziyarət etmələri bir çox türk xalqlarında, o cümlədən Azərbaycanın Şimal-Qərb bölgəsində oduqca geniş yayılmış bir adətdir.

## Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. 4 ciddə, IV cild, S-Z. Bakı-2006, səh 282
2. Ən-Nişaburi, əl-Hakim Əbu Abdullah Muhəmməd ibn Abdullah. Əl-Müstədrək ələs-Səhiheyn (4 cilddə), Heydərabad, 1340 hicri-qəməri, 1-ci cild, səh 377.
3. İbrahim SEZER. Bekir ÖZTÜRK. İnanç Turizmi Kapsamında Yapılan Türbe Ziyaretlerinin, Ziyaretçilerin Bakış Açısıyla Değerlendirilmesi: Şeyh Kerameddin Türbesi Örneği.Boztekke Köyü/Giresun-2014.
4. İmam Qəzali. İhyau Ulumid-din.Cild : 4-Rubul-Münciyat. İstanbul-1975.
5. M.Kalankatuklu. Albaniya tarixi. Bakı-1993, səh 18
6. Kamil Adışirinov. Qədim Türk-Oğuz yurdu Oxud. Bakı-2006,27-31.
7. S. Kazımov. İslamda türbə və qəbir ziyarətləri. Bakı 2014
8. Kurar, İ. ve Akbaba, A., (2013), "Tarsus İnanç Turizmi Potansiyeli ve Halkın İnanç Turizmine Bakışı", International Conference on Religious Tourism and Tolerance, 9-12. May 2013, s. 781-795, Konya /Turkey
9. M.Nemət. Azərbaycanda Pirlər. Bakı-1992, səh 72-73
10. Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri.XI
11. Respublika elmi konfransının materialları. Bakı 2008, səh 178-186.
12. Səhihül-Buxari, Kitabül-Libas, 66-cı bab,hədis 5896
13. Səhihül Müslim, Kitabül-Həcc. 56-cı bab, hədis 3152-3155,bax. həmç. Sinətüt- Tirmizi, Kitabül-Həcc, 73-cü bab, hədis 912
14. Şəki şəhərində Tarix və Mədəniyyət abidələrinin qorunması, tədqiqi və istifadə olunması problemlərinə əhsr olunmuş elmi-praktik konfransın materialları. Bakı-Şəki 1996, səh 20-24
15. V.Kerimov. B.Sturfiel. Kiş. Baku-2003, səh 19
16. http://www.muselmanlar.com/fitvalar/2595.html. Islamda pir və ziyarətlər

# MONUMENTS AND SHRINES IN SHAKI CITY AND SURROUNDING VILLAGES

**Anar Azizsoy, Rahim Hasanov, Elshen Abdurahmanov**

## Summary

**Key words: burial monuments, necropolis, faith, cult, shrines, mosques**

In this article the existing sanctuaries and places for pilgrimage in the Sheki region and surrounding villages and their roles are discussed, including their characteristics, ceremonies and rituals, and their positions in the social-public and religious life of society. These historical areas date back to 3000-2000 B.C. There are also sites dating to ancient times and the Middle Ages. Many of the sites are connected to the history of Caucasian Albania. It is noteworthy that many sites dating to the historical periods mentioned above can be found in the area under study.

This article thoroughly analyzes various monuments and presents different theories about their names and their religious history.

# ПИРЫ И СВЯТИЛИЩА ГОРОДА ШЕКИ И ОКРЕСТНОСТЕЙ

**Анар Азизсой, Рагим Гасанов, Эльшан Абдурахманов**

## Резюме

**Ключевые слова: погребальный памятник, некрополь, вера, культ, святилище, пир.**

В настоящей статье описаны и проанализированы памятники материальной культуры, пиры и святилища города Шеки и его окрестностей. Древнейшие из них восходят к III-II тыс. до н.э. Зафиксированы также памятники античного времени и средневековья. Среди них важное место занимают памятники связанные с историей Кавказской Албании. Примечательно, что с указанными историческими этапами непосредственно связаны многие пиры и святилища, находящиеся на изучаемой территории.

В статье они всесторонне проанализированы. Представлены различные версии о их назначении и сакральной сущности.

# XRONİKA, RƏYLƏR, XƏBƏRLƏR
# CHRONICLES, REVIEWS, INFORMATIONS
# ХРОНИКА, РЕЦЕНЗИИ, СООБЩЕНИЯ

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu "Orta əsrlər arxeologiyası" şöbəsinin elmi işçisi, "Azərbaycan Arxeologiyası" jurnalının məsul katibi Sevda Bəhram qızı Hüseynovaya

## Hörmətli Sevda xanım!

“Azərbaycan Arxeologiyası” jurnalının Redaksiya heyəti və jurnalın oxucuları adından Sizi - Azərbaycanın orta əsr arxeoloji abidələrinin yorulmaz tədqiqatçısını, səmimi və qayğıkeş insanı yubiley münasibəti ilə səmimi qəlbdən təbrik edir, Sizə möhkəm can sağlığı, yaradıcılıq uğurları və sevinc dolu uzun illər arzulayırıq.